AMEA Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi Arxivindəki fond 39-da saxlanan A.M. Şərifovun şəxsi işində işə girmək üçün 1933-cü il fevralın 15-də yazdığı ərizə, bir neçə özkeçmişi (tərcümeyi-halı), əsərlərinin siyahısı və kadr anketi var. Oradakı özkeçmişində Abdulla Şərifov atalarının Volqaboyu tatarlarından olduğunu, Troitsk şəhərinə köcdüklərini, atası Məhəmmədin məhəllə məktəbində dərs dediyini, ilk təhsilini atasının açdığı ibtidai məktəbdə aldığını, sonradan Troitskidəki rus-tyuzem (Azərbaycanda bu məktəblər rus-tatar məktəbi adlandırılırdı – Ə. Ş.) məktəbində beş il oxuduğunu yazıb.

Abdulla Şərifovun yazdığı özkeçmişində göstərilir ki, 1908-ci ildə valideynləri onu oxumaq üçün İstanbula göndərib. Təəssüf ki, İstanbulda oxuduğu məktəbin adı dəqiq göstərilməyib. Sadəcə Müsəlman xeyriyyə cəmiyyətinin hesabına darülmüəllimdə oxuduğu və 1914-cü ildə vətənə döndüyü yazılıb (AMEA AEİTVSMA, fond, 39).

Bu həmin illərdir ki, milliyətcə özbək olan Xalid Səid Xocayev də İstanbulda olub və Darülfününda oxuyub. Hər ikisi 1923-cü ildə Azərbaycana gəlib, dilçiliklə məşğul olub, SSRİ EA Zaqafqaziya Filalının Azərbaycan şöbəsində işləyib.

Xalid Səid Xocayev "Türk, özbək, tatar dillərinin sərfi", "Üslubiyyat", "Yeni əlifba yollarında əski xatirə və duyğularım" kitablarını yazıb, 1937-ci ildə Qaşqarlı Mahmudun "Divan-i lüğət-it türk" əsərini Azərbaycan türkcəsinə çevrib. Eləcə də dilçiliyə, ədəbiyyatşünaslığa dair onlarla məqalə yazıb (Şamil, 2003: 36, sayı 19).

Abdulla Şərifovun və Xalid Səid Xocayevin özkeçmişlərində İstanbulda görüşmələri, birgə toplantılara qatılıb qatılmamaları haqqında heç bir bilgi yoxdur.

1.1. Abdulla Şərifovun Troitskidəki müəllimlik və jurnalistlik fəaliyyəti

Troitskiyə qayıdan Abdulla Şərifov müəllim işlədiyi dövrdə qəzet və jurnallarla əməkdaşlıq da edib. Bu haqqda bilgiyi kadr ankentindəki sənədlərdən öyrənirik. Təəssüf ki, həmin sənəddə hansı məktəbdə işlədiyi, hansı qəzet-jurnallarda çalışdığı qeyd edilməyib. Onun 5 illik fəaliyyəti haqqında araşdırmaya da rast gəlmədik.

Abdulla Şərifovun kadr anketində 1919-cu il sentyabrın 1-dən Anjersk musiqi məktəbində və Tümendəki Birinci Tatar Məktəbində müəllim işlədiyi göstərilib. Həmin dövr bölgədə ictimai siyasi vəziyyət çox qarşışq olub. Samarada Təsis Məclisi Üzvləri Komitəsi, Omskdə Müvəqqəti Sibir Hökuməti, Yekatenburqda Uralın Müvəq-qəti Regional Hökuməti, Başqırdıstan Hökuməti, Türk Tatarları Müsəlmanları Milli İdarəsi, Müvəqqəti Ümumrusiya Hökuməti (Ufa Katoloqu) və b. hökumətlərin qurulduğu elan edilib. Aleksandır Dutovun kazak dəstələri, admiral Aleksandır Kolçakın rəhbərlik etdiyi

keçmiş çar ordusunun əsgər və zabitləri bölgədə at oynadıb.

Bu qarışıqlıqda Abdulla Şərifovun kimlərin tərəfində olduğunu öyrənə bilmədik. Sadəcə, 1919-cu ildə Rusiya Kommunist (bolşeviklər) Partiyasına daxil olduğunu və 1921-ci ilin martında Tümendə quberniya rəhbərinin milli məsələlər üzrə müavini təyin edildiyini yazıb (AMEA AEİTVSMA, fond, 39).

Rəhbər vəzifədə işləyən, Birinci Tatar Məktəbində və Həmkarlar İttifaqının təşkil etdiyi kurslarda dərs deyən birisinin beş ay sonra Tomsk Universitetinə oxumağa getməsi inandırıcı görünmür, çünki bolşeviklərin həmin vaxt gənc və savadlı kadrlara böyük ehtiyacı vardı (AMEA AEİTVSMA , fond, 39).

1.2. Abdulla Şərifovun Bakıya gəlişi

1921-ci ilin payızında Tomsk Universitetinin ictimai fənnlər fakültəsinə qəbul olunan Abdulla Şərifov universitet bağlandıqdan sonra, yəni 1923-cü ilin iyununda Bakıya gəldiyini yazır. Lakin bu faktı təkzib edən faktlara mətbuat səhifəsində rast gəlmək olur.

1923-cü il may ayının 5-də, yəni həmin dövrdə qeyd edilən mətbuat günündə, mayın 5-də "Kommunist" qəzeti əməkdaşlarının iş şəraiti haqqında məlumatlar dərc edib. Orada redaksiyanın müdir (redaktor) müavini Məmməd Səid Ordubadi, məsul katib Əhməd Triniç (Bədi), katibin müavini Akif Kazım(ov) və partiya şöbəsi müdir müavininin katibi Abdulla Şərif(ov) .... olduğu göstərilir. (Məhərrəmov, Məhərrəmli, 2009: 26).

Buradan aydın olur ki, Abdulla Şərifov 1923-cü il may ayından öncə Bakıya gəlib. Bu, onun Bakıya ilk gəlişi idimi, yoxsa öncələr də gəlibmişmi? – sualına oxuduğumuz sənədlərdə heç bir cavab tapa bilmədik. O, Bakıya gəlişini istər özkeçmişində, istərsə də 1938-ci ildə müstəntiqin verdiyi suallara cavabda Tomskda Universitetin bağlanmasıyla izah edir. Lakin onun bu cavabı o qədər də inandırıcı görünmür.

Birincisi, həmin illərdə Sovetlər Birliyində ümumtəhsil, orta ixtisas və ali məktəblərə tələbə qəbulu sentyabr ayında başlayırdı. Abdulla Şərifov isə Bakıya iyun ayında gəldiyini yazır (Hüseyn oğlu, 2005: 462). Həqiqətdə isə may ayından öncə gəlib.

İkincisi, həmin vaxt Moskvada, Leninqrad-da, Kazanda və başqa şəhərlərdə tanınmış univerisitetlər vardı. Azərbaycan Dövlət Universiteti isə 1919-cu ildə qısa ömürlü Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılmışdı. Bu ali təhsil ocağı, necə deyərlər, hələ təzəcə formalaşırdı.

Abdulla Şərifovun Bakıdakı fəaliyyətini öyrənib həmin dövrün hadisələri ilə qarşılaşdırdıqda bu qənaətə gəlmək olur ki, o, təqiblərdən, cəzadan qurtulmaq üçün Tomskdan, Orenburqdan uzaq və diqqəti cəlb etməyən bir yerə getməyi qərara alıb. Sov.İKP tarixi ilə yaxından tanış olan hər bir şəxsə məlumdur ki, Mərkəzi Komitənin qərarı ilə Kommunist Partiyası bir neçə dəfə sıralarında "təmizləmə" adı altında sərbəst düşüncə sahiblərinə, xalqının və millətinin taleyi üçün narahat olanlara, haqsızlığa etiraz edənlərə divan tutub. Görünür, Abdulla Şərifovun partiyadan xaric olunması 1914-1919-cu illərdəki fəaliyyəti və yazmış olduğu məqalələrlə bağlı olub. Onun Bakıya gəlməsi 1922-1923-cü illərin "təmizləmə" kompaniyasına təsadüf edib.

Abdulla Şərifov qısa müddətdə özünü bacarıqlı bir işçi kimi tanıda bilib. "Kommunist"

qəzeti nəzdində fəaliyyət göstərən dinləyicilər kursunda mühazirələr oxuyub. Rusiya K(b)P MK-nin 1925-ci il may ayının 30-da verilmiş "Hazırda yeni qəzet işçiləri kadrlarının hazırlanması bizim milli mətbuatın ən aktual vəzifəsidir" qərarından sonra 51 filoloq alimlər, dilçilər, jurnalistlər mühazirə oxunuşuna səfərbər edilib. Bəkir Çobanzadə, Məhəmmədhəsən Baharlı (Vəliyev), Əliəkbər Heydərli, Həbib Cəbiyev, Məmməd Səid Ordubadi, Böyükağa Talıblı, Vəli Xuluflu, Əli Kərimov, Zinətulla Nuşirəvanov, Salman Mümtaz, Əhməd Triniç (Bədi) sırasında Abdulla Şərifovun da adına rast gəlirik. Bu siyahıdan belə anlaşılır ki, artıq 1925-ci ildə Abdulla Şərifov sadə bir müxtir kimi deyil, araşdırmaçı, dərs deməyə layiq müəllim kimi də tanınırmış. (Məhərrəmov, Məhərrəmli, 2009: 52).

Ehtimal ki, Tomskdə cəzadan qurtulub, yenidən kommunist partiyasına bərpa olunan Abdulla Şərifovun həmin təşkilatda qalması çox da uzun sürməyib. 1923-cü ildən Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olan, oxuduğu illərdə özünü fəal kommunist kimi göstərən, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin

orqanı “Kommunist” qəzetində işləyən Abdulla Şərifovu 1928-ci ildə keçmiş fəaliyyətinə görə Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının sıralarından xaric edilib. O, bir daha partiya sıralarına bərpa oluna bilməyib. (Hüseyin oğlu, 2005: 46). Bolşeviklər arasında böyük nüfuz sahibi olan, tatar Mirsəet Sultan-Qaliyevin 1923-cü il sentyabrın 17-23-də Moskvada keçirilən Rusiya Kommunist (bolşeviklər) Partiyasının 12-ci qurultayındakı çıxışı müsəlman-türk nümayəndələr tərəfindən alqışlarla qarşılanıb. Lakin bu alqışlar təkcə Mirsəet Sultan-Qaliyevə deyil, müsəlman-türk bolşeviklərinə baha başa gəlib. “Sultan-Qaliyevin işi” deyilən bir cinayət işi açılıb. Mirsəet Sultan-Qaliyev məşhur Lyubyunka istintaq təcridxanasına göndərilib, bolşeviklərin sırasındakı müsəlman-türklərə qarşı təzyiq və təqiblər artırılıb.

Abdulla Şərifovun Bakıya gəlişi Azərbaycanda milli düşüncəli insanların dəstə-dəstə həbs edilərək Solovkidəki, Suzdaldakı, Yaroslavdakı həbs düşərgələrinə göndərildiyi vaxta təsadüf edib (Ağaoğlu, 2004). Burada yarana biləcək milli-mənəvi boşluğu doldurmaq üçün taleyin hökmü ilə Tomskdan Abdulla

Şərifov, Kazandan Qazis Ubaydullin, Kırımdan Bəkir Çobanzadə, Daşkənddən Xalid Səid Xocayev və onlarla milli təfəkkürlü aydın və araşdırıcı Bakıya gələrək qısa müddətdə güclü bir türkoloji mərkəz yarada bilirlər.

Lakin partiya və sovet funksiyanerlərinin, xüsusi xidmət orqanlarının hər addımda onların işinə əngəl olduqlarını gördükdə sözü ilə işi düz gəlməyən kommunistlərə qarşı mübarizə üçün təşkilatlanıblar.

Bir çox milli təfəkkürlü, haqsızlığa dözməyən, əzilən xalqları xilas etmək istəyən insanlar kimi Abdulla Şərifov da rəhbər özəyi 1925-ci ildə Səmərqənddə qoyulan millətçi təşkilata üzv yazılıb. Bu təşkilatın fəalları sırasında RSFSR (Rusya Sovet Federativ Sosialis Respublikaları) Xalq Komissarları Soveti sədrinin muavini Turar Rıskulovun, RSFSR Mərkəzi İcraiyyə Komitəsinin katibi Şuqu Əmirəsənin, Özbəkistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi Abdullo Raximbayovun, RSFSR Xalq Maarif Komissarı Xaris Yumanqulovun, Dağıstan Muxtar Sovet Sosialist Respublikasının Xalq Maarif Komissarı Taxo Qodinin, Qaraçay-Çərkəz Muxtar Sovet Sosialist Respublikası

Mərkəzi İcraiyyə Komitəsinin sədri Ömər Əliyevin, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Sultanməcid Əfəndiyevin, ZSFSR (Zaqafqaziya Sovet Federativ Sosialit Respublikaları) Xalq Torpaq Komissarı Dadaş Bünyadzadənin, Azərbaycan Xalq Maarif Komissarı Mustafa Quliyevin və b. onlarla aydının adı çəkilir. (Bünyadov, 1993). Rusiyanın müstəmləkəsindən qurtularaq Vahid Türk-Tatar dövləti yaratmaq istəyən bu təşkilata Əziz (Qazis) Ubaydullin Abdulla Şərifovu da cəlb edir.

Görkəmli ictimai-siyasi xadim, xalqların azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmış Sultan-Qaliyevə Sovet hökuməti oyuncaq məhkəmə qurub onu məhv etdikdən sonra silahdaşları təqiblərdən yaxa qurtarmaq üçün ölkənin müxtəlif bölgələrinə dağılırlar. Əziz (Qazis) Ubaydullin də Bakıya gəlir, Universitetdə işə düzəlir və qısa müddətdə özünə uğurlu bir çevrə qura bilir (Bünyadov, 1993: 92-94).

Azərbaycanın ümumtəhsil məktəblərinin 10-11-ci siniflərərində tədris üçün hazırlanmış "Azərbaycan dili" dərsliyində Abdulla Şərifov haqqında yazılıb: "30-cu illərdə ümumitəhsil və

orta ixtisas məktəbləri üçün bir neçə Türk dili dərsliyi yazıb. Abdulla Şərifovun Türk dialektologiyasına və nəzəri qramatikaya aid dəyərli tədqiqatları vardır" (Hacıyev, Cəfərov, 2001: 57).

2. Abdulla Şərifovun elmi fəaliyəti

Bakıya gəlməsi ilə münbit bir mühitə düşən gənc Abdulla Şərifov 1928-ci ildə Universiteti bitirib və 1929-cu ilin fevralında aspiranturaya qəbul olunub. Aspiranturada oxuduğu illərdə Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat kafedrasında assistent işləməyə başlayıb. İti jurnalist qələmi, dərin biliyi və zəhmətsevərliyi ona qısa müddətdə elm aləmində də uğur qazandırıb. 1932-ci ilin sentyabrından ali məktəbdə müəllim işləməyə başlayıb.

1933-cü ilin fevralında isə onu SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialına işə dəvət edirlər. Filialın tarix, ədəbiyyat, dilçilik bölməsində elmi işçi kimi çalışdığı zaman Azərbaycanın rayonlarına təşkil edilən ekspedissiyalarda iştirak edib, materiallar toplamaqla yanaşı, gənc kadrların hazırlan-

masına da xüsusi diqqət yetirib. Onun tək və İdris Həsənov, Qulam Bağırovla birgə yazdığı qrammatika kitabları təkrar-təkrar çap olunaraq orta məktəblərdə və texnikumlarda tədris edilib.

Şəxsi işində Abdulla Şərifovun aşağıdakı elmi əsərləri olduğu göstərilir:

1. Türk-tatar dillərinin sinharmoniyası haqqında. ("Azərbaycanı öyrənmə yolu" jurnalı, 1931, sayı 1-2, 3)

2. Türk dili qrammatik katoqoriyalarının təsnifat prinsipləri haqqında. (SSRİ EA AFE, 1936: sayı 1)

3. Azərbaycanın Şamaxı dialekti. (Şamaxı rayonuna iki illik ekspedisiyanın yekunları). (Şərifov, 1935)

4. Texnikumlar üçün qrammatika. (Q.Bağırov və İ.Həsənovlv birlikdə). I və II hissələr. (Texnikumlar…, 1932)

5. Orta məktəblər üçün türk dilinin qrammatikası (İ.Həsənovla birlikdə). I və II hissələr. (Orta məktəblər…, 1933)

6. Rus-türk məktəblərində dilinin tədrisi (müqayisəli metodun əsaslandırılması). (Prosveşşenie…, 1935: sayı 1)

Abdulla Şərifov Azərnəşrin yaxın günlərdə "Türk qrammatikasının sabit kursu" kitabının

çap edəcəyini yazıb. O, M.İ.Menşikovun "Yafetidologiya və marksizm", eləcə də akademik Marrın "Yafetidologiya və marksizm haqqında Bakı diskussiyaları" kitablarını Azərbaycan türkcəsinə çevirib, redaktə edərək 1932-ci ildə Bakıda nəşr etdirib.

1938-ci ildə DTK (KQB) müstəntiqinə izahatında Abdulla Şərifov 22 kitab müəllifi olduğunu yazır (AMTNA, 1938, sayı 10497). Çox təəssüf ki, o kitabların bir qismi irtica dalğasında itib-batdığından, onları tapıb çap etmək bu gün mümkünsüz sayılır.

2.1. Repressiya olunmasının səbəbi

Gənc yaşında ali məktəbdə kafedra müdiri, elmi-tədqiqat institutunda bölmə müdiri işləyən Abdulla Şərifov 1937-ci il dekabrın 20-də "Sovet hökümətinə qarşı silahlı mübarizə mövqeyində dayandığına və elmi cəbhədə ziyankarlıq işi aprdığına görə" ittihamı ilə həbs edilib (Bünyadov, 1993: 92). 1932-ci ildən Azərbaycan Xalq Daxili İşlər Komissarlığının işlədiyi müəəssisədə müvəkkili olması da onu həbsdən qurtara bilmib. 1937-ci ilin başlarında SSRİ EA Zaqafqaziya Filalı Azərbaycan

şöbəsinin əməkdaşları Əli Nazim, Abdulla Tağızadə, Əbdüləzəl Dəmirçizadə və başqaları işdən azad ediləndə Filialın direktoru Alfred Zifeldtin 1937-ci il martın 20-də verdiyi 21 nömrəli əmrlə "Lüğət- terminalogiya bölməsi"nə müvəqqəti olaraq Abdulla Məhəmməd oğlu Şərifov rəhbər təyin edilmiş və ona yarımçıq qalmış "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ni tamamlamaq əmr edilmişdir. Aradan üç ay keçəndən sonra, yaxın dostu, birgə kitab yazdığı İdris Həsənov aşağıdakı əmri imzalamalı olub.

Əmr №52

SSRİ EA Azərbaycan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutu üzrə

21 iyun 1937-ci il

Bu tarixdən etibarən Tarix, Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi A.M.Şərifov linqivistika kabinetinin işini pozduğuna, ardıcıl iş planını yerinə yetirmədiyinə, Azərbaycan dilinə vurduğu zərərə, xalq düşmənlərinə (Çobanzadəyə, Xulufluya, Sami Kamala və onların davamçıları Məhərrəm Kamilə, Qulam Bağırova və. b.) dəstək verdiyinə görə işdən azad edilsin.

Əsas: SSRİ EA Azərbaycan Filialı Rəyasət Heyətinin 20 iyul 1937-ci il qərarı.

İmza: İ. Həsənov,
SSRİ EA Azərbaycan Filialı Tarix, Dil və Ədəbiyyat
İnstitutunun direktoru. (AMEA AEİTVSMA , fond, 39)

Maraqlı burasıdır ki, üç ay öncə yarım qalmış lüğəti tamamlaması üçün işə götürdükləri bir alimi "kabinetin işini pozmaqda, ardıcıl iş planını yerinə yetirməməkdə, Azərbaycan dilinə vurduğu zərərdə" ittiham etmələri inandırıcı görünmür və məsələnin içində bir qəsd olduğu anlaşılır. DTK (KQB) müstəntiqlərinin ittihamının da bu əmrdəki kimi olması fikrimizi əsaslandırır.

Bütün sahələri ciddi nəzarət altında saxlayan Sovet xüsusi xidmət orqanları ali təhsil ocaqlarına, elmi-tədqiqat müəssisələrinə, qəzet və jurnallara xüsusi diqqət yetirirdi. Belə müəssisələrin rəhbərliyinə kimlərin təyin edilməsinə nəzarət etməklə yanaşı, orada biri-birindən xəbərsiz bir neçə agent, müvəkkil saxlanılırdı.

Bilmək olmur, Abdulla Şərifovu keçmişdəki fəaliyyətini xatırladaraq və xarakterinin zəif cəhətlərini taparaq 1932-ci ildə onu Azərbaycan

Xalq Daxili İşlər Komissarlığı çalışdığı təşkilatda müvəkkil təyin edib, yoxsa ozü millətçi fəaliyyətini rahat davam etdirmək üçün bu işə razılaşıb. Lakin onun müvəkkilliyi o qədər də qaneedici olmur. 1937-ci ilin dekabrın 20-də həbs ediləndə ona verilən ittihamın biri də "Azərbaycan SSR XDİK-in müvəkkili ola-ola əksinqilabi pantürkist təşkilatın üzvü olmasıdır" (Bünyadov, 1993: 92).

Diqqəti çəkən odur ki, Abdulla Şərifov müvəkkili olduğu təşkilata, ona firavan həyat, xoş güzəran vəd edən təşkilata deyil, ürəyinin istədiyi, sabahına ümid bəslədiyi, gizli fəaliyyət göstərən millətçi təşkilata üzvlər cəlb edirmiş. 1938-ci ilin 13-14-də keçirilən ikinci istintaqda müstəntiqə belə cavab verib: "1934-1936-cı illərdə mən əksinqilabi millətçi təşkilata aşağıdakı şəxsləri cəlb etmişdim: 1933-cü ilin aprelində Tarix, Dilçilik və Ədəbiyyat İnstitutunun direktoru vəzifəsini yerinə yetirən İdris Həsənovu və 1934-cü ildə SSRİ EA Azərbaycan Filialının aspirantı Ələkbər Babazadəni. Onların üzərninə aşağıdakı vəzifələr düşürdü:

1. Özlərinin elmi-nəzəri və praktiki işlərində, əsərlərində və dərsliklərində pantürkist və millətçi ideyaları yaymaq.

2. Tələbə gənclər arasında burjua millətçi ədəbiyyatı genişləndirərək onları pantürkist və Sovet hökümətinə qarşı düşmən ruhda tərbiyə etmək" (Bünyadov, 1993: 93).

Uzun illər araşdırıcılar 1937-ci illərin istintaq ifadələrinə təzyiq altında və zor tətbiq etməklə alındığına görə ciddi yanaşmırdılar. Bizcə, faktların hamısını şübhə altına almağa əsas yoxdur. Müstəntiqin "yaxın tanışlarınızın adlarını söyləyin?" sualına cavabında o, Bəkir Çobanzadənin, Əziz (Qazis) Qubaydulinin, Abdulla Tağızadənin, Hənəfi Zeynallının, Qulam Bağırovun, İdris Həsənovun, Davud Quliyevin, Xalid Səid Xocayevin, Alfred Zifeldtin, Zinnət Zakirovun adlarını çəkmişdir. Müstəntiq ona sual verəndə ki, gizli təşkilata kimləri cəlb etmisiniz? O, yaxın dostu İdris Həsənovun və Ələkbər Babazadənin adını çəkmişdir (Hüseynoğlu, 2005: 463). Adı çəkilən insanların heç bir gizli təşkiların üzvü olmadıqları, adamların adı müstəntiqin iradəsilə müttəhimdən alındığı fikrilə razılaşsaq, onda ortaya belə bir sual çıxır: Nədən Abdulla Şərifov

onunla müştərək dərslik yazan Qulam Bağırovun deyil yaxın dostu İdris Həsənovun adını çəkir? Axı onların hər ikisilə şərikli dərslik yazmışdır!

İkincisi: müstəntiq dəfələrlə onu cəsusluqda təqsirləndirmişdir. Lakin o heç vaxt bu ittihamla razılaşmamışdı. Biz istintaq zamanı zor tətbiq edildiyinə, təzyiqlər göstərildiyinə qətiyyən etiraz etmirik, amma verilən bütün ifadələri şübhə altına almaqla razılaşmırıq, çünki başqa çoxlu qaynaqlar da ifadələrin bir çoxunun doğruluğunu təsdiqləmiş olur.

Araşdırıcılar müstəntiqlərin işini şübhə altına almaqla minlərlə insanın nahaqdan məhv edildiyi fikrini formalaşdırmağa çalışırlar. Bununla da onlar öz əqidəsi uğrunda illərlə mübarizə aparan, təşkilatlanan, bu yolda ölümə gedən insanların xidmətləri üzərinə kölgə salmış olurlar. Bunu Abdulla Şərifovun 1938-ci il yanvarın 19-dakı dördüncü dindirmədəki cavabları da aydın göstərir. O, irtica maşınının onu məhv edəcəyindən çəkinməyərək özünün ictimai-siyasi fəaliyyəti haqqında bilgi vermişdir. Müstəntiq də onun verdiyi bilgilər əsasında aşağıdakıları yazmışdır:

1. 1918-ci ildən həbs olunan günədək əksinqilibi millətçi pantürküst mövqedə durmuşdur.

2. 1920-ci ildən başlayaraq 1938-ci ilədək Ümumi İttifaq Kommunist (bolşeviklər) Partiyası sıralarında ikən öz əksinqilabi görüşlərini partiyadan gizlətmişdir.

3. 1928-ci ilin sentyabrından pantürkist millətçi təşkilatın rəhbərlərindən Qubaydullinlə sıx əlaqədə olmuşdur.

4. Sovet hökumətinə qarşı silahlı üsyan hazırlamaq yolu ilə Vahid Türk-Tatar Ddövləti yaradılmasında əksinqilabi pantürksit təşkilatın ideyalarına tam şərik idi.

5. 1930-cu ildən başlayaraq Qubaydullinin göstərişi üzrə ali məktəb tələbələri və SSRİ EA Azərbaycan Filialının elmi əməkdaşları arasında əksinqilabi pantürkisit təbliğatı genişləndir-mişdir.

6. 1933-34-cü illərdə əksinqilabi təşkilata cəlb etdiyi adamlar arasında institutun alimləri İdris Həsənov və Ələkbər Babazadə də olmuşdur.

7. 1932-ci ildən həbs olunan günədək Azərbaycan Sovet Sosialist Resbublikası Xalq Daxili İşlər Komissarlığı müvəkkili kimi

fəaliyyət göstərə-göstərə əksinqilabi pantürkist təşkilata daxil olmuşdur. Bunu Azərbaycan SSR XDİK orqanlarından gizlətmişdir (Bünyadov, 1993: 93, Babayev, 2003: 179).

Bu etiraflar DTK-KQB müstəntiqlərini qane etməmişdir. Onu həm də casusluqda suçlamışlar. Dördüncü istintaqdan iki ay sonra, yəni 1938-ci il martın 8-də aparılan dindirmədə ona nə qədər cəza versələr də casusluğu haqqında bir fakt belə olsun deyə bilməmişdir. Əksinqilabi millətçi təşkilatın üzvü olduğuna dair aparılan istintaqlarda suallara cavab verən, lakin casusluq ittihamını rədd edən Abdulla Şərifovun işi üzrə istintaqı müstəntiqlər 1938-ci il martın 9-da bitmiş hesab edərək onu Azərbaycan Sovet Sosialist Respublikası Cinayət Məcəlləsinin 64, 69 və 70, 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunması haqqında qərar çıxarırlar (Bünyadov, 1993: 94, Babayev, 2003: 180).

1938-ci il iyulun 3-də saat 18.15-də başlayan SSRİ Ali Məhkəməsinin Həqbi Kollegiasının qapalı iclası 18.25 dəqiqədə (10 dəqiqə ərzində alimin taleyi həll olunmuşdur.) başa çatmış və Abdulla Məhəmməd oğlu Şərifov ən ağır cəzaya – güllələnməyə məhkum

olunmuşdur. 10497 saylı istintaq işinə hökmün dərhal yerinə yetirildiyinə dair, yəni 1938-ci il iyulun 3-də güllələnməsi haqqında arayış əlavə edilmişdir (Bünyadov, 1993: 94, Babayev, 2003: 180).

3. Abdulla Şərifovun ailəsi və xanımının bəraət almaq uğrunda mübarizəsi

Abdulla Şərifov güllələndikdən sonra xanımı Fatma Zinnur qızı Şərifova "vətən xaini"nin ailə üzvü kimi həbs düşərgəsinə göndərilmişdir. Onun ailəsinin üzvlərinin sonrakı taleyi haqqında heç bir bilgi əldə edə bilmədik. Halbuki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Arxivində saxlanan şəxsi işdə Abdulla Şərifovun himayəsində beş nəfər ailə üzvünün olduğunu yazır.

Əqidəsi uğrunda mübarizə aparan və bu yolda ölümə belə getməkdən çəkinməyən insanlar ehtirama layiqdirlər. Onları məhv edən insanların çəkdikləri zəhmətlər isə boşa gedir. Zaman öz hökmünü verir. Xalq gec də olsa həqiqətlərdən xəbər tutur, qəhrəman övladlarını sevir, onların xatirələrini həmişə hörmətlə yad

edirlər. SSRİ-nin dağılması, xalqların öz keçmişlərini öyrənmək istəkləri, millətlərin öz haqları uğrundakı mübarizəsi Abdulla Şərifov və məsləkdaşlarının nə qədər haqlı olduğunu göstərir.

Arxiv sənədlərindən aydın olur ki, Abdulla Şərifovun xanımı Fatma Zinnur qızı həbsxanada minbir məhrumiyyətlərlə raslaşsa da sağ qalmış və Bakıya dönmüşdür.

Abdulla Şərifovun xanımı Fatma Zinnur qızı ərinə bəraət almaq üçün Sovet Sosialist Respublikaları İttifaqının baş prokuroru Rudenkoya diləkcə göndərmişdir. Sovet Sosialist Respublikaları İttifaqı Ali Məhkəməsi Hərbi Kollegiyasında Fatma Zinnur qızının diləkcəsinə baxılaraq 1957-ci il mayın 30-da Abdulla Şərifova bəraət verilmişdir (Babayev, 2003: 181).

Sonuc

Sovet İttifaqı Kommunist Partiyasının 1956-cı ildə keçirilən 20-ci qurultayında hakimiyyətin bütün nöqsanları İosif Stalinin adına yazılmış, repressiya olunanlara bəraət verilməyə başlanmışdır. Əslində bu, güllələnmiş və ya

ölümcül hala salınmış insanlara verilən fiziki bəraət idi. Onların, uğrunda mübarizə apardıqları ideyalara, əsərlərinə bəraət verilmirdi.

Elə buna görə də Sovet rejimi tərəfindn cəzalandırılanların yaradıcılıqları ciddi öyrənilib təbliğ edilmirdi. Formal olaraq həbs olunanların, güllələnənlərin əsərlərindən seçmələr nəşr edilirdi. Abdulla Şərifova 1957-ci il mayın 30-da bəraət verilsə də əsərləri nə nəşr edildi, nə də tanıdıldı. Abdulla Şərifov və onun məsləkdaşlarının həbsi, güllələnməsi, əsərlərinin qadağan olunması Azərbaycanda dilçiliyin inkişafına ağır zərbə oldu. Yetişməkdə olan araşdırıcılar sağlam özül üzərində formalaşa bilmədilər.

Repressiya olunanların ideyalarına və əsərlərinə tam bəraət Sovetlər Birliyi dağılandan sonra verildi. Lakin bundan sonra da onların əsərlərinin hamısı nəşr edilmədi, haqlarında ciddi araşdırmalar aparılıb tanıdılmadı. Səbəblərini çox vaxt iqtisadi çətinliklə, araşdırıcıların yazdıqlarını çap etdirə bilməməsilə izah etdirlər. Əslində isə insanlar içlərindəki qorxu və tərəddüdlərdən qurtara bilmədikləri; A.M.Şərifov və məsləkdaşlarının məhvinə səbəb olmuş ideologiya ilə tərbiyə

alanların hələ də yuksək vəzifələr tutması bu işi əngəlləyir.

Qaynaqlar:

1. Ağaoğlu B.E. (2004). Solovkidə gördüklərim. Bakı: Günəş.

2. AMEA AEİTVSMA (AMEA Azərbaycanda Elmi İrsin Toplanması və Sistemleşdirilməsi Mərkəzi Arxivi), fond 39, A.M.Şərifovun şəxsi işi.

3. Azərbaycan Respublikası Milli Təhlikesizlik Nazirliyinin (indiki Dövlət Təhlükəsizliyi Xidməti) Arşivi, Şərifov Abdulla Məhəmməd oğlunun 10497 saylı istintaq işi.

4. Babayev, Adil. (2003). Elimizin və emlimizin soyqırımı, Bakı: Bakı Universiteti nəşriyyatı, Birinci kitab.

5. Bünyadov, Ziya. (1993). Qırmızı terror. Bakı: Azərbaycan Dövlət Nəşriyatı.

6. Hacıyev Tofiq, Cəfərov Nizami. (2001). Azərbaycan dili. İkinci nəşri, Bakı: Təhsil.

7. Məhərrəmov Elmar, Məhərrəmli Aynur. (2009). "Xalq qəzeti"nin ("Kommunist") yaranması və inkişafı tarixindən. Nəşrinin 90 illiyi münasibətilə. Bakı, "Elm və təhsil" nəşriyyatı.

8. Şamil, Əli. (2005). Dilçi araştırıcı Abdulla Şərifovun mubariz ömrü. Ural-Altay: bıuattar aşa kiləsəkkə-Ural-Altay: çerez veka v budeşşee, (Bötə Rəsəy fənni konferentsiya materialları, Öfö kalahı, 1-5 iyun, 2005, Materialı Vserossiyskoy nauçnoy konferentsii, Ufa, 1-5 iyunya 2005 q.) "Gilem" nəşriyyatı, Ufa.

9. Şamil, Əli. (2003). "Xalid Səid". Filologiya araşdırmaları toplusu, sayı 19, s. 36-52.

10. Şərifov, Abdulla. (1931). Türk-tatar dillərinin sinharmoniyası haqqında, Azərbaycanı öyrənmə yolu toplusu, sayı 1,2 ,3

11. Şərifov, Abdulla. (1933). Orta məktəblər üçün Türk dilinin qramatikası. I və II hissələr. Bakı:Azərnəşr.

12. Şərifov, Abdulla. (1935). Azerbaycanın Şamaxı diyalekti, (Şamahı rayonuna iki illik ekspedissiyanın yekunları). Bakı.

13. Şərifov, Abdulla. (1935). Rus Türk məktəblərində dilinin tədrisi (müqayisəli metodun əsaslandırılması) "Просвещение национальностей" jurnalı, Москва, № 1.

14. Şərifov, Abdulla. (1936). Türk dili qrammatik katoqoriyalarının təsnifat prinsipləri

haqqında SSRİ EA Azərbaycan Filalının Əsərləri. Dil və Ədəbiyat seriyası "Lingivist" torlusu, sayı 1.

15. Şərifov, Abdulla və b. (1932). Texnikumlar üçün qramatika. I və II hissələr. Bakı: Azərnəşr.

Çap olunub: İki xalqın oğlu (Bakıda yaşamış Azərbaycan pedaqoqu A.Şərifov haqqında). "Tatarıstan pedaqoqu" jurnalı, 1989.

Dilçi araştırıcı Abdulla Şərifovun mübariz ömrü. Ural-Altay: bıuattar aşa kiləsəkkə-Ural-Altay: çerez veka v budeşşee, (Bötə Rəsəy fənni konferentsiya materialları, Öfö kalahı, 1-5 iyun, 2005- Materialı Vserossiyskoy nauçnoy konferentsii, q. Ufa, 1-5 iyunya 2005 q.) "Qilem" nəşriyyatı, Ufa, 2005, s. 460-464.

Repressiya korbanı, tel qalime Abdulla Şərifov. Fənni Tatarstan (Tatarıstan Fənnər Akademiysı, Q.İbrahimov isemehdəqe Tel, Ədəbiyat həm Sənqət İnstitutı), Kazan, 2014, sayı 1, s. 141-149.

ALDANMIŞLARIN ÖMRÜ İNTİHARLA BİTİR: ÇUVAŞ ŞAİRİ MİŞŞİ SESPEL KİMİ

Ölüm yalnız qocalıqdan və xəstəlikdən olmur. İnsanın inamı qırılanda da ölüm çox fəallaşır. Ya hiss olunmadan insanı içərisindən çürüdərək xəstəlik şəklində özünə çəkir, ya da açıq-aşkar intihar kimi. Həkimlər, psixoloqlar bu mövzuda çox yazsalar da, necə deyərlər, hələlik inam "dərmanını" tam tapa bilməyiblər. Fitri istedadı ilə seçilən, ədəbiyyatda yenilikçi kimi tanınan, çılğın inqilabçılığı ilə başqalarına da güclü təsir edən çuvaş şairi Mişşi Sespelin də inamı qırıldığından intiharı yeganə çıxış yolu kimi görmüşdü.

Mişşi Sespel kimi tanınan şairin adı, atasının adı və soyadı sənədlərdə Mixail Kuzmiç Kuzmin kimi yazılmışdır. Türk soyundan gəlməsinə baxmayaraq, babaları 18-ci yüzildə bölgəni işğal edən Rusiya tərəfindən zorla xristian-laşdırılmışdır. Nə yaxşı ki, qaqauzlar da xristian olmalarına baxmayaraq, onlar türk soyadlarını bu günədək qoruyub saxlaya bilmişlər. Rusiya əsarəti altına aldığı xalqların çoxunu xristianlaşdıranda onların ata adlarını və soy

adlarını da dəyişdirmişdir. Bu zorakılıqlara baxmayaraq, həmin xalqlarda iki adlılıq bu gün də davam etməkdədir. Bunlardan biri sənədlərdə yazılan adlar və soyadlar, o biri də evdə, ailədə, xalq arasında çağırılan ad və soyadı olur.

Xristianlaşdırılmış, kilsədə ad qoyulmuş şairin sənədlərində Mixail Kuzmiç Kuzmin yazılmasına baxmayaraq, onu dünyanın hər yerində əsasən çuvaş adıyla Mişşi Sespel kimi tanıyırlar. Çuvaşlarda [s] səsinin [ş] səsilə əvəzlənməsi yayğın olduğundan bəzən, xüsusən də Türkiyədə onun soyadını Şeşpel kimi yazırlar.

Mişşi Sespel 1899-cu il noyabrın 16-da Kazan quberniyası Tsivil qəzasının çuvaşlar yaşayan Kazakkası kəndində kasıb bir ailədə doğulmuşdur. Fiziki cəhətdən zəif və cılız olan Mixaili atası 1910-cu ilin payızında Şuqurav kilsəsi yanındakı məktəbə qoyur. O, burada rus dilində yazıb- oxumaqla yanaşı, xiristian dininin ehkamlarını da öyrənir.

1911-ci ilin yayında ailə üzvləri arasında münaqişə yaranır və faciə ilə nəticələnir. Mixailin atası həbs edilərək Sibirə göndərilir. Kasıb ailənin vəziyyəti daha da ağırlaşır. Atasını böyük məhəbbətlə sevən balaca Mixail bu

hadisədən bərk sarsılır. Lakin o, təhsilini yarıda buraxmır. 1914-cü ildə kilsə məktəbini əla qiymətlərlə bitirdikdən sonra qonşu Şixazanax kəndindəki ikisinifli dövlət məktəbində təhsilini davam etdirir. Sonralar şagird yoldaşları Mişşi Sespel kimi məşhurlaşan Mixail haqqında xatirələrində yazırlar ki, onun məktəb kitabxanasında oxumadığı kitab yox idi.

Təhsil illərində Mixail rus dili və ədəbiyyatı dərslərinə daha çox maraq göstərir. Müəllimləri P.A.Lomonosovun təşəbbüsü ilə ikinci sinif şagirdləri "Zvezdoçka" (Ulduzçuğaz) adlı əlyazma jurnalı hazırlayırlar. Bu jurnalın redaktoru və ən çox yazı hazırlayanı Mixail olur. 1917-ci ildə yazdığı "Yenə də məktəbdə" adlı ilk şeirini də oxucular bu jurnalda görürlər.

Burada onu da qeyd edim ki, çuvaşlar türk soyundan olsalar da, özlərini Volqa bulqarlarının varisi sayırdılar. Eyni zamanda, onlar öz babalarının ədəbi mirasına da sahib çıxmırdılar. Çünki Çuvaşiya ərazisində bulqarlar zamanından qalan qəbir daşlarının üzərləri ərəb əlifbası ilə yazılmış idi. Kağıza köçürülmüş şeir, poema, nəsr və folklor nümunələri isə qıpçaq ləhcəsində, ərəb əlifbası ilə yazılmışdı. Çuvaşlar da 18-ci yüzildə zorla xristianlaşdırıldığından

200 ilə yaxın idi ki, kiril əlifbasından istifadə edirdilər. Ərəb əlifbası ilə yazılanları da müsəlmanların, onların qəbul etmədikləri bir dinin abidəsi sayırdılar. Çuvaş dilində yazılı mətnlər çox sonralar, 19-cu yüzilin ikinci yarısında qələmə alınan İncildən çevirmələr, dua kitabçaları, xristian müqəddəsləri haqqında yazılar idi.

1905-ci ildə həftədə bir dəfə çap olunan və iki ildən sonra hökumət məmurları tərəfindən bağladılan "Hıpar" (Xəbər) qəzeti də yazı dilinin formalaşmasına təsir göstərmişdi. Mixail də bu kitab və qəzetin pərakəndə saylarını oxuya-oxuya çuvaş yazı dilini öyrənmişdi. Amma onun şeirlərinin dili həmin dövrün yazı dilindən ifadələrinin zənginliyi ilə seçilirdi. Səbəbi isə onun folklora, xalq arasında geniş yayılmış nəğmələrə böyük maraq göstərməsi olmuşdu. Mixail ilk təhsilini kilsə yanındakı məktəbdə alsa da, yeniyetməliyindən ateist kimi böyümüş, redaktoru olduğu əlyazma jurnalda din xadimlərini tənqid edən məqalə yazmışdı.

Birinci Dünya Savaşı Rusiyadakı daxili qarışıqlığı daha da dərinləşdirir. Ac-yalavac xalq idarəolunmaz hala gəlir. İmperiya vəziyyətdən çıxarmaq, narazı toplumu sakitləşdirmək üçün

Romanovlar sülaləsinin 300 illik hakimiyyətinə son qoyulur. Çar II Nikolay taxtdan əl çəkməyə məcbur edilir. Lakin bu tədbirlər də ölkədə dinclik, firavanlıq yaratmır. Kerenskinin rəhbərlik etdiyi Müvəqqəti hökumət zamanında, nədənsə, çuvaş dilindəki kitabların oxunmasına qadağa qoyulur. Bu da xalqın müxtəlif təbəqələrini incikliyinə səbəb olur.

Ölkədə yaranmış qarışıqlıqdan məharətlə yararlanan bolşeviklər 1917-ci il oktyabrın 25-də, yeni təqvimlə noyabrın 7-də silah gücünə hakimiyyəti ələ alırlar. Bu hakimiyyət dəyişikliyi Rusiyadakı qarışıqlığı daha da dərinləşdirir. Bir tərəfdən, Rusiya işğalı altında olan xalqlar azadlıqlarına qovuşmaq üçün mübarizəyə atılırlarsa, o biri tərəfdən də, hakimiyyəti zorla ələ almış bolşeviklərin yeritdiyi siyasətdən narazı qalanlar silahlı birləşmələr yaradırlar.

Bolşeviklərin kəndlilərə torpaq verəcəkləri, əsarət altındakı xalqları zülmdən qurtaracaqları, sülh, əmin-əmanlıq, firavanlıq və bərabərlik yaradacaqları, "dünya inqilabı" edərək kommunizm quracaqları haqqında şirin vədləri çoxları kimi gənc Mixail Kuzmiçi də bir maqnit kimi özünə cəlb edir.

Ağqvardiyaçılarla bolşeviklərin ölüm-dirim savaşına girdiyi zamanda Simbirsk şəhəri yaxınlığındakı Tetiyuş qəsəbəsində açılmış müəllimlər seminariyasında oxuyan Mixail Kuzmiç bolşeviklərə böyük maraq göstərir. Tələbə dostu Pavel Bekşanski ilə birlikdə bolşeviklərin qəza mərkəzindəki qərargahına gedərək onlarla əməkdaşlıq etmək istədiklərini bildirirlər. 1918-ci ilin yazında məktəbdə inqilabı ruhlu gənclərin ilk təşkilatı yaranır. Bu təşkilata çılğın xasiyyəti, bəlağətli söhbətləri, çağırış ruhlu şeirləri ilə seçilən Mixail Kuzmiç Kuzmin rəhbər təyin edilir. Yavaş-yavaş o, Mixail Kuzmiç Kuzmindən çox Mişşi Sespel kimi tanınır. Şeir və məqalələrini də Mişşi Sespel imzasıyla çap etdirir.

Mişşi Sespel və Pavel Bekşansi məktəbdə bolşevik ideyalarını yaymaq üçün gənclər təşkilatı yaradır, ilk dəfə divar qəzeti, sonra isə əlyazma jurnal hazırlayırlar.

Bolşeviklər ideyalarını yaymaq üçün 1918-ci ildə çuvaş dilində "Kommunizm yalovyo" (Kommunizm bayrağı) və 1917-ci ildə "Sovetskaya Çuvaşiya" qəzetlərini nəşr etməyə başlayırlar. Mişşi Sespel şeir və məqalələrini "Tetyuşinskiye izvestiya", "Znamya

revolyutsii", "Kanaş" qəzet və jurnallarında çap etdirməklə kifayətlənmir, gənclərin bolşevik əsgəri birliklərinin sıralarında ağqvardiyaçılara və vətənə getmək istəyən çex əsirlərinə qarşı döyüşlərdə səfərbərliyə alınmasında fəal iştirak edir. Qaynaqların verdiyi bilgiyə görə, 75 min çuvaş gənci bu səfərbərlikdə iştirak edir.

Fəallığına görə Tetyuşski Qəza Partiya Komitəsi 1919-cu ilin əvvəlində onu Moskvaya, rəhbər partiya işçisi hazırlayan kursa oxumağa göndərir. Moskvada Lenini görməsi gənc şairə olduqca güclü təsir göstərir. O daha cılğınlıqla inqilabi ruhlu şeirlər yazmağa başlayır. Ana dilində Lenin haqqında yazdığı şeir çuvaşlar arasında geniş yayılır və bolşevik təbliğatının ən gözəl nümunəsinə çevrilir.

1919-cu ilin payızında qəza komsomol-çularının qurultayında iştirak edən Mişşi Sespeli Rusiya Kommunist Gənclər İttifaqı qəza komitəsi katibinə müavin seçirlər. İctimai – təşkilati işlərdə fəal iştirakı ilə yanaşı, o, ardıcıl bədii yaradıcılıqla da məşğul olur. "Həyat və ölüm", "Uzaq tarlada", "Ötən əsr" şeirlərini qəza qəzeti, "Krasnıy luç" və komsomol qəzeti "Yunıy kliç"də çap etdirir. Ana dilində elə bir ciddi yazılı ədəbiyyatı olmayan çuvaşların

nəzərində o bir qəhrəmana çevrilir. Çünki onun şeirlərində əsas mövzu çuvaş dilinin qorunması, dilin inkişaf etdirilməsi olur. Milli ruhlu "Çuvaş! Çuvaş!", "Çuvaş dili", "Uzaqdan axşam gəlincə" və başqa şeirlərini yazan şair deyir:

Sən inan, bunu yazan yer altında yatacaq,
Yetim kimi üzərindəki torpaq onu basdıracaq.
Sənin şöhrətini görmək üçün qalxa bilməyəcək,
Yer üstündə Çuvaş dili şöhrətli olacaq.
Torpağında səslənəcək azadlıq nəğməsi,
Sonra ölülər rahat uyuyacaq.
Rahat, xəfif olacaq üstündəki torpaq!

Mişşi Sespel yazdıqlarına ürəkdən inanır. 1920-ci ilin iyununda Çuvaşiya Muxtar Vilayəti yaradılması Mişşi Sespelin və onun kimi gənclərin böyük sevincinə səbəb olur. Onlar bolşeviklərin varlı-kasıb arasındakı bərabərsizliyi aradan qaldıracaqları, xalqlara azadlıq verəcəkləri, hamını firavan yaşadacaqları haqqındakı şüarların həyata keçməsi üçün bütün çətinliklərə sinə gərirdilər. Onun bu inamından bolşeviklər bacarıqla yararlanır. 21 yaşlı şairi

hərbi tribunala sədr təyin edirlər. 1920-ci il noyabrın 11-də isə Mişşi Sespeli Kazan Vilayət Xalq Deputatları Sovetinə seçirlər.

Ana dilində ümumtəhsil məktəbləri, qəzet və jurnallar, teatr açılması, kitablar nəşri Mişşi Sespel kimi romantik ruhlu gənclərə yeni güc, enerji verir. O, sanki sümük vərəmi xəstəliyinə tutulduğunu unudur, sağlam bir insanın görə bilməsi çətin olan işlərin öhdəsindən gəlir. Arzu və istəklərinin tez reallaşması üçün ağılla deyil, hisslərilə hərəkət edir. Bolşeviklərə qarşı çıxan hər bir insanı vətəninin və millətinin xaini hesab etməklə qalmır, bu yolda onlarla yürüməyənlərə də düşmən kimi baxır. "Uzaqda tarlada" şeirində yazır:

Niyə ruhum dalğalanır? Sarı qızı
Görüncə qamaşdı gözlərim.
Buludlar ruhu oxşuyurlar?
Yox, yox...
Ölkəm dirilir!
Kiçik evli kəndlərdə,
Çuvaş çöllərindəki tarlalarda
Yeni hava qanad açıb əsir.
Yeni yol! Həyat! Yeni gün gəlir...

Mişşi Sespel yalnız ana dilində şeir yazmaqla, bu dilin söz xəzinəsini zənginləşdirməklə kifayətlənmir. Dərin elmi biliklərə yiyələnə bilmədiyindən, xarici dillərdə yaradılan poeziya nümunələrindən xəbərsizliyindən öz xalqının folklorundan səmərəli şəkildə bəhrələnir. Formanı da, bədii ifadə vasitələrini də oradan alır. Rus dilində təhsil almış çuvaş aydınlarının əksəriyyəti Mişşi Sespelin şeirlərindəki bədii ifadə vasitələrini və formaları, ən zəngin ədəbiyyat saydıqları Rus ədəbiyyatında görmədikdə heyrətlənirlər. M.Sepselin şeiriləri isə böyük xalqın içərisində əridilən çuvaşların üsyanı, yaşamaq uğrunda mücadiləsi təsiri bağışlayır. O, "Uzaqdan axşam gəlincə" şeirində yazır:

Əski yüzillərin kölgəsi arasında,
Çuvaş ölkəsi görünür,
Mənim ölkəm qızıl qanlı xaç önündə
Asılı, bağlı durur.
Kömürlənmiş əzablı çuvaş ürəyindən,
Qan damır, qan damır, qızıl qan.
Çuvaşın başında qapqara soyuq gün
Fışqırıq qalaraq hər tərəfdən.

Şairə görə, bolşeviklərin gəlişilə “sevgili yurdu ölümdən dirilmiş, o əzablı xaç önündən qurtarmış”dır.

Heç bir hüququ təhsili, hətta ali təhsili belə olmayan, məhkəmə orqanlarının işindən xəbərsiz bir gəncin xalq arasındakı nüfuzundan istifadə edərək hərbi tribunala rəhbər təyin edirlər. Çuvaş xalqının savadlı, ağıllı, təcrübəli və məntiqli insanlarına “əksinqilabçı” adı qoyaraq çılğın və dəliqanlı şairin əlilə məhv etməyə çalışırlar. Mişşi Sespel ilk günlər bolşeviklərə inanıb onların istəklərini yerinə yetirsə də, getdikcə içindəki insan sevgisi, humanizm baş qaldırır. Bolşeviklərin sözü ilə əməlinin uyğun gəlmədiyini görür. Açıq-aşkar anlayır ki, Rusiyanın müstəmləkə siyasəti yeni formada davam etdirilir. Xalqının vətənsevər və cəsur övladlarının məhv edilməsinə dözmür. “Bu haqsızlığı durdurun!” demək istəyir, amma ona imkan vermirlər. Özünü həbsə atırlar. Üç aylıq həbsdən sonra dostlarının yardımıyla qurtula bilir. İnandığı bolşeviklərin onu necə aldatdıqlarını, xalqının cəlladına çevirmək istədiklərini anlayan şairin sabahkı işıqlı gələcəyə, kommunizm quruculuğuna inamı itir, aldandığını başa düşür. Onu da anlayır ki,

xəstəliyi getdikcə şiddətlənir. Mübarizənin önündə olanda xəstəliyini tamam unutmuş şair müalicə olunmaq üçün Krıma yollanır.

Cənnətmisal Krımı savaşlar nəticəsində dağılmış, xarabalığa dönmüş görür. Vrangelin rəhbərlik etdiyi Rus hərbçiləri-ağqvardiyaçıların milli azadlıq hərəkatında fəal iştirak edən Midat Refatovu, Xasan Urmanovu, Reşit Asanovu, Useyin Sakayevi, Abdulla Baliçiyevi və b. bolşevik kimi 1920-ci ilin aprelin 21-də güllələdiklərindən xəbər tutur.

Təsərrüfatı dağıdılmış, iqtisadiyyatı çökdürülmüş, aclıq bürümüş Krımda müalicə olunmağın, iş tapmağın çətinliyi şairi Kiyevə getməyə məcbur edir. Mişşi Sespel Kiyevdə işləməklə yanaşı, bədii məktəbdə də oxumaq istəyir. Lakin buna imkan vermirlər, onu Sovet Ordusunda əsgəri xidmətə aparırlar. Xəstə olduğundan orduya yaramadığını görüb azad edirlər. O, isə vətənə dönmür, ukraynalı şair F.H.Pokrışnyanın köməyi ilə 1922-ci ilin martından Oster qəzasında torpaq şöbəsində işləməyə başlayır. Şair Taras Şevçenkonun "Kobzar" poemasını ana dilinə çevirir, "Dəniz", "Dan sökülür", "Coşmuş dəniz" və b. şeirlərini yazır.

Mişşi Sespeli bir tərəfdən ağır xəstəlik və maddi çətinliklər sıxırsa, o biri tərəfdən də yolunda canından keçməyə hazır olduğu hökumətin törətdiklərinə, haqsızlıqlara dözə bilmir. Ümidi üzülmüş, inamı qırılmış gənc şairin xəstəliyi getdikcə şiddətlənir. Xəstəliyin ağrılarından çox, cəmiyyətdəki özbaşınalıq, sözlə işin düz gəlməməsi, zorakılığa qanun donu geydirilməsi onu ağrıdır.

Mişşi Sespel 1922-ci il iyunun 15-də Osterdə cavan canına qıymaqla qurmaq istədiyi cəmiyyətə üsyan etmiş olur. Mişşi Sespelin intihar etdiyi və dəfn olunduğu yer indiki Ukrayna Respublikasının Çerniqov vilayətindəki Staraqorodka kəndidir. Kənddəki parkda şairin qəbirüstü abidəsi ucaldılıb.

Fitri istedadıyla sağlığında belə yalnız çuvaş ədəbiyyatçılarının deyil, Rusiya, Ukrayna şair və ədəbiyyatşünaslarının diqqətini çəkən Mişşi Sespeldən söz açan araşdırıcılar onu Çuvaş sovet ədəbiyyatının banilərindən biri, sillabo tonik şeirin, çuvaş poeziyasında vurğulu heca vəznində yazılmış şeirin banisi adlandırırlar. Əslində, çuvaş dilində yazılı ədəbiyyatın tarixi o qədər də uzaqlara getmədiyindən Mişşi Sespel qədim türk şeirinin Çuvaş şifahi xalq

ədəbiyyatında yaşayan formasından bacarıqla yararlanaraq dərin köklərlə keçmişinə bağlı olduğunu bir daha isbatlayır. Bununla da yeni formalaşan Çuvaş sovet poeziyasını da qədim türk şeir ənənəsinə bağlamış olur. İntihar etdiyini əldə əsas tutaraq bir ara Mişşi Sespel yaradıcılığı üzərinə kölgə salsalar da, əsərlərinin çapını və haqqında yazılanları əngəlləsələr də həqiqəti durdura bilmədilər. Kiçik çuvaş xalqının 22 yaşında intihar etmiş şair oğlunun şeirləri 60-a yaxın dilə çevrilərək yayınlandı. Mişşi Sespel həyat və yaradıcılığının öyrənilməsinə maraq günü-gündən artır. Sovetlər Birliyi çökdükdən sonra bu proses daha da sürətlənmişdir. Həqiqətən də, haqq gec ya tez öz yerini tapır. Yetər ki, biz öz yurdsevər insanlarımızı, qəhrəmanlarımızı unutmayaq.

Çap olunub: Aldanmışların ömrü intiharla bitir: Şuvaş şairi Mişşi Sespel kimi, “525-ci qəzet”, 31 yanvar 2012. http://old.525.-az/view.php?lang=az&menu=7&id=38697&typ e=1

TATAR ARAŞDIRICISI FƏRİDƏ TAHİROVA



Dost-tanışlarla görüşə daha çox önəm verdiyimdən foyedəki əl işlərindən ibarət satış sərgisini atüstü gözdən keçirib oradan aralandım. Bilirdim ki, xanımım onları diqqətlə incələyib lazım bildiklərini alacaq. Simpoziuma qatılanlar arasında tanımadıqlarım çox az idi. Əksəriyyəti ilə öncəki toplantılarda görüşmüş-düm.

Kazan tatarı Fəridə Tahirova yanında iki gənclə gəldi. O, uzun illərin həsrətlisi kimi boynuma sarıldı. Mən də onu bacım kimi qucaqladım. Ondan ayrılanda yanındakı qızlar da müəllimlərinin hərəkətini təkrarladılar.

Boyda Fəridədən uca olan, şux qamətli, sarışın qız da məni qucaqlayıb öpəndə xanımım gəldi.

Əzizə xanımı Fəridə Tahirovaya və onunla gələn qızlara təqdim etdim. Bayaqdan üzləri gülən qızlar bir anda dəyişdilər. Sanki özlərini qorumağa hazır vəziyyət aldılar. Fəridə xanım isə əksinə Əzizə xanımı da qucaqlayıb öpdü və ondan öncədən tanıdığı biri kimi hal-əhval tutmağa başladı. Əzizə xanım çəkingən qızlarla da salamlaşıb, qoluna girərək onları əl işlərinin satış sərgisinə tərəf apardı.

Başım başqa tanışlarla söhbətə qarışmışdı. Bir az sonra Əzizə xanım yanındakı Kazan tatarları ilə birgə geri döndülər. Fəridə xanım uşaq sevinci ilə əlindəki hədiyyəni mənə göstərərək: "Əzizə xanım sizin adınızdan bizə hədiyyə aldı. Bax gör bəyənirsənmi?" − dedi. Mən də gülərək: "Siz bəyənibsinizsə, xanımım bəyənibsə, mən kiməm ki, bəyənməyim!?" − deməyimə hamımız güldük.

Qızlar da hədiyyələrini göstərdi. Onların sifətində bayaqkı həyəcandan, çəkingənlikdən əsər-əlamət qalmamışdı. Sakit-sakit Fəridə xanımın gənc araşdırıcılara qayğısından, simpozium dəvətnaməsini mənim necə göndərdiyimdən danışdılar. Səmimiyyətlə etiraf

etdilər ki, Antalyanı, Alanyanı görməyi çox istəyirlərmiş. Pulları olmadığından dincəlməyə gələ bilmirlərmiş. Simpozium onlar üçün göydəndüşmə olub. Pulsuz-parasız gəlib bu yerləri görəcək, yeyib-içəcək, həm də dünyanın müxtəlif ölkələrindən gəlmiş araşdırıcıların qarşısında yazdıqları məruzələrini oxuyacaqdılar.

Atatürk Kültür Merkezinin Akdeniz Üniversitesi, Alanya Belediyesi və Alanya Ticaret Odası Başkanlığı ilə birgə 2010-cu ilin noyabrın 1-4-də planladığı "Mitoloji Düşüncenin Yazıtları Gibi - Alanyada (Kilim, Cicim, Sumak) Sempozyumu" mənim üçün bir də ona görə önəmli idi ki, simpoziumun təşkilatçısı, Atatürk Kültür Merkezinin elmi katibi İmran Baba xanımımı mənim rafakatçım (köməkçim) kimi dəvət etmişdi. Mən bu işə çəkingənliklə yanaşanda İmran Baba qətiyyətlə: "Yüz yerdən simpoziumlarımıza dəyərli araşdırıcıları cəlb edirsən. Bakıdakı toplantılarda da Əzizə xanım hamımızın əziyyətini çəkir. Qoy bir dəfə də o, pulsuz-parasız gəlib Alanyada dincəlsin", − demişdi.

İmran Babanın xanımımı dəvət etməsi o yana, istirahət mərkəzində bizə beşulduzlu

otaqların birində yer ayırtdırmışdı. Görünür dəniz kənarındakı bu istirahət mərkəzi yayda dolu olur. Gələnlərin hamısı üçün yeməklər, xidmət eyni olsa da, otaqlarda fərq var. Beşulduzlu, dördulduzlu, üçulduzlu otaqların hamısında səliqə-səhman yüksək səviyyədə olsa da, içərisindəki avadanlıqlarda, otaqlarının sayında və s. fərq vardı.

Yay mövsümü başa çatdığından Alanyaya gələn turistlərin sayı azalsa da, hava xoş olduğundan Rusiyadan və Avropanın quzey ölkələrindən gələnlər səhərin gözü açılmamış özlərini dənizə salırdılar. Səhərlər çimib günəş vannası qəbul etdikdən sonra yeməyə, oradan da toplantı salonlarına keçirdilər. Saat 18.00-da simpoziumun iclasları başa çatan kimi tələsik yeməklərini yeyib yenidən özlərini dənizə atırdılar.

Atatürk Kültür Merkezinin rəhbərliyi bilərəkdən simpozium üçün buranı seçmişdi ki, qonaqlar həm də yaradılmış imkandan istifadə edib dincəlsinlər. İmran Babanı, sağ olsun, mənə və xanımıma biletləri simpozium iştirakçıları ilə eyni vaxtda deyil, təşkilatçılar sırasında almışdı. Ona görə biz simpoziuma iki gün öncə getməklə yanaşı, toplantı başa çatandan, qonaqlar yola

salınandan bir gün sonra Azərbaycana qayıtdıq. Bizim Alanyada olmamız 8 gün çəkdi.

Toplantı günlərində proqramı izləyərək diqqətimi çəkən məruzələri dinləməyə çalışırdım. Bu dəfə bir az fərqli davrandım. Fəridə Tahirova ilə gələn qızların məruzələrinin mövzusu mənim üçün maraqsız görünsə də, gedib onları da dinlədim. Həvəsləndirmək üçün bir neçə xoş söz də söylədim. Rusdilli olduqlarından Türk dilinə çevirtdirdikləri məruzələrini çətinliklə oxuyurdular. Onlara verdiyim məsləhətlərdən razı qalmışdılar.

Fəridə Tahirova özü ilə gətirdiyi qızlara sadəcə elm, elmi toplantılara getmək öyrətmirdi. Sanki onlara həyat dərsi də keçirdi. Bir gün şam yeməyindən sonra Naxçıvandan olan filologiya üzrə fəlsəfə doktoru Məshəti İsmayılova mənə yaxınlaşıb onu dəniz qırağına gəzməyə aparmağımı xahiş etdi. Mən araşdırıcı dostlarımın şirin söhbətini qoyub qaranlıqda qumlu sahildə gəzmək istəmirdim. Ona görə də zarafatla Məshətiyə dedim: “Qoca kişiyəm, sən də cavan və gözəl qızsan. Səni gecə dəniz kənarında gəzintiyə aparsam qarşımıza çıxan cavan oğlanlar qısqanar və məni basıb döyərlər. Ona görə də yaxşı olar cavan oğlanlarla

gəzintiyə get.” O, hədələyici bir tonla: “Yaxşı, baxım görüm sözünün üstündə dura biləcəksənmi?!” − deyib getdi. Bir də baxdım Fəridə Tahirova və başqaların ilə söhbət edən xanımımı söhbətdən ayırıb mənim yanıma gətirdi. Əzizə xanım zarafatla: “Bu qızın xatirinə niyə dəyirsən, dur apar bu qızı gəzdir. Aylı gecə, dənizin sakit ləpədöyəni. Belə bir imkan birdə ya qismət Məshətinin əlinə nə vaxt düşəcək”, − dedi. Əzizə xanıma bir söz deməyib Məshətinin qoluna girib dəniz sahilinə gəzməyə getdik. Məshəti qalib əda ilə gülürdü. İki saata yaxın gəzintidən sonra Əzizəgilin yanına gələndə mən ona hədələyici tonlda: “Ayaqqabım da, corabım da, şalvarımın balağı da quma batdı. Səhər mən nə geyinib toplantıya gedəcəm? Ver gecə qızın yatmasın, səhərədək təmizləyib gətirsin” deyəndə xanımım da: “Mən hələ əldən düşməmişəm. Sən gedib işində ol. Özüm təmizləyəcəm. Qocalanda qızlar köməyimə gələr”, − cavabını verdi.

Kazana geri döndükdən sonra göndərdikləri təşəkkür məktubunda xanımımdan həyat məsələlərini öyrəndiklərini, Alanyaya təkrar getmək üçün pul toplayıb yayda turist kimi gedəcəklərini yazmışdılar. Sonrakı görüşlərimiz-

də Fəridə Tahirova xanımımı tez-tez simpoziumlara gətirməyimi xahiş edirdi. Əzizə xanımın gənclərə bir məktəb olduğunu, Alanyada istər tatar qızlarına, istərsə də Məshətiyə olan münasibətini yada salıb gülürdü. Alanya səfərlərinin dadı qızların damaqlarında qaldığını söyləyir, Əzizə xanımın onlara göstərdiyi qayğını, Məshətiyə münasibətini tələbələrinə nümunə çəkirmişlər.

Fəridə xanım məktublarında əsasən elmi işlərinə diqqət yetirirdi. İnstitutları "Tatar telenin anlatmalı sözlügü (Tatar dilinin izahlı sözlüyü)" çoxcildli sözlüyünə hazırlıq işləri gördüyünü yazırdı. Xahiş edirdi ki, bu sahədə çalışan Azərbaycanlı alimlərlə onlar arasında əlaqə yaradım və özüm də fikirlərimi yazım.

Fəridə Tahirova ilə məni Tatarıstanın tanınmış dilçisi Mirfatih Zakiyev tanış etmişdi. Azərbaycana böyük sevgisi olan, dəfələrlə Bakıya gələrək müdafiə şuralarında iştirak edən, dilçi araştırıcılarımızın dissertasiyalarına dəyərli rəylər yazan Mirfatih Zakiyev Fəridə Tahirova haqqında xoş sözlər söyləmiş, gələcəyin ən tanınmış türkoloqlarından olacağı qənaətində olduğunu bildirmişdi.



Ankarada, Aşqabatda, Bakıda keçirilən elmi toplantılarda dəfələrlə görüşdüyüm Mirfatih Zakiyev yalnız elmi araşdırmaları ilə deyil, türk xalqlarının gələcəyi məsələsinə də ayıq yanaşan bir türkoloq idi. Bizi yaxınlaşdıran, həmfikir edən də bu məsələ idi.

Dağıstan Dövlət Pedaqoji Universitetində nəşrə hazırlanan "Вестник тюркского мира (Türk dünyasi bülleteni, Herald of turkic world)" adlı Beynəlxalq Elmi jurnalın redkollegiyası formalaşdırılanda Fəridə Tahirovanın da redkollegiyaya üzv salınmasını

məsləhət görmüşdüm. Bu hadisə onu daha da ruhlandırmışdı.

Tatar və türkdilli sənədlərdə adı soyadı Fəridə Tahirova yazılan araşdırıcı haqqında bilgi almaq istəyənlər internetdə axtarış verərkən Фяридя Тагирова yazmasalar, onun əsərləri haqqında bilgi ala bilməyəcəklər. Adı və soyadı Rus dilinin yazı qaydalarına uyğun olduğu kimi məqalə və kitablarının da əksəriyyəti rus dilindədir. Uzun illər üzərində işlədiyi, 2015-2022-ci illərdə Kazanda tatar dilində nəşr edilmiş 6 cildlik "Tatar dilinin izahlı sözlüyü" tatar dilindədir. Tatarların latın əlifbasına keçməsinin qarşısını Putin rejimi aldığından onlar hələ də kiril qrafikalı əlifbadan istifadə edir və kitabın adını da belə yazırlar: "Татар теленең аңлатмалы сүзлеге". Hər biri 700-900 səhifəlik bu möhtəşəm kitab üzərində Tatarıstanın 18 ən tanınmış alimləri işləyib. Onlardan bəziləri bir neçə cildin hazırlanmasında iştirak etsə də, bütün cildlərdə Fəridə Tahirovanın adı var. Bu onu göstərir ki, izahlı sözlük kollektiv əməyin məhsulu olsa da, əsas ağırlığı Fəridə Tahirova çəkib. Yüksək səviyyədə hazırladıqlarına, milli şüurun oyandığı dövrə düşdüyünə görə "Татар теленең

аңлатмалы сүзлеге” kitabları ikinci dəfə nəşr edilməli olub.

Ömrünü tatar dilinin sözlüklərinin hazırlanmasına həsr edən Fəridə Tahirovanın başqa kitabları da kollektiv əməyin məhsuludur.

1966-ci il dekabr ayının 24-də anadan olan Fəridə Tahirova 1989-cu ildə Elabuj Dövlət Universiteti Filologiya Fakültəsinin Rus-tatar bölməsində oxuyarkən elmi araşdırmalara böyük maraq göstərib. Ona görə də ali təhsilini başa vuran ili onu aspiranturada oxumağa göndəriblər. 1989-1992-cü illərdə aspiranturada oxuyan və araşdırmalar aparan Fəridə Tahirovanı Tatarıstan Respublikası Elmlər Akademiyasının G.İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun Leksikoqrafiya (sözlük) şöbəsində işə götürüblər. 1992-ci ildən – Tatarıstan Respublikası Nazirlər Kabineti yanında “Dil xidməti”nin və Toponimiya, orfoqrafiya və terminologiya komissiyasının üzvüdür.

Sovetlər Birliyinin dağılması, Tatarıstanda da iqtisadi durumun ağırlaşması Fəridə Tahirovanın da elmi araşdırmalarla ciddi məşğul olmağına imkan verməyib. O, elmi araşdırmalarla yanaşı, çörəkpulu qazanmaq üçün

Rus dilindən Tatar dilinə, tatar dilindən də Rus dilinə yazılı və sinxron tərcümələr edib. Tərcüməçilik fəaliyyəti dövründə Türkiyə türkcəsində yazmağı da öyrənib.

Rusiya Federasiyasının Ali Attestasiya Komitəsi 2004-cü ildə "Müasir tatar dilinin mürəkkəb sözləri: leksikoqrafiya və orfoqrafiya problemləri (Rusiya Federasiyası xalqlarının (tatarların dili) dilləri)" mövzusundakı araşdırmasına görə ona filologiya elmləri namizədi adı verib.

Fəridə xanımın əsas araşdırma sahəsi lüğətçilik olsa da o, Türk dilləri, Slavyan dilləri, fin-uqor və digər dillərin nəzəri və praktiki leksikoqrafiyası problemləri, leksikologiya və terminologiya məsələləri, frazeologiya, linqvokulturologiya və s. sahələrdə də dəyərli araşdırmalar aparıb.

Beynəlxalq İdil-Ural və Türküstan araşdırmaları dərgisinin hakəmlər heyətinin, Dağıstan Dövlət Pedaqoji Universitetində nəşrə hazırlanan "Вестник тюркского мира (Türk dünyasi belleteni, Herald of turkic world)" adlı Beynəlxalq Elmi jurnalın redkollegiyasının üzvüdür. "Volqaboyu və Ural xalqlarının dil təmasları" simpoziumları silsiləsinin Beynəlxalq

Əlaqələndirmə Şurasının (Turku, Finlandiya) üzvü, daha bir sıra müntəzəm beynəlxalq elmi konfransların (Türk Kültürü) təşkilat komitələrinin üzvü olan Fəridə Tahirovanın iştirak etdiyi elmi toplantıların sayını isə yəqin ki, özü də unudub.

Tatarıstan Respublikası Elmlər Akademiyası G.İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət İnstitunun aparıcı elmi işçisi olan Fəridə Tahirovanın bir neçə monoqrafiyası, 20-dən çox tərtib kitabı, 150-ə yaxın elmi məqaləsi çap olunub. Gənc dilçilər nəslinin yetişməsi üçün əlindən gələni əsirgəmir. İndiyədək bir neçə tatar gənci onun rəhbərliyi ilə elmi iş yazaraq filologiya elmlər namizədi elmi adını alıb.

Türk xalqları ilə sıx əlaqə saxlamağa can atan, onlara əlindən gələn yardımı əsirgəməyən Fəridə Tahirova mənim üçün Tatarıstanda "səfir" rolunu oynayır. Azərbaycanlı araşdırıcıların avtoreferetlarına rəy yazdırıb göndərir, Tatarıstanın gənc araşdırıcılarının əsərlərini rəy üçün Azərbaycana göndərir. Onun araşdırma sahəsi leksiqoqrafiya olsa da, Tatarıstanda repressiya qurbanı olmuş alimlərinin, şair və yazıçılarının, siyasi xadimlərinin haqqında mənə bir fakt lazım gələndə Fəridə Tahirova dadıma

çatıb. Repressiya mövzusu hələ də Tatarıstanda bəzi kişi araşdırıcılar üçün təhlükə mənbəyi sayılır. Lakin Fəridə xanım təhlükəni görsə də, geri çəkilmir, cəsarətlə üzərinə gedir.

1923-1937 illərdə Bakıda yaşamış, milliyətcə tatar olan istedadlı dilçi Abdulla Şərifov haqqında yazdığım məqaləni tatar dilinə çevirərək Kazanda nəşr etdirəndə "başını ağrıtmışdılar". Lakin o, bunu mənə bildirməmişdi.

Çap olunub: Tatar araşdırıcısı Fəridə Tahirova, Şamil Əli (Şamilov Əli Hüseyin oğlu. Tanıdığım insanlar. İkinci kitab, Bakı: "İmza" nəşrlər evi, 2026, s. 107-115.

TÜRK DÜNYASININ MƏŞHURLARI

Kitabda Şeyxzadə Babiş, Abdülkadir İnan, Abdulla Şərifov və Mişşi Sespel haqqında elmi məqalələr olduğundan təkrarçılığa yol verməmək üçün TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə getmiş verilişlərin mətnlərini buraya daxil etmədik.

ABDULLA TUKAY



(tat. Габдулла Мөхәм-мәтгариф улы Тукаев, rus. Габдулла Тукай; 1886 - 1913)

Abdulla Möxəmmətqarif oğlu Tukayev 1886-ci il aprel ayının 14-də (yeni təqvimlə aprelin 26-da) Kazan şəhəri yaxınlığındakı Olı Menger (Arça) rayonunun Kuşlavıç kəndində anadan olub. Atası və babaları kənd məscidinin imamı olan gələcəyin şairi ata-anasının qayğısıyla böyüyə bilməyib. Doğulandan beş ay sonra atasını, üç il sonra da anası Memdude xanımı itirib. Yetim qalan uşağa yaxın qohumları sahib çıxmadığından əldən ələ düşüb.

Nəhayət, doqquz yaşında ikən Uralsk (Cayık) şəhərində yaşayan Əzizə adlı bibisi onu yanına aparır. O, Cayıkdakı Mutiullah mədrəsəsində oxumağa başlayıb. 19-cu yüzildən başlayaraq mədrəsə təhsili kəskin tənqid,

Avropa tipli məktəblər isə təbliğ edilirdi. Elə buna görə də Abdulla şeirlərində bu mədrəsədə keçən günlərini "əsarət həyatı" adlandırıb.

Hansı ki, Abdullanın ədəbi şəxsiyyət kimi formalaşmasında bu mədrəsənin böyük rolu olmuş, o bu mədrəsəyə qonşu olan rus sinfində də dərslərini davam etdirmiş, İstanbuldan gələn gündəlik qəzet, jurnal və kitabları burada oxumuş, "cədidçilik" və ya "maarif hərəkatı" ilə burada tanış olmuşdur.

1902-ci ildə Abdulla Tukay mədrəsədə oxuyarkən Abdulvəli adlı bir gənclə tanış olur. İstanbuldan gələn, onunla eyni mədrəsədə oxuyan bu gənc vasitəsilə o Türkiyədəki ədəbi cərəyanlar və fransız ədəbiyyatı ilə yaxından tanış olur. İnqilabçı əhval-ruhiyyəli, monarxiya əleyhdarı olan bu gənc Abdullaya güclü təsir göstərir.

Sonralar Abdulla bu gənci "dünyanı tanımaq üçün gözümü açan adam" deyə yad edir. Həmin illərdə Rusiyada sosial-demokrat hərəkatı gücləndiyindən gənc tatar şairinə onların "Azadlıq! Bərabərlik! Qardaşlıq!" şüarları çox şirin gəlir. Monarxiyanı devirib respublika qurmaq istəyən inqilabçıların sinfi mübarizəni ön plana çəkmələri gənc Abdullahın ürəyincə

olur. 1904-cü ildə o mədrəsədə oxumaqla bərabər Mutiullah Efendinin oğlu Kamil Mutinin mətbəəsində işləməyə başlayır. 1905-ci ildə onu rus dilində nəşr olunan "Uralets" qəzetinə korrektor götürürlər. Abdullanın imkanlarından istifadə edərək inqilabçıların toplantılarında, mitinqlərində iştirak etməklə yanaşı, onların kitabçalarını, gizli vərəqələrini tərcümə edir, işlədiyi mətbəədə gizli çap edərək yayır.

Xalqının azadlığa çıxmasını, firavan və xoşbəxt yaşamasını istəyən şair keçmişə qarşı çox sərt, bəzən də inkarçı mövqedən çıxış edir. Ona elə gəlirdi ki, xalqının geridə qalmasının əsas səbəbləri mollaxanalarda, mədrəsələrdə verilən təhsil, din adamları və imkanlı insanlardır. Bu məsələlər şeirlərinin də əsas mövzusunu təşkil edir.

Rusiyada baş verən qarışıqlıqlar və Rusiyanın Yaponiya ilə apardığı savaşda məğlub olması çar II Nikolayı 1905-ci ilin oktyabrında manifest imzalamağa məcbur edir. Bu manifestdən sonra qəzet və jurnalların nəşrinə icazə alınmasındakı sərt nəzarət yumşaldılır, mitinqlər keçirilməsinə icazə verilir, dövlət dumasına seçkilər başlayır.

Kamil Muti də vəziyyətdən istifadə edərək "Fikir" adlı qəzetin nəşrinə icazə ala bilir. Abdulla bu qəzetdə, sonra isə Kamil Mutinin çıxardığı "Əl-Asrül-Cədit" adlı ədəbiyyat və "Uklar" adlı satirik jurnalda fəal çalışır, şeirlərini çap etdirir. Onun satirik şeirlərində "Molla Nəsrəddin" ədəbi məktəbinin rolu olduqca böyük olur.

1907-ci ildə mədrəsəni bitirən Abdulla Tukay ciddi və məhsuldar yaradıcılıqla məşğul olur. Lakin ölkədə baş verən dəyişikliklər onun da ömür yoluna təsirsiz olmur. 1907-ci ilin iyunun 3-də Rus çarının II Dövlət Dumasını dağıtması, bir sıra sərt tədbirlər görməsi, qəzet-jurnalları bağlatması, jurnalistlərin məhkəməyə verilməsi mərkəzdən uzaq Uralskidən də təsirsiz ötüşmür. Kamil Mutini də həbs edirlər. Onun nəşrləri də fəaliyyətini dayandırmalı olur. Abdullah işsiz qalır. O, 1907-ci ilin baharında Kazana köçməli olur və ömrünün sonunadək burada yaşayır.

Maddi və mənəvi sıxıntılara baxmayaraq Abdullah Tukay "Əl-islah" və daha sonra da Q.Kamal ilə birlikdə 1908-ci ilin iyunundan "Yeşin" adlı satirik jurnalı çıxarmağa başlayır. 1909-cu ilin iyununda 10 sayı çap olunmuş

“Yeşin” jurnalı hökumət tərəfindən bağlanır. O, 1910-cu ilin martından “Yalt-Yult” jurnalını çıxarmaya başlayır. Jurnallarda çap etdirdiyi məqalələrində, satirik şeir və həcvlərində din xadimlərini, cəhaləti, xurafatı kəskin tənqid edir, xalqı qəflət yuxusundan ayıltmağa çalışır. Şair, “Bir tatar şairinin sözləri” şeirində nədən bu mövzulara önəm verdiyini anladır.

Abdullah Tukay xalqını oyatmaq, dünyanın inkişaf etmiş ölkələri ilə ayaqlaşmasına nail olmaq üçün əsərlərini sadə və aydın bir dillə yazırdı. Onun yazdıqlarını sadə adamlar, az savadlılar da asan başa düşürdü. Amma bilmirdi ki, bu bölgəsəlliyə gətirib çıxarıb, minillik ədəbi ənənədən və türk xalqlarını bir-birindən uzaqlaşdırırdı.

Bir tərəfdə İsmail bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və b. ümumtürk birliyinə nail olmaq üçün ortaq ədəbi dil uğrunda mübarizə aparırdısa, o biri tərəfdə isə Abdullah Tukay, “Molla Nəsrəddin”çilər sadə, anlaşıqlı dillə topluma müraciət etməklə türk xalqlarını bir-birindən uzaqlaşdırırdılar. Ona görə də eyni düşüncəni paylaşan ədiblər bir-biri ilə sıx əlaqə saxlamağa çalışır,

məsləkdaşlarını və onların əsərlərini təbliğ edirdilər.

Azərbaycanda "Molla Nəsrəddin" jurnalının Türk xalqları arasında yayılmasından yazan araşdırıcıların əksəriyyəti mətbəədə şrift kassalarına dayanaraq əlində "Molla Nəsrəddin" jurnalını tutmuş bir gəncin şəkilini veriblər. Bu gənc Kazan tatar şairi Abdulla Tukaydır.

1908-ci ildən etibarən Türküstanlı Haci Muini, Dağıstanlı Sabit Qabiyev və b. Abdulla Tukayın şeirlərini öz ləhcələrinə uyğunlaşdıraraq çap edirlər. Abdulla Evlani, Tülegen Hacımiyar, Sultan Mahmut Toraygır, yeni noqay ədəbiyyatının banisi sayılan Musa Kurmanaliyev kimi şairlər onun təsirilə yeni əsərlər yaradırlar.

Adətən şairlər ədəbi aləmə məhəbbət şeirlərilə gəlirlər. Abdulla Tukayın ilk şeirlərində sosial mövzular ön plandadır. Ümumiyyətlə, əsərləri arasında məhəbbət şeirlərinin sayı azdır. Onlarda da Füzulinin şeirlərində olduğu kimi dərd və iztirab əsas yer tutur. Abdulla Tukayın məhəbbət şeirlərində iztirab estetik bir mahiyyət daşıyır.

Bütün maarifçilər – cədidçilər kimi Abdullah Tukay da yaşlı nəsildən əlini üzərək

diqqəti uşaqlara, onların təlim-tərbiyəsinə yönəldir. Uşaqlar üçün yazdığı şeirlərində nümunəvi, topluma yararlı insan olmaları üçün çox oxumalarını və çalışqan olmalarını dönə-dönə vurğulayır. Bilgisizlikdən qurtarmaq, sosial anlamda gəlişib toplumda etibarlı mövqe qazanmağın da yolunun bilik və zəhmətdən keçdiyini müxtəlif vasitələrlə uşaqların beyninə yeritməyə çalışır. Xüsusən də kəndli uşaqlarının həyatlarını dəyişmələri üçün oxumağın nə qədər vacib olduğunu onlara çatdırır. Bu baxımdan şairin "Ata ilə bala" və "Su anası" şeirləri olduqca diqqəti çəkəndir.

Kasıblıq, mətbəədəki çətin və ağır iş şairin gənc yaşlarında vərəm xəstəliyinə tutulmasına səbəb olur. Buna görə də 1909-cu ildən sonrakı şeirlərində ümidsizlik hakimdir. "Üzilgen ümit" şeirində şair toplum içərisində yaşayan insanın yalnızlığının, qəzavü-qədər qarşısındakı aciz-liyini səmimi və lirik bir şəkildə təsvir edir.

Vətəninin əsarətdən qurtarması, millətinin azad və xoşbəxt yaşaması arzusuyla yaşayan şair 1913-cü ilin aprelin 27-də dünyaya göz yumur. Onun vaxtsız ölümü türk dünyasının ziyalılarının qəlb ağrısına səbəb olur. Mirmuhsin və Muhammed Seralin 1913-1914-cü illərdə

Abdulla Tukay haqqında məqalələr yazır, şeirlərini çap etdirirlər.


Ölümündən sonra şairin şeirlər kitablarını çap etdilər, heykəllərini ucaltdılar. Əsərlərindən təsirlənərək yeni sənət əsərləri yaratdılar. 1974-cü ildə Əhmət Feyzi "Tukay" romanını, İbrahim Nurullinin 1977-ci ildə SSRİ-də çox oxunan "Məşhur insanların həyatı" seriyasından "Tukay" kitabını çap etdirdi.

Ziyalının xalq qarşısında borcunu şərəflə ödəyən Abdulla Tukay ömrünün baharında dünyadan köçsə də, xalqının yaddaşında qaldı.

TürkSOY-un Nazirlər Şurasının Moldovanın Qaqauz Yeri Muxtar Vilayətində 2010-cu il 19-22 mayda keçirilmiş 27-ci toplantısında qəbul edilmiş qərara əsasən 2011-ci il tatar şairi "Abdulla Tukay ili" elan edilmişdir.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-ci il sentyabrın 2-də, saat 12.14-də efirə getmişdir.

AHMEDHADİ MAKSUDİ



(tat. Ahmedhadi Nizaməd-dinoviç Maksudov və ya Hadi Maqsudi, əski əlifba ilə احمد هادی ماکسودو, *rus. Ахмедхади Низамут-динович Максудов; 1868-1941)*

Ahmedhadi Nizaməddin oğlu Maksudov 1868-ci il sentyabrın 28-də Kazan quberniyasının Taşsu kəndində anadan olub. İndi bu kənd Tatarıstan Cümhuriyyətinin Biektay rayonuna daxildir. Kənd mollası olan atası Nizaməddinin ailəsində doğulan oğlan uşağına Əhməthadi adını verirb. Rusdilli sənədlərdə isə onun adı Axmethadi, soyadı isə Maksudov, bəzi tatar qaynaqlarında isə Qaxmethadi yazılır. Buna görə də onun adı Avropa və Türkiyə qaynaqlarında Ahmedhadi, Axmethadi yazılmağa başlayır. Məqalələrində və kitablarında soyadını Maksudov deyil Maksudi yazır. Rəsmi qaynaqlarda Ahmedhadinin doğulduğu yer Rusiya İmperiyası

Kazan quberniyasının Studeno-Klyuçinsk qəzası göstərilir.

Rusiya Tatarıstanı işğal etdikdən sonra bu yerlərin idarəsini əbədi öz əlində saxlamaq üçün sərt cəza tədbirləri görməklə yanaşı, xristian missionerlərinin əlilə bölgənin müsəlman inanclı əhalisini xristianlaşdırmağa çalışır. Müsəlman dindarları və xüsusən də dini təhsil görmüş insanlar xristian missionerlərinə qarşı sərt müqavimət göstərirlər. Onların müqaviməti güc tətbiq etməklə olmur. Yarı açıq, yarı gizli uşaqları və yeniyetmələri maarifləndirir, İslam dinini təbliğ edir, onun xristianlıqdan üstün cəhətlərini xalqa çatdırırlar.

İslam təriqətləri təşkilatlanmış şəkildə nəinki dirəniş göstərir, hətta bəzi xristianları da islamlaşdıra bilirdilər. Dinlər arasındakı bu mübarizə Tatarıstanda, Başqırdıstanda özünü daha qabarıqlığı ilə göstərir. Ahmedhadi də arxasında Rusiyanın və Avropanın inkişaf etmiş dövlətlərinin durduğu xristianlıqla, təzyiq altında olan İslamın açıq və gizli mübarizə meydanında dünyaya gəlir. İlk təhsilini evdə atasından, sonra da kənddəki ibtidai məktəbdə alan Ahmedhadi 1881-ci ildə Kazandakı Qallamiyə mədrəsəsində oxumağa gedir.

Mədrəsəni əla qiymətlərlə bitirdiyinə görə onu aşağı siniflərdə dərs deməyə saxlayırlar.

Ahmedhadi Maksudi 1892-ci ilədək Qallamiyə mədrəsəsində dərs deyir. O, təhsil zamanı qarşılaşdığı çətinlikləri aradan qaldırmaq üçün ərəb əlifbasına altı hərf əlavə edir ki, sözlər türk dillərində aydın oxunsun. Bununla kifayətlənmir. Uşaqlar üçün dərslik yazmağa başlayır. "Müəllimi əvvəl" kitabını yazaraq nəşr etdirir. Əslində bu əlifba kitabı idi. Kitabda səsli hərflərlə yanaşı səssizlərin də verilməsi dərsliyə böyük maraq oyadır. Bu kitab 32 dəfə çap olunur. Müxtəlif illərdə çap olunan kitabın ümumi tirajının bir milyon iki yüz mini keçdiyini yazırlar. "Müəllimi əvvəl" kitabı yalnız Kazanın məktəblərində deyil, Volqa-boyunun, Uralətrafının, Sibirin, Türküstanın müsəlman məktəblərində də tədris vəsaiti kimi işlədilir. Həcc ziyarətinə gedən Ahmedhadi Maksudi İstanbulda ziyalılarla görüşür, tədrisin yenidən qurulması, türk xalqlarının ortaq ünsiyyət dili, təriqətlər arasındakı fikir ayrılıqlarının Quran əsasında aradan qaldırılması mövzusunda fikir mübadiləsi edir. Geri döndükdə isə Krımda İsmayıl bəy Qaspıralı ilə görüşür. İsmayıl bəylə olan söhbətləri o qədər

səmimi və işgüzar olur ki, Ahmedhadi 1893-cü ildən Baxçasarayda qalıb Zəncirli mədrəsəsində dərs deməyə və "Tərcüman" qəzetində işləməyə razılaşır. Ahmedhadi Maksudi Baxçasarayda qalmaqla kifayətlənmir. Kiçik qardaşı, gələcəyin böyük türkçüsü və ictimai-siyasi xadimi, Tatarıstan Cümhuriyyətinin ilk prezidenti olacaq Sədrəddini də yanına gətirir.

Baxçasaray mühiti və İsmayıl bəy Qaspıralı ilə söhbətlər Ahmedhadi Maksudinin dünyagörüşünə güclü təsir edir. 1896-cı ildə Kazana dönən Ahmedhadi Maksudi imtahan verərək rəsmi hökumət məktəblərində də dərs demək hüququ əldə edir. Bu diplomdan istifadə edərək 1900-cü ildə Birinci Kazan Müsəlman Məktəbində və İkinci Kazan Gimnaziyasında dərs deyir və 1903-1905-ci illərdə Kazan Universitetində azad dinləyici olur. O, müəllimlik etmək, dərsliklər, metodik vəsaitlər hazırlamaqla yanaşı, qəzet-jurnallara da məqalələr göndərir. Xeyriyyəçilərdən topladığı vəsaitlə kasıb uşaqlarını oxudan, mömin müsəlmanların Həcc ziyarətinə getməsini təşkil edən Ahmedhadi Parisdə hüquq təhsili alan kiçik qardaşı Sədrəddin Maksudiyə də maddi yardım edir. 1899-cu ildə Saratovdakı fabrikant

Süleyman Miskinin qızı Zeynəb banu ilə evlənən Ahmedhadinin xeyriyyəçilik və maarifçilik fəaliyyəti daha da genişlənir. Çünkü xanımı tanınmış iş adamı və sənayeçi İsak Yusup oğlu Apanayevin nəvəsi idi. Bu ailələr də xeyriyyəçiliyə, maarifə vəsait ayırmağa həvəs göstərirdilər. Buna görə də Ahmedhadi maddi sıxıntı çəkmədən elmi-pedaqoji fəaliyyətini genişləndirir. Tatar dilində iki cildlik "Ərəb dili" dərsliyi yazaraq 1898 və 1900-cü illərdə Kazanda çap etdirir.

1892-ci ildən başlayaraq 1905-ci ilədək "Yıldız", "Gündüz" , "Kazan" adlı qəzetlər nəşr etmək üçün Mətbuat İşləri Üzrə Baş İdarəyə müraciət etsə də heç birinə müsbət cavab ala bilmir. Lakin o ruhdan düşmədən ana dilində 1899-cu ildə Kazanda "Şəriət", 1901-ci ildə "Peyğəmbərlərin tarixi", 1905-ci ildə üç cildlik "İslam hüququ", 1906-cı ildə orta məktəblər üçün "Ərəb dilinin qramatikası", 1908-ci ildə iki cildlik "Dünya haqqında məlumat", 1910-cu ildə "Tatar dilinin morfologiyası", "Tatar dilinin sintaksisi", "Tatar dilinin etimologiyası" və b. kitablarını çap etdirir. Onun yazmış olduğu kitabların sayı 40-ı keçir. 1905-ci il inqilabının təsiri ilə Ahmedhadi Maksudi "Yıldız"

jurnalının nəşrinə icazə ala bilir. 1918-ci ilədək 1900 sayı çap olunan, Kazanda, Orenburqda, Ufada, Samarada, Saratovda, Vyatkada, Perimdə, Novqorodda, Simbirskidə, Tomskdə, Həştərxanda, Semiplatinskdə, Turqayda, Səmərqənddə, İrkutskdə və b. yerlərdə özünə çoxlu abunəçi toplayan jurnalda əsasən maarifçi məqalələr nəşr edir. 1906-ci il yanvarın 2-də Kazanda ilk tatar kitabxanası- "Kitabxanai İslami" açan və ona bağlanan günə kimi, yəni 1923-cü ilədək müdirlik edən Ahmedhadi Maksudinin həyatının çətin günləri 1917-ci ilin oktyabrında bolşeviklərin silah gücünə hakimiyyəti ələ almalarından sonra başlayır. O, bolşeviklərə qarşı silahlı müqavimət göstərməsə də, milli siyasi partiyalarda rəhbər vəzifə tütmasa da, bolşeviklərdə Ahmedhadi Maksudiyə qarşı bir kin, nifrət vardı. Çünki onun kiçik qardaşı Sədri Maksudi Arslan kimi tanınan Sədrəddin Tatarıstanın mustəqilliyinə can atırdı və yaradılmış cümhuriyyətə xalq onu rəhbər seçmişdi. Bolşeviklər minlərlə tatarı güllələsə də, həbsxanalara salsa da, muhacirətə getməyə məcbur etsə də, silah gücünə bölgəni özlərinə tabe edə bilmirdi. Odur ki, bəzi güzəştlərə gedir, mədəni-maarif işlərinə diqqəti

artırırdı. Ona görə də hökumətin Ahmedhadi Maksudi kimi kadırlara böyük ehtiyacı vardı. Ümumtəsil məktəblərində dərs deyən, ali məktəbdə ərəb dilini tədris edən, ardıcıl elmi fəaliyyətlə məşğul olan Ahmedhadi Maksudini 1928-ci ildə millətçilikdə suçlayaraq pedaqoji sahədən uzaqlaşdırırlar. O, ailəsini dolandırmaq üçün arteldə işləməyə başlayır. Lakin bu da uzun sürmür.

1932-ci il dekabrın 21-də Ümumittifaq Millətçi Sosialist Partiyasının rəhbərlərindən biri kimi həbs edirlər. Uzun sürən istintaqdan sonra Ahmedhadi Maksudini 1933-cü ildə Vyatkaya üç illiyə sürgün edirlər. Sürgün müddətində "Şərq filosofları" kitabını yazan böyük alim 1936-cı ildə Kazana qayıdır. 1938-ci ilin yanvarında yenidən Ahmedhadi Maksudini həbs edirlər. Bu dəfə də istintaq 1939-cu ilədək davam edir.

Sovet müstəntiqləri 71 yaşlı alimi həbs etmək üçün əsaslı bir dəlil tapa bilmirlər. Bolşeviklərin hakimiyyəti ələ almasından sonra daim təqib və təzyiqlər altında yaşamağa məcbur olan Ahmedhadi Maksudi 1941-ci il iyunun 28-də Kazanda dünyasını dəyişir. Uzun illər onun əsərlərinin nəşri, təbliği qadağan edilsə də, xalq

Maksudi qardaşlarını və onların vətən, millət üçün gördükləri işi unutmur. SSRİ dağıldıqdan sonra Ahmedhadi Maksudinin əsərlərinin böyük tirajla çapına və adının əbədiləşdirilməsinə başlanır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il iyunun 27-də, saat 12.14-də efirə getmişdir.

ALİMCAN İBRAHİMOV



(tat. Qalimcan Qirfanoviç İbrahimov, əski əlifba ilə **آليمجان ايبراهيموو**, *rus. Ибрагимов, Галим-джан Гирфанович, 1887-1938)*

Qalimcan Qirfan oğlu İbrahimov 1887-ci il martın 12-də keçmiş Kazan quberniyası Sterlitamak qəzasının Sultanmurat kəndində tatar ailəsində doğulub. İndi həmin kənd Başqırdıstan Respublikasnın Aurqazi rayonuna daxildir. Atası İrfan-Qirfan kənd məscidinin axundu olduğundan məscid nəzdində kurs açaraq soydaşlarının uşaqlarına ibtidai təhsil verirmiş. Atası oğlunu gələcəyin din alimi görmək istədiyi üçün ona Alimcan adı vermiş və ilk təhsili ilə də özü məşğul olmuşdur.

Azərbaycanla sıx bağlı olan Alimcan İbrahimovun adı və atasının adı tatar, başqırd, noqay, qazax və b. qıpçaq qrupu dillərin qaynaqlarında orfoepiyalarına uyğun şəkildə, yəni bəzi səslilərin önünə [q] səsi artırmaqla

yazılır. Ona görə də istər qıpçaq qrupu dillərdə, istərsə rus və bəzi Avropa dillərində adı Qalimcan, atasının adı Qirfan kimi yazılır.

Atası oğlunun rus dilini öyrənməsi, rus mədəniyyəti, rus dövlətinin qanunları ilə tanış olması üçün kənddəki rus-tuzem (Azərbaycanda bu tipli məktəblər rus-tatar məktəbləri adlandırılır) məktəbində oxudur. Qalimcan rus-tuzem məktəbini də uğurla başa vurub. Atası İrfan hər iki oğlunu Qalimcanı və Şakirziyayı 1899-cu ildə Ufadakı o dövrdə üsuli-cədid, yəni yeni üsul adı ilə məşhur olan məktəblərdən Hüseyniyə mədrəsəsinə göndərir. Lakin Qalimcan arıq və xəstəhal olduğuna görə onu Hüseyniyə mədrəsəsinə qəbul etmirlər. O, məcbur qalıb Vəli Molla mədrəsəsində oxumalı olur.

Bədəncə arıq və xəstəhal görünməsinə baxmayaraq, daxilən üsyankar bir ruha sahib olduğundan Qalimcan Vəli Molla mədrəsəsini başa vura bilmir. 1905-ci ildə Rusiyanı bürüyən qarışıqlıq, hakimiyyətə qarşı etirazlar, mitinq və toplantılar Ufadan da yan keçmir. Üsyankar təbiətli Qalimcan Ufada fəaliyyət göstərən "Əl islah" adlı hərəkata qoşulur. Oxuduğu təhsil ocağında gəncləri mitinqlərə, hakimiyyətə qarşı

mübarizəyə səsləyir. Onun belə açıq çağırışları müəllimlərinin etirazına səbəb olur. Fikir ayrılığı və təzyiqlər onun mədrəsədən uzaqlaşmasına səbəb olur.

Qalimcan mədrəsədən çıxsa da, oxumaqdan, biliyini artırmaqdan əl götürmək fikrində olmur. 1906-cı ildə Qaliyə mədrəsəsinə daxil olur. Şeirlər yazan, dünya düzənini dəyişəcəyinə içində bir güclü inamı olan Qalimcan orada bir il oxuduqdan sonra Quzey Qafqaza gələrək noqay uşaqlarına dərs deməyə, onlara elm öyrətməyə çalışır. Burada yeni kitablar, qəzet-jurnallar tapıb oxuya bilmədiyindən boş vaxtlarını bədii yaradıcılığa həsr edir. İlk hekayəsi olan avtobioqrafik "Şagird Zəkinin mədrəsədən qovulması" hekayəsini də yazır və onu 1907-ci ildə Fatih Əmirxanla Abdulla Tukayın rəhbərlik etdiyi "Əl-İslah" qəzetində çap etdirir.

O, yaradıcılıqla məşğul olduqda açıq-aşkar həyat təcrübəsinin, müşahidəsinin yetərsizliyini hiss edir. Ona görə də gəzib-dolanmağa, həyatın bərkini-boşunu görməyə çalışır. Qazaxların, başqırdların, noqayların yaşadıqları aulları, qışlaqları gəzir, soydaşlarının çətin yaşayışı ilə yaxından tanış olur. Bu bilik və bacarıqla xalqına ciddi bir köməyi dəyməyəcəyini başa

düşüb 1909-cu ilin sonlarında ali təhsil almağa yollanır. O dövrün mədəni mərkəzlərindən olan Kazan şəhərinə gəlir. Lakin universitetə daxil ola bilmir.

1910-1912-ci illərdə Kazanda yaşayan Qalimcan müəllimlik etməklə bərabər "Yaz başı", "Dənizdə", "Sevmə səadəti", "Yüz il əvvəl", "Odu sönən cəhənnəm", "Oğru molla", "Gənc ürəklər" və b. hekayələrini yazmaqla tatar nəsrinin inkişafına təkan vermiş olur. 1912-ci ildə Kiyevə gələrək universitetin azad dinləyicisi olur. Bir ilə yaxın universitetdə oxumaqla yanaşı, müsəlman tələbələrin gizli təşkilatının qurucularından birinə çevrilir. 1913-cü il aprelin 16-da onunla birlikdə 16 tələbəni jandarm həbs edir.

İstintaq və cəzadan sonra 1914-cü ildə yenidən Kazana dönərək Qaliyə mədrəsəsində dərs deyən Qalimcan elmi axtarışlara maraq göstərir. "Anq" jurnalına məsul katiblik edir, 1911-ci ildə Kazanda "Tatarcanın sintaksisi", "Tatarcannın morfologiyası", 1913-cü ildə Orenburqda "Tatar şairləri" kitabının birinci cildini çap etdirir. "Tatar ədəbiyyatı və halkiyatı", yəni tatar ədəbiyyatı və folkloru və b. əsərlərinin müəllifinin sosial ədalətin çılğın

tərəfdarı olduğunu görən sosialistlər onu öz tərəflərinə çəkirlər. O, eserlərin ən fəal təbliğatçısına çevrilir.

Bədii yaradıcılıqda isə romantizmə meyllənən Qalimcan İbrahimov 1913-cü ildə "Çobanlar", 1914-cü ildə "Təbiət balaları", "Mərhumun dəftərindən" və "Bizim günlər" əsərlərini tamamlayır.

Çar II Nikolayın hakimiyyətdən uzaqlaşdırılması Qalimcan İbrahimovda böyük ruh yüksəkliyi doğurur. O, var gücünü siyasi fəaliyyətə həsr etdiyindən elmi və bədii yaradıcılığa daha vaxtı qalmır. Hətta mədrəsədəki işini də buraxıb Ufa müsəlmanları arasında xalqçılığı yayan komitənin işlərilə məşğul olmaqla yanaşı, Fatih Seyfi ilə birlikdə Kazanda "İrek" qəzetini də nəşr etməyə başlayır. Sonra bu qəzetin adını dəyişərək "Beznen yol" qoyurlar.

1917-ci ilin oktyabrında bolşeviklərin silah gücünə hakimiyyəti ələ alması Qalimcan İbrahimovun vəziyyətini xeyli ağırlaşdırır. Bolşeviklərin milli kadrlara böyük ehtiyacı olduğundan Qalimcanın eser partiyasının üzvü olmasına baxmayaraq Stalin onu Moskvaya çağırtdıraraq rəhbərlik etdiyi nazirlikdə, Xalq

Millətlər Komissarlığında idarə rəisi Mollanur Vahabovun müavini təyin edir.

Qalimcan İbrahimov hökumət işində çalışmaqla yanaşı, "Çolpan" qəzetinə də redaktorluq edir. 1918-ci ilin fevralında bolşeviklər silahdaşları olan eserləri fikir ayrılığına görə çevrilişə cəhddə suçlayıb cəzalandırırlar. Qalimcan bu həbslərdən və cəzalandırmadan qurtarsa da, daim üzərində bir nəzarət olduğunu hiss edir. 1920-1924-cü illərdə Moskvada Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi nəzdindəki Şərq xalqlarının mərkəzi bürosunun nəşriyyatında çalışır. Vəzifəsi yüksək olsa da, aldığı maaş onun normal qidalanmasını, lazımi şəraiti olan mənzildə yaşamasını təmin etmir. Bu də gənc ədibin və siyasi xadimin səhhətinə pis təsir edir.

Yenidən Kazana dönən Qalimcan İbrahimov burada Kommunist Universitetində dərs deyir, Təhsil Nazirliyinin nəzdindəki elmi mərkəzdə işləyir. Keçmiş inqilabçı yoldaşları da ona daha əvvəlki münasibəti bəsləmirlər. Qalimcan da böyük ümidlər bəslədiyi inqilabın istədiyi yolla getmədiyini görür. Ona elə gəlir ki, cəmiyyətdəki nöqsanlar sosialist ideyasında deyil, bu ideyanı həyata keçirməyə rəhbərlik

edənlərin fəaliyyətindən doğur. Kazanda yaşadığı illərdə V.İ.Leninin əsərlərini ana dilinə tərcüməsilə məşğul olur, eləcə də "Beznen yol", "Meqarif" jurnallarına redaktorluq edir.

İdarəetmədən uzaqlaşdırılmış Qalimcan İbrahimov yenidən elmi, pedaqoji və bədii yaradıcılığa vaxt ayıra bilir. 1924-cü ilin fevralında Moskvada çağırılan Tatar-Başqırd Müəllimlərinin Qurultayında iştirak edir. 1918-ci ildə çap etdirdiyi "Ana dilinin tədris metodikası" əsərlərinin təkmilləşdirilmiş variantının tezisləri qurultay iştirakçıları arasında böyük müzakirəyə səbəb olur.

Qalimcan İbrahimov 1922-1927-ci illərdə rus dilində "Tatar tələbə hərəkatının tarixi", "Tatarca yeni yazı dilinin ilk addımları", "Proletar diktaturasında milli mədəniyyətin aqibəti haqqında" əsərlərini yazır.

Ümumiyyətlə, Qalimcan İbrahimovun toplantılardakı çıxışları az-az hallarda mübahisə və müzakirəsiz keçirdi. 1926-cı ilin fevral-martında Bakıda keçirilən I Türkoloji Qurultaydakı çıxışı da belə olmuşdur. Hökumət Sovetlərin əsarətində olan türk xalqlarının əlifbasını dəyişərək latına keçməyə, bununla da onları keçmişlərindən uzaqlaşdımağa və

Doğudakı din və dil qardaşlarından ayırmağa ciddi hazırlıq apardığı bir zamanda Qalimcan İbrahimov və onunla Tatarıstandan gələnlər latın əlifbasına keçmənin əleyhinə çıxdılar. Onlar keçmişdən, tarixi qaynaqlardan tam qopmamaq üçün ərəb qrafikalı əlifbada islahatlar aparmağı təklif edirdilər.

1925-1927-ci illərdə Tatarıstan MSSR Təhsil Nazirliyində işləyən Qalimcan İbrahimov uğrunda canından keçməyə hazır olduğu sosialist inqilabının hakimiyyətə gətirdiyi insanların xalqını hansı fəlakətə sürüklədiyini görür. 1927-ci ildə mərkəz hakimiyyətin ruslaşdırma siyasətini tənqid edən "Tatar mədəniyyəti hansı yolla gedəcək?" məqaləsini çap etdirir. Tatarıstan Kommunist (bolşeviklər) Partiyasının həmin il iyunun 14-də keçirilən toplantısını kəskin tənqid edir. Beləcə keçmiş silahdaşları ilə yollarının ayrıldığını ortaya qoymuş olur. Keçmiş silahdaşları da onu durdura bilmədiklərini görüb müxtəlif cəza tədbirlərinə əl atırlar.


Sovetlərin işinə yaradığına görə "Tatar qadınının taleyi" əsəri təbliğ olunsa da, dövrü mətbuatda Qalimcan İbrahimov pantürkistlikdə, panislamizmdə, əksinqilabçılıqda təqsirləndirilir.

Maddi vəziyyəti pisləşsə də, xəstəliyi şiddətləndiyinə görə tez-tez Krıma müalicəyə getməli olur. 1937-ci ildə onu Yaltada həbs edərək Kazana gətirirlər. Uzun və işgəncəli istintaqa dözə bilməyən ictimai-siyasi xadim, pedaqoq, yazıçı-jurnalist 1938-ci il yanvarın 21-də həbsxana kamerasında keçinir.

Azərbaycanla sıx bağlı olan, sağlığında əsərləri Azərbaycan mətbuatında tez-tez çap olunan Qalimcan İbrahimov sonradan unutdurulmağa çalışılır. 1956-cı ildə şəxsiyyətəpərəstliyin tənqidindən sonra Tatarıstanda Qalimcan İbrahimov adının əbədiləşdirilməsi, bəzi əsərlərinin çapı üçün bir sıra işlər görülür. SSRİ EA Kazan şöbəsinin Dil, Ədəbiyyat və Tarix İnstitutuna onun adı verilir, heykəl və büstləri qoyulur. Təəssüf ki, türk respublikaları Qalimcan İbrahimovu tamamilə unudur.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il mayın 28-də, saat 12.14-də efirə getmişdir.

ANDRİYAN NİKOLAYEV



(tat. Andiriyan Qriqoryeviç Nikolayev, əski əlifba ilə **آندريان نيكولايئو,** *rus. Николаев Андриян Григорьевич; 1929-2004)*

Andiriyan Qriqoryeviç Nikolayev 1929-cu il sentyabrın 5-də kıçmiş Sovetlər Birliyinin Çuvaşiya Muxtar Sovet Sosialist Respublikası Mariinski-Posadskiy rayonunun Şorşeli kəndində sadə bir kəndli ailəsində doğulub.

Rusiya Federasiyasına daxil olan Çuvaşiya Respublikasının əsas əhalisi çuvaşlar olsa da onlar Rusiya Fedarasiyasının Tatarıstan, Başqırdıstan Respublikalarında, Samara, Simbirski, Orenburq, Saratov, Tümen, Kemerova və b. vilayətlərində, eləcə də Qazaxıstan respublikasında da toplu halda yaşayırlar. Sayları iki milyon yarıma yaxındır. Bu xalqın etnik kökünü suvarlar və bulqarlar təşkil edir.

Miladi 10-13-cü yüzillərdə Volqa-Kama Bulqarıstanının, 13-16-cı yüzildə Qızıl Ordanın

və Kazan Xanlığının tərkibində olan çuvaşlar 1552-ci ildə Kazan Xanlığının işğalından sonra Rusiyanın əsarət altına düşmüşlər. Bu da daha ağır və faciəvi sonluqla nəticələnmişdir. Rusiya missionerləri çuvaşları xristianlaşdırmaqla soydaşları olan, uzun illər birgə yaşadıqları, birgə dövlət qurduqları tatarlardan, başqırdlardan, qazaxlardan ayırmışdır.

Lakin çuvaşları əritmək Rusiyanın hakimiyyət orqanlarının düşündüyü qədər də asan olmamışdır. Onlar böyük çətinliklərlə də olsa dillərini, mədəniyyətlərini, folklorlarını və s. qoruyub saxlaya bilmişlər.

Sovetlər Birliyinin üçüncü, dünyanın isə kosmosa çıxmış beşinci adamı olan Andriyan Qriqori oğlu Nikolayevin uşaqlığı, yeniyetməliyi o qədər də xoş və firavanlıqlar içərisində keçməyib. 1930-cu illərdə həyata keçirilən kollektivləşmə ailənin bir parça torpağını və iş heyvanlarını alıbsa, 1937-ci ilin repressiyası xalqının az-çox savadlı və işgüzar insanlarını, 1941-1945-ci ilin savaşı isə əli silah tuta bilən kişilərinin, tarlada çalışan qadınlarının bir çoxunu məhv edib.

Andriyan Nikolayevin uşaqlığı aclıq-yalavaclıq içərisində, yeniyetməliyi müəllimlər

çatışmayan məktəblərdə, böyüklərin əvəzinə tarlada işləməkdə keçib. Bütün bu çətinliklərə baxmayaraq, o, ruhdan düşməyib. Böyük əzmkarlıqla təhsilini davam etdirib. Kəndlərindəki natamam orta təhsil verən məktəbi bitirdikdən sonra Mari-Posad şəhərindəki Meşə Texnologiyası Texnikumunda oxuyub. 1947-ci ildə oranı uğurla başa vurduqdan sonra da əsgəri xidmətə yollanıb. Əsgəri xidmətini nümunəvi başa vurduqda onu Frunze adına Hərbi-Aviasya Məktəbinə oxumağa göndəriblər. Hərbi-Aviasya Məktəbini 1954-cü ildə bitirdikdən sonra SSRİ Hərbi Hava Qüvvələrində xidmətə göndərilib. Uçuşlarda göstərdiyi şücaət və texniki biliklərə dərindən yiyələndiyinə görə onu 1960-cı ildə kosmonavtlar hazırlanan qrupa daxil etmişlər.

Ötənləri xatırlayanda Andriyan Nikolayev təəccübünü gizlətmədən həmişə deyirmiş ki, özüm də bilmədim, necə oldu ki, mənə həm qırıcı təyyarə pilotluğu, həm də kosmosa uçmaq etibar edildi.

Dünyada ilk dəfə kosmosa uçan insan Yuri Qaqarinlə birgə Andriyan Nikolayev məşq edib. Son anda ilk dəfə kosmosa Yuri Qaqarinin göndərilməsi qərara alınıb. 1961-ci il aprelin 12-də Yuri Qaqarinin kosmasa uçuşu dünyada

böyük maraqla qarşılanıb. Bu uçuş SSRİ ilə ABŞ arasında kosmosun fəthi uğrunda rəqabəti dərinləşdirib. SSRİ ikinci dəfə kosmosa insan göndərməyi planlayanda German Titovla birlikdə Andriyan Nikolayev də məşq edib. Proqramı yüksək səviyyədə yerinə yetirib. Lakin kosmosa German Titovun göndərilməsi məsləhət bilinib.

ABŞ da rəqibini geridə qoymaq üçün kosmosa uçuşlar təşkil edib. SSRİ texniki imkanlar olmasa da, kosmosa uzunmüddətli uçuşlar planlayır. Bu, sanki insan üzərində təcrübə aparmaq kimi bir şey idi. Buna görə də kosmonavtları yerdə, kosmik şəraitə uyğun tək otaqlı palatalarda yerləşdirdilər. Bu eksperimental şəraitə ən çox dözərək "dəmir adam" ləqəbini qazanan Andriyan Nikolayev olur. Həmin eksperimentdən az sonra, yəni 1962-ci avqustun 11-də kosmosa uçuş baş tutur.

Bu uçuş bir neçə cəhətdən önəmli idi. Andriyan Nikolayevdən bir gün sonra, yəni 1962-ci il avqustun 12-də "Vostok-4"lə Pavel Popoviç uçuşa başlayır. Dünyada ilk dəfə kosmik gəmilərin birgə uçuşu həyata keçirilir.

Andriyan Nikolayevin idarə etdiyi "Vostok-3" kosmik gəmisi 1962-ci il avqustun 11-15-də

kosmosda olur. Dörd gündə Andriyan Nikolayev Yer kürəsi ətrafında 64 dəfə dövrə vurur. Bundan əlavə o, ilk dəfə kosmik gəmidə bağlandığı kreslodan ayrılaraq havasızlıq şəraitində gəminin daxilində hərəkət edir. Əslində, bu kreslo kosmonavtı kosmik gəmidən kənara atmaq, Yer kürəsinə göndərmək üçün nəzərdə tutulmuşdu. Andriyan Nikolayev kreslodan ayrıldıqdan sonra bir daha ona dönərək əyləşə bilməsə idi, uzun müddət gəmisi ilə birlikdə kosmosda qalmaq və ya fəzada sürtünmədən məhv olan gəmi ilə birlikdə ölmək təhlükəsilə üzləşməli idi.

Kosmosda ilk qrup uçuşu uğurla keçsə də, Andriyan Nikolayev üçün olduqca ağır olmuşdur. O, yerə endikdən sonra ayaq üstə duranda bədənində çəkisizlik şəraitində dövr etməyə alışmış qan ayaqlarına axmağa başlamışdır. Bədəninin yuxarı hissəsində qan azaldığından bənizi ayazıyıb, başı gicəllənsə də, özün toparlayaraq ayaq üstə dura bilmişdir. Onların kosmosa uçuşu bir də uzun müddət gizli saxlanan Sov.İKP. MK-nin baş katibi L.İ.Brejnevə sui-qəsd cəhdi ilə yadda qalmışdır.

Andriyan Nikolayev və Pavel Popoviç Moskvaya təntənə ilə qarşılanmaya və Sovet

İttifaqı Qəhrəmanı adının təqdim edilməsinə gətirilərkən Sovet Ordusunun kiçik zabiti Viktor İlin bu qarşılanma mərasimindən istifadə edərək L.İ. Brejnevə atəş açmağa cəhd göstərmişdir.

Kosmonavtlar dəstəsində çalışan Andriyan Nikolayev N.Y.Jukovski adına Hərbi-Hava Mühəndisləri Akademiyasında oxumuş və oranı 1968-ci ildə uğurla başa vurmuşdur.

1963-cü il noyabrın 3-də dünyada ilk dəfə kosmosa qadın göndərilir. "Vostok-6" gəmisi ilə uçan Valentina Tereşkova ilə Andriyan Nikolayev evləndirilir. Bu evlilikdən Yelena dünyaya gəlir. Uzun müddət bu ailə xoşbəxtlik, məhəbbətlə qurulmuş bir ailə kimi təqdim olunur. Andriyan Nikolayev müsahibələrində və kitablarında ailəsindən, məhəbbətindən yazır. Xanımı və qızı ilə birlikdə dəfələrlə doğulub boya-başa çatdığı Şorşeli kəndinə gəlirlər.

Lakin bu ailənin ömrü səkkiz ili keçmir. Sonralar məlum olur ki, bu evliliyin də arxasında Sovet tibb mütəxəssislərinin bir eksperimenti dururmuş.

Andriyan Nikolayev "Soyuz-8" kosmik gəmisi ilə uçuşlara hazırlaşsa da, ikinci dəfə 1970-ci il iyunun 1-19-da "Soyuz-9" gəmisinin kapitanı kimi uçmalı olur. Onun

V.İ.Sevastiyanovla birlikdə uçuşu 424 saat 59 dəqiqə çəkir. Birlikdə elmi-texniki və tibbi-bioloji araşdırmalar proqramını yerinə yetirirlər. Uçuşu uğurla başa vurduğuna görə ona ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı və Qızıl ulduz medalı verilir.

1970-ci ildə aviasiya general mayoru adına layiq görülən texnika elmləri namizədi Andriyan Nikolayev bir müddət kosmonavtların uçuşa hazırlanmasında iştirak etdikdən sonra ictimai-siyasi fəaliyyətlə məşğul olur. 6, 7 və 8-ci çağırış RSFSR Ali Sovetinin deputatı olan Andriyan Nikolayev 1982-ci ildən kosmonavtlar dəstəsindən ayrılır.

Bir sıra xarici ölkələrin orden və mükafatları ilə təltif olunur, ayın arxa tərəfinin katerlərindən biri onun şərəfinə adlandırılır. Lakin Andriyan Nikolayevin milliyətcə çuvaş olduğu heç vaxt vurğulanmırdı. Hansı ki, Sovet strateqləri SSRİ-də yaşayan xalqların arasında ayrı-seçkilik olmadığını, beynəlmiləl bir ailədə yaşadıqlarını göstərmək üçün kosmonavtlardan birini arvadının soyadıyla yazırdılar. Çünki bu türk soyadıydı.

Bütün bunlara baxmayaraq, Andriyan Nikolayev ömrünün son illərində doğma yerlərə


daha çox gedir, orada uzun müddət qalmağa çalışırdı. Ancaq, artıq həmin torpaqlarda onun doğmaları, yaxın qohumları qalmamışdı.

2004-cü il iyulun 3-də Andriyan Nikolayev Çuvaşiyada dünyasını dəyişdi. Qızı Yelenanın təkidinə baxmayaraq çuvaş xalqı onun cənazəsinin Moskva yaxınlığındakı Ulduz şəhərciyində dəfn edilməsinə imkan vermədilər. Doğma kəndi Şorşeldə dəfn etdilər. Az sonra da qəbri üzərində onun kosmosa uçduğu gəminin formasında movzaley tikdilər.

Andriyan Nikolayev ilk uçuşundan sonra kəndlərinə alma ağac əkmişdi. Sonralar bu alma ağacının ətrafında gözəl bir park yaratdılar. Andriyan Nikolayevin ölümündən sonra isə bu parkın içərisində də böyük bir muzey yaratdılar. Bu muzey Andriyan Nikolayev adı daşısa da, ona məxsus əşyalar nümayiş etdirilsə də buraya gələnlər daha çox çuvaş xalqının tarixi və mədəniyyətilə yaxından tanış ola bilirlər.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il yanvarın 17-də, saat 12.14-də efirə getmişdir.

AYAZ İSHAKİ İDİLLİ



(*tat. Ğayaz İsxaqıy, əski əlifba ilə* آیاز ایساکی ایدیللی, *rus. Гаяз Исха-кый; 1878- 1954)*

Ayaz İshaki İdilli 1878-ci il fevralın 22-də indiki Rusiya Federasiyasına bağlı Tatarıstan Respublikasının başkəndi Kazan yaxınlığındakı Yavşırma kəndində doğulub. Atası İladəddin İsaki kənd məscidinin axundu olub. O, oğluna peyğəmbərimizin adı Məhəmməd (ə.) adını verib. Bölgədə yaşayan tatarların danışığında bizim Ayaz kimi səsləndirdiyimiz ad Qayaz səslənir. Ona görə də yazıçı, jurnalist, elm adamı və siyasətçi kimi tanınan böyük vətənsevərin adının Ayas, Qayaz kimi yazılışına da rast gəlinir. Ayaz İshaki 12 yaşına kimi atasının dərs dediyi mədrəsədə oxuyur. Burada yalnız Quranı Kərimi oxumağı deyil, şəriətin ehkamlarını, ərəb və fars dillərini, tatar ləhcələrini öyrənir. 1890-cı ildə atası onu dövrünün nüfuzlu din

bilginlərindən olan Şakir Kamal Həzrətin işlədiyi Çistay kəndindəki mədrəsəyə göndərir.

1893-cü ildə Çistay mədrəsəsini uğurla başa vuran Ayaz İshaki Kazan şəhərindəki Allamiyə mədrəsəsində oxumağa gedir. Orada tanınmış din alimi Qallam Həzrətlərindən xüsusi dərs alır və gələcəkdə Sədri Maqsudi Arsal kimi tanınacaq Sədrəddin Maqsudovla tanış olur. Onların tanışlığı dostluğa çevrilir.

Ayaz tələbə yoldaşı Sədrəddinin mədrəsədə dərs deyən böyük qardaşı Ahmedhadi Maksudi bəyin açdığı kitabxananın ən fəal oxucusuna çevrilir. Burada yalnız dərslərinə hazırlaşmaqla qalmır, Krımdan, Qafqazdan, Osmanlıdan göndərilən qəzet və jurnallarla tanış olur, kitabxanaya gələn özündən böyük aydınların söhbətlərini dinləyir, müzakirələrinə qatılır. İslam dünyasının, türklərin tarixini oxuduqca qürurlanır. Lakin yüz illər boyu qüdrətli olmuş Şərqin çöküşü, Avropadan geridə qalması onu rahatsız etmiş və bunun səbəblərini aramağa başlamışdır. Düşündüklərini qələmə alan Ayaz İshaki dost-tanışı arasında şair, qələm əhli və fikir adamı kimi tanınmağa başlayır. 1896-cı ildə 18 yaşlı Ayaz İshakinin "Taallümde saadet" kitabı Kazandakı Kərimoğulları nəşriyyatında

çap olunur. Ayaz İshakinin tələbə yoldaşı Sədrəddinin böyük qardaşı Ahmedhadi Maksudi 1895-ci ildə Krıma işləməyə gedəndə kiçik qardaşını da özü ilə aparır. Bir ildən sonra geri dönən Sədrəddin Ayaz İshakiyə və tələbə yoldaşlarına Krımdan, Krımdakı ədəbi-mədəni mühitdən, İsmayıl bəy Qaspıralıdan, onun nəşr etdiyi "Tərcüman" qəzetindən, çap etdirdiyi kitablardan, ətrafındakı insanların dünya görüşündən söhbət açır. Sərdi Maqsudi ilə Ayaz İshaki millətlərinin xoşbəxt gələcəyi üçün yollar arayırlar. Onlar xoşbəxt gələcəyə gedən yolu şərq mənəviyyatı üzərində Avropalaşmaqda görürlər. Odur ki, mədrəsədən ayrılıb 1899-cu ildə Kazandakı Rus-tatar məktəbinə daxil olurlar. Ayaz İshaki dörd il burada oxuyur. Tələbəlik illərində məsləkdaşları olan yaşıdları ilə birlikdə gizli vərəqlər və qəzetlər nəşrinə həvəslənir. 1902-ci ildə hökumətdən icazəsiz "Hürriyyət" adlı qəzetin nəşrinə nail olur. Lakin bu nəşrin ömrü uzun olmur.

1903-cü ildə Rus dilindən dərs demək hüququ verən diplom alaraq müəllim işləməyə başlayır. Qəzetlərə ölkədəki problemlərdən, əsasən də millətinin dərdlərindən məqalələr yazan Ayaz İshaki ictimai-siyasi işlərdə də

fəallıq göstərir. O, 1905-ci ildə Rusiyada baş verən qarışıqlıqdan yararlanaraq "Tan yıldızı" qəzeti və "Tan" jurnalını çap edir. Lakin nəşrlərin ömrü o qədər də uzun olmur. Hakimiyyət orqanları tərəfindən qapadılır və naşiri də Çistaydakı həbsxanaya göndərilir.

1905-ci il avqustun 15-18-də Nijni Novqorod şəhərində Rusiya Müsəlmanlarının I Konqresi keçirilir. Konqresin qərarı əsasında 1906-cı ilin yanvarında Peterburqda Ümumrusiya Müsəlmanları İttifaqı yaradılır. Ayaz İshaki də bu konqresin fəal iştirakçısı olur. O, burada gələcəyin böyük siyasi xadimləri, milli davanın öncülləri olan insanlarla dostlaşır. I Dövlət Dumasına seçkilər ərəfəsində həbsdə olduğundan seçimlərə qatıla bilməyən Ayaz İshaki 1906-cı ildə "Tavış" qəzetini nəşrinə başlasa da, qəzetin ömrü o qədər də uzun olmur. Hökumət qəzeti bağlayır və naşirini altı ay həbsdə saxladıqdan sonra 1907-ci ildə üç illiyə Arxangelsk şəhərinə sürgünə göndərir.

1908-ci ildə sürgündən qaçıb Peterburqa gələn Ayaz İshakini polis yaxalayıb təkrar sürgünə göndərir. Sürgündən azad edildikdə isə ona Kazanda yaşamağa icazə vermədiklərindən Peterburqa gələrək jurnalistlik fəaliyyətini

davam etdirir. 1911-ci il İstanbula gedən Ayaz İshaki orada "Züleyxa" adlı romanını yazır. Dostlarının dəvətilə vətənə dönən və inqilabı fəaliyyətini davam etdirən Ayaz İshakini polis yenidən yaxalayıb sürgünə göndərir. Lakin onun sürgün müddəti məhkəmənin hökmündəki qədər çox olmur. 1913-cü ildə Romanovlar sülaləsinin taxta çıxması münasibətilə verilən amnistiya əsasında onu da sürgündən azad edirlər. Sürgündən dönən Ayaz İshakinin nəşrinə icazə aldığı "İl" qəzeti 1913-cü il sentyabrın 29-da işıq üzü görür. Qəzet az zamanda Ümumrusiya müsəlmanlarının ən çox oxuduğu nəşrlərdən birinə çevrilir. Qəzetdə ölkədəki milli ayrı-seçkilik, sosial ədalətin pozulması, hökumət məmurlarının rüşvətxorluğu kəskin tənqid edildiyinə görə 1915-ci ilin martında nəşri qadağan edilir. Ayaz İshaki 1916-cı ildə "Söz" adlı qəzetin nəşrinə başlasa da, Rusiya Daxili İşlər Nazirliyinin göstərişilə bağlanılır. 1917-ci ildə Romanovlar sülaləsinin hakimiyyətinə son qoyulması Ayaz İshakinin yenidən "İl" qəzetinin nəşr etməsinə şərait yaradır.

1917-ci il iyulun 21-31-də Kazanda Hərbi Şura Konqresi, Dini Ülama Konqresi və İkinci Ümumi Müsəlman Konqresi keçirilir. Hər üç

toplantının təşkilində Ayaz İshaki və Sədri Maqsudi yaxından iştirak edir. Bütün bu toplantılar Rusiya əsarəti altında olan müsəlmanların təşkilatlanmasına və əsarətdən qurtararaq müstəqil dövlətlərini qurmalarına yönəldilmişdi. Elə ona görədir ki, iyulun 22-də keçirilən toplantıda İdil-Ural türklərinin mədəni muxtariyyatı elan edilir. Ayaz İshaki bu şəhər və kəndlərə gedərək xalq mitinqləri təşkil edir, qarşıya qoyduqları məqsəd və vəzifələri onlara izah etməyə çalışır. O, var gücü ilə apreldə çağrılacaq Qadınlar Qurultayının təşkilati məsələlərini həll edir, Türküstana xüsusi heyətlər göndərir, milli özünümüdafiə dəstələrinin təşkilində əlindən gələni əsirgəmir, Ufa Millət Məclisi üçün deputat seçkilərini idarə edir. Quracaqları Milli Dövlətin xəzinəsi üçün pul toplayır, bir sözlə İdil-Ural Republikasının təşkilinin qərara alınması üçün çalışır. Onu Mərkəzi Rusiya və Sibir Müslüman Türk-Tatarları Millət Məclisinə deputat seçirlər. Lakin onun arzularının reallaşması mümkün olmur. Xalq arasındakı çaşqınlıq, millətin öz içərisindən çıxmış vətənsevərlərə inamsız yanaşması 1918-ci il aprelin 12-də bolşeviklərin Kazanı işğalı ilə nəticələnir. Bolşeviklər milli fəallara divan tutur,

onları həbsxanalara göndərir, bəzən də sorğu-sualsız güllələyir. Şəraitin belə qorxulu və ağır olmasına baxmayaraq Ayaz İshaki və əqidə yoldaşları bir müddət gizli və yarımgizli fəaliyyətlərini davam etdirirlər. Lakin onların fəaliyyət göstərməsinin getdikcə çətinləşdiyini, hətta mümkünsüz olduğunu görüb xarici ölkələrə getməyə üstünlük verirlər. Beləcə Ayaz İshaki 1920-ci ildən mühacir ömrü yaşamalı olur.

Mühacirlik həyatına 1920-ci ildə Parisdə başlayan Ayaz İshaki məqalələrində daha çox İdilli imzasını işlətməyə başlayır. Mühacirətdə Sədri Maqsudi ilə birlikdə Rusiyada əsarət altında olan xalqların hüquqlarının qorunması uğrunda çalışır, beynəlxalq təşkilatlarla işləyir. Mühacirətdə Fransızca çap etdirdiyi əsəri ruscaya və polyakcaya da çevrilir.

Ayaz İshaki yalnız Fransada fəaliyyət göstərməklə kifayətlənmir, Mancuriyaya, Koreyaya, Yaponiyaya, Ərəbistana və Finlandiyaya da gedir orada yaşayan tatarların, başqırdların təşkilatlanmaları, mühacirətdə olan Qafqazlı və Türküstanlı soydaşları ilə birgə fəaliyyət göstərmələri üçün çalışır. Uzaq Şərqə səyahət zamanı "Milli Bayrak" adlı qəzet də təsis edir.

Onun mühacirətdəki naşirlik fəaliyyətinin ən böyük əsəri Berlində 1928-1939-cu illərdə nəşr etdiyi "Yana Milli Yul" (Yeni milli yol) jurnalı olur.

1939-cu ildə Türkiyəyə gəlir, "Türk Yurdu" dərgisində çalışır, "Züleyxa" romanını da Türkiyə türkcəsinə çevirərək nəşr etdirir. 60 ilə yaxın ədəbi fəaliyyətlə məşğul olan Ayaz İshaki İdilli "Zindan", "Tövbəkar xatun", "Sünnətçi Balbay", "Payız" hekayələrini, "Mulla Bubay", "Üyge Taba" (Evə doğru), "Tatarın qızı", "Ulu Muhammed" romanlarını, "Qadın ilk həyat", "İki aşıq", "Həyat yolunda", "Dalğanın içində" pyeslərini, "Xatirə dəftəri", "Otuz Yıllığım" xatirələrini və b. əsərlərini çap etdirmişdir. Təqib və təzyiqlər altında olan, sürgün və mühacirət həyatı yaşayan bir insanın 50-yə yaxın əsər yaza bilməsi təqdirəlayiq bir haldır.

Türkiyədə yaşayan və siyasi fəaliyyəti məhdudlaşdırılan Ayaz İshaki İdillini 1953-cü ilin may ayında Amerika Komitəsi Münhen şəhərində keçirilən toplantıya dəvət edir. O, toplantıda Rus olmayan xalqların haqlarının qorunmasının vacibliyini əsaslandırır.

Münhendən geri dönərkən səhhəti pisləşir. Vəsiyyət edir ki, onu mümkün olan qədər

İstanbulun Ədirnəqapı məzarlığında Yusuf Akçuranın məzarı yanında dəfn etsinlər. 1954-cü il iyulun 22-də dünyasını dəyişən böyük türkçü, çağdaşlaşmağı və İslam-türk mənəviyyatından uzaqlaşmamağı həyat amalı bilən Ayaz İshaki İdillinin bu vəsiyyətinə əməl edilir.

Onun əsərləri və əməlləri isə türk gəncliyinə bir vəsiyyət kimi qalır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il dekabrın 19-da, saat 12.14-də efirə getmişdir.

ƏBDÜRRƏŞİD İBRAHİM (İBRAHİMOV)



(tat. Габдрәшит Ибраһимов, əski əlifba ilə **عبدالرشيد ايبراهيموو**, *rus. Абдурашид Ибрагимов; 1857-1944)*

Əbdürrəşid **(**Qabdrəşit) Ömər oğlu İbrahimov 1857-ci il aprelin 23-də Sibirin Tobolsk vilayətinin Tara kəndinə doğulub. Onun atası Ömər Buxaradan Tobolskiyə sürgün edilmiş özbək idi. O, burada müəllimlik edən başqırd Afifə xanımla ailə qurur. Onlar yeni doğulan körpəyə Əbdürrəşid adını verdilər. Əbdürrəşid gənclik illərində çap etdirdiyi məqalələrində familiyasını İbrahimov kimi yazır.

İlk təhsilini anasından alan Əbdürrəşidi sonra yaxınlıqdakı başqırd kəndi olan Elmanda oxumağa göndərirlər. O, məktəbin ən seçilən şagirdlərindən olur, Quran oxumağı, İslami bilikləri, ərəb dilini öyrənir. İti yaddaşı ona qısa

zamanda türk ləhcələrini yadda saxlamağa imkan verir.

1871-ci ildə anasının ölüm xəbərini eşidərək Tara kəndinə qayıtmaq istəyir. Yoldaykən atasının da ölüm xəbərini eşitdiyindən kəndə dönmür. Bölgənin mərkəzi sayılan və mədrəsəsi olan Tümenə gedir. Mədrəsədə oxuduğu zaman kiçik qardaşını da yanına gətirir. (Əbdürrəşid İbrahimin atası özbək olsa da tatar mühitində böyüdüyündən, mühacirətdə tatarlarla daha çox bağlı olduğundan biz onu da bu kitabda verməyi lazım bildik − Ə.Ş.)

Tümendən Kışkara, oradan da Kazana gedir. Osmanlı dövləti ilə Rusiya arasında 1877-1878-ci illərdə gedən savaşda müsəlman və türklərin xəlifələrinin ordusunda, yəni Osmanlı ordusunda döyüşməli olduğunu təbliğ etdiyinə görə gənc Əbdürrəşid İbrahimovu Kazanda həbs edirlər. Bir ildən sonra əməlində ciddi bir cinayət tərkibi tapa bilmədiklərindən geri dönməyə, yəni Orenburqa getməyə icazə verirlər. O zamanlar Orenburq Rusiyanın sürgün yeri kimi tanınırdı. Əbdürrəşid bu illərdə yazdığı şeir və xatirələrini "Həbsxana əsrarı" kitabında toplayaraq çap etdirir.

Çılğınlığıyla seçilən, daima öyrənməyə və gəzməyə can atan Əbdürrəşid gah varlı bir qazağın uşağına fərdi dərs deyir, gah Akmulla vilayətində mollalıq edir, gah da Orenburqda müxtəlif işlərdə çalışaraq güzəranını təmin etməyə çalışır. Təhsilini almaq, elmi biliklərə yiyələnmək marağı ilə o, Məkkə-Mədinəyə getmək, oradakı müqəddəs yerləri ziyarət etmək və orada oxumaq istəyir. Ona ziyarətə getmək üçün xeyriyyəçilərin verdikləri pulla İstanbula kimi gələ bilir. Buradan da Həcc ziyarətinə gedən bir tatarın qulluqçusu kimi Məkkəyə yola düşür.

Ağasının xidmətçisi kimi Məkkə və Mədinədəki müqəddəs yerləri ziyarət edən Əbdürrəşid geri qayıtmır. Mədinədə qalıb təhsil almaqla yanaşı, ziyarətə gələn müsəlmanlarla sıx əlaqə yaradır, onlardan gəldikləri yerlər, o yerlərin təbiəti, iqtisadiyyatı, əhalinin milli tərkibi haqqında bilgi toplamaqla yanaşı, zəvvarların bəzilərilə dostlaşır. Gələcəkdə Asiya və Avropaya səyahətlər zamanı Həcdə tanış olduğu insanlar ona yardımçı və məsləhətçi olurlar.

Məkkə və Mədinədə beş il təhsil aldıqdan sonra, yəni 1884-cü ildə yenidən Sibirə dönür. O

dövrdə keçmiş Rusiyadan Həccə gedənlər və geri dönənlər xəlifənin əyləşdiyi İstanbulda yolüstü durub, necə deyərlər viza alırdılar. Həmin müddətdə də buranın iqtisadiyyatı, mədəni həyatı ilə tanış olurdular. Əbdürrəşid İbrahim də bir müddət İstanbulda qalır, Əhməd Rəfik Paşa, Müəllim Naci, İzmirli İsmail Hakkı kimi tanınmış şəxsiyyətlərlə görüşərək fikir mübadiləsi edir. Sonra Odessadan keçərək doğulduğu Tara kəndinə qayıdır. Ondan mədrəsədə müəllimlik etməyi, mədrəsənin nüfuzunu qaldırmağı xahiş etdilər. Az müddətdə dərin savadı, insansevərliyi ilə çoxlarının hörmətini qazanır. Kasıb, imkansız və arxasız olsa da, varlı bir ailənin qızıyla evlənir. Bu evlilikdən Münir, Qədriyyə və Fevziyə adlı üç övladı olur.

Əbdürrəşidin ağır və məşəqqətli bir ömür yolu seçməsilə xanımı da razılaşır və onun arxasınca dünyanı dolaşır.

Əbdürrəşid ailə qurduqdan heç altı ay keçməmiş tələbələrinin bir neçəsi ilə birlikdə yenidən Həcc ziyarətinə yola düşür. Ziyarəti uğurla başa vurduqdan sonra tələbələrini oradakı mədrəsələrə yerləşdirib özü yenidən vətənə qayıdır. Burada yeni tipli məktəb, o dövrdə

üsulu-cədid adlanan məktəb açır. Bölgədə bu tip məktəblərin proqramı və dərslikləri olmadığından onları Krımdan, İsmayıl bəy Kaspıralıdan alıb gətirir. Sibirin ucqar bir guşəsində müəllimlik etsə də, müntəzəm Cəmalləddin Əfqani, Şəhabəddin Mərcani, Rzaəddin Fəxrəddin, İsmayıl bəy Qaspıralı kimi şəxsiyyətlərlə məktublaşır.

1890-cı ildə dərs dediyi üsulu-cədid məktəbinin 10 məzununu da alıb yenidən İstanbula gəlir. Şagirdlərini buradakı Darüşşəfəq və Darüt tədris məktəblərinə qoyur ki, Avropa tipli təhsillə tanış olsunlar və elm öyrənsinlər. Özü isə Ufa şəhərinə qayıdır. Burada rus dilindən imtahan verib şəhadətnamə aldıqdan sonra yenidən Orenburqa dönür. 1891-ci ildə Orenburq Ruhani Məclisi tərəfindən qazı – şəriət məhkəməsi təyin edilir. Orenburq Şəriət Məhkəməsinin sədri Həcc ziyarətinə gedəndə isə onu sədr seçirlər.

Məmurların hər addımda xalqı incitdiyini, qanunlara əməl etmədiklərini gördükdə şikayət üçün Rusiyanın başkəndi S.Peterburqa gedərək nazirliklərdə olur, islahatların vacibliyini onlara başa salmağa çalışır, hökumətə yaltaqlanan bir çox din xadimlərini İslami dəyərlərdən

uzaqlaşmaqda suçlayır. Din xadimləri isə Əbdürrəşidi xalqı hökumət əleyhinə üsyana təhrik etməkdə suçlayırlar. Vəziyyətin gərginləşdiyini, onu hər an həbs edə biləcəklərini gördükdə oradan uzaqlaşır.

1895-ci ildə yenidən İstanbula gələn Əbdürrəşid "Livaul-Hamd" və "Çolpan Yıldızı" adlı kitabçalarını çap etdirərək gizli yollarla Rusiyaya göndərir. Kitabçada müsəlman xalqlarının hüquqlarının Rusiyada tapdağından söz açır və onların əsarətdən qurtulmaları üçün Osmanlı dövlətinə köç etmələrinin vacib olduğu fikrini aşılayır. Bu fikirlə Rusiyada yaşayan müsəlman, türk ziyalılarının böyük əksəriyyəti razılaşmırlar. Çünki onlar ata-babalarının yaşadıqları yerləri qoyub getməyin əleyhinə idilər. Buna görə də köçüb getməyə deyil, güclərini azadlıq mübarizəsinə səfərbər etməyə üstünlük verirdilər. Lakin Əbdürrəşid İbrahimin əsəri öz təsirini göstərir. 70 minə yaxın müsəlman Rusiyadan köç edir.

1896-cı ildə Avropaya gedən Əbdürrəşid İbrahim İsveçrədə rus sosialistləri ilə görüşür. İnsan haqları məsələsinə baxışda onlarla fikirlərinin üst-üstə düşdüyü aydınlaşır.

Əbdürrəşidin insan haqları məsələsini qabartması Abdülhamit rejimini də qorxuya salır. Onun fəaliyyətini məhdudlaşdırmağa çalışırlar. Vəziyyətin gərginləşdiyini görən Əbdürrəşid 1897-ci ildə Misiri, Hicazı, Fələstini, İtaliyanı, Avstriyanı, Fransanı, Bolqarıstanı, keçmiş Yuqoslaviyanı, Batı Rusiyanı, Qafqazı, Xarəzmi, Batı və Doğu Türküstanı, Yeddi Su vilayətini, Sibirin bir çox bölgələrini gəzərək doğulduğu kəndə qayıdır. Orada da duruş gətirməyərək Yaponiyaya gedir.

3 illik səyahətdən sonra Əbdürrəşid İbrahim yenidən S.Peterburqa qayıdaraq azərbaycanlı müəlliflərin də fəal iştirak etdiyi "Mirat" jurnalını çıxarır. 1902-ci ildə yenidən Yaponiyaya gedərək orada Rusiya əleyhinə təbliğat aparır. Yaponiyada olarkən Osmanlı sultanı Abdülhamitə məktub yazaraq iki dövlət arasında sıx əlaqələrin olmasının vacibliyini vurğulayır, ictimai-siyasi vəziyyəti anladır, müsəlmanlığın yayılması üçün münbit şərait olduğunu göstərir və bu işdə ona yardımçı olmasını xahiş edir.

Əbdürrəşid İbrahimin Yaponiyadakı fəaliy-yətinin Rusiya üçün çox təhlükəli olduğunu görən Rusiya səfiri onun ölkədən çıxarılmasını

tələb edir. Buna görə Əbdürrəşid yenidən İstanbula dönməli olur. Rusiya Xarici Siyasət İdarəsi Əbdürrəşid İbrahimdən yenə də əl çəkmir. Onun Rusiyaya təhvil verilməsini tələb edir. Osmanlı hökuməti 1904-cü ildə bu tələbi yerinə yetirməli olur. Odessaya gətirilən Əbdürrəşid İbrahim həbs edilir. Ölkə müsəlmanlarının etirazından qorxuya düşən hökumət onu 15 gün sonra həbsdən azad etməli olur.

Əbdürrəşid İbrahim təqib və təzyiqlərdən qorxaraq xaricə qaçmaq əvəzinə Kazana gedərək orada ziyalılar və iş adamlarıyla görüşdükdən sonra S.Peterburqa gəlib bir mətbəə açır. Bu mətbəədə dini və siyasi əsərlər çap edir. Əsarət altında olan türk, müsəlman xalqlarının birliyinə nail olmaq üçün türkçə "Ülfət" adında jurnal nəşrə başlayır. 85-ci sayından sonra polis jurnalı bağladanda o, 1906-cı ildə ərəbcə "Tilmiz" adlı bir jurnal, həmin jurnal bağladıldıqda isə 1907-ci ildə qazaxca "Serke" adı jurnal nəşr edir.

O, yalnız qəzet, jurnal, kitab çap etməklə, məqalələr yazmaqla, məscidlərdə xütbələr oxumaqla qalmır, qorxusuz bir cəngavər kimi təşkilati işlər də görür. İlk toplantısı Oka çayı üzərindəki bir gəmidə gizli, ikincisi, 1906-cı il

yanvarın 13-də keçirilən Rusiya Müsəlmanlarının qurultaylarının fəal təşkilatçılarından biri və "İttifak nizamnaməsi"ni hazırlayan Əbdürrəşid İbrahim olmuşdur. Onun "Aftonomiya" kitabçasında Rusiya müsəlmanlarına muxtariyyət verilməsinin vacibliyi əsaslandırılmışdır. Hətta Dövlət Dumasında müsəlman millət vəkilləri bu kitabçadan yararlanmışlar.

1908-ci ilin sentyabrın 16-da Kazana gələrək ailəsini burada yerləşdirən Əbdürrəşid İbrahim ikinci böyük səyahətinə başlayır. Ufa, Çilebiy, Kızılyar (Petropavlovski), Omski, Tomski, İrkutskini keçərək Monqolustana gəlir. Oradan Mançuriyaya keçib Buddistlərin lideri Dalay Lama ilə görüşdükdən sona Harbin vilayətinə gedir. Əbdürrəşid Viladivostoku keçib gəmiylə Yaponiyaya çatır. Orada yeddi ay qadaqdan sonra Koreya, Çin, Sinqapur, Hindistan kimi ölkələri gəzib, Osmanlı dövlətinə daxil olan vilayətləri keçib 1910-cu ildə yenidən Həcc ziyarətində iştirak edir.

Həcc ziyarətindən sonra yenidən İstanbula dönərək 1912-ci ildə Osmanlı vətəndaşlığını qəbul edən Əbdürrəşid İbrahimin səfər

gündəlikləri Əşrəf Ədip bəyin köməyilə "Alem-i İslam" adıyla çap olunur.

Mehmet Akiflə, Ənvər Paşayla və başqa onlarla dövlət adamı, sərkərdə, yazıçı, şairlə dostluq edən Əbdürrəşid İbrahim gah Trablis savaşına, gah Balkan savaşına qatılır, gah Birinci Dünya Savaşında Rusiyadan Almanlara əsir düşən müsəlmanlardan əsgəri birliklər yaradaraq xəlifə ordularına köməyə göndərir.

1918-ci ildə İstanbuldan başlayaraq Ukrayna-nanı, Almaniyanı, Litviyanı, Doğu Türkistan və Rusiyanın bir çox vilayətlərini gəzdikdən, bolşeviklərlə danışıq aparmağa gələn müsəlman, türk liderlərinə dövlət adamlarına tərcüməçilik etdikdən, necə deyərlər sosialistlərin yalan və saxtakarlıqlarını gördükdən sonra yeni qurulmuş Türkiyəyə gəlir. Burada da onun səmərəli fəaliyyət göstərməsinə imkan verilmədiyini gördükdə bir müddət Konyanın Böyrüdəlik kəndinə gələrək burada ictimai-siyasi, elmi fəaliyyətdən uzaq bir ömür sürür.

Sakit və rahat həyata alışmamış Əbdürrəşid İbrahim 1933-cü ildə 76 yaşında təkrar Yaponiyaya gedir. 1937-ci ildə müsəlmanların aldıqları torpaq sahəsində bir məscid tikdirir. Məsciddə İslamı təbliğ edən və müsəlmanları

birliyə çağıran Ə. İbrahim 1944-cü il avqustun 17-də dünyasını dəyişir.

Onun keçməkeşli həyatı isə insanlığa bir nümunə olaraq qalır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il iyunun 30-da, saat 12.14-də efirə getmişdir.

ƏZİZ QUBAYDULLİN



(tat. Qazis-Əziz Salih oqlu Qubaydullin, əski əlifba ilə عزيز اوبايدوللين, *rus. Губайдулин Газиз Салихович*; *1887-1937)*

Qazis (Əziz) Salih oğlu Qubaydullin 1887-ci ilin 15 iyununda Kazanda tacir ailəsində anadan olmuşdur. Onun adı qaynaqlarda Əziz, Aziz, Qaziz, Oaziz, soyadı Qubaydullin, Ubaydullin, ata adı isə Saleh, Salih və ya Salihoviç kimi yazılıb. Bu fərqlilik eyni ad və soyadın rus, tatar və Azərbaycan türkcəsində yazılışından doğur.

Valideynləri Əzizi kiçik yaşlarında mollaxana adlandırdığımız məhəllə məktəbinə göndərib. Orada "Qurani Kərimi" oxumağı, İslam dininin əsaslarını öyrəndikdən sonra, yəni səkkiz yaşında Xalidiyyə mədrəsəsinə gedib. Onun oxuduğu mədrəsədə dərs deyən müəllimlər Yaxın Şərqin məşhur elm ocaqlarında oxuduqlarından tələbələrinə formal

sxolastik məntiq və fəlsəfəni də dərindən öyrətməyə çalışıblar.

Tatarıstan Rusiya işğalı altına düşdükdən sonra buradakı ziyalıların çoxu rus mədəniyyəti, ədəbiyyatı ilə eləcə də Rusiya vasitəsilə Avropanın inkişaf etmiş xalqlarının ədəbiyyatı, elmi və mədəniyyəti ilə yaxından tanış ola bilmişdilər. Buna görə də Xalidiyyə mədrəsəsinin tədris proqramı Yaxın Şərqin mədrəsələrinin ənənəvi tədris proqramından xeyli fərqlənirdi. Belə ki, burada tələbələr Qərb mədəniyyəti, orada gedən ideoloji mübarizələr tarixi ilə də tanış ola bilirdilər.

Əziz də mədrəsədə oxumaqla yanaşı, hökumətin açdığı Rus-tatar məktəbinə də gedib. Burada rus yazıçısı Lev Tolstoyun əsərlərini sevə-sevə oxuyub, onun dünyagörüşünə, həyata baxışına heyran olub.

Kazan şəhərində rusların sayının gündən günə artması, onlar arasındakı fikir ayrılıqları gənc Əzizə də təsirini göstərib. O, xalqçılarla, anarxistlərlə və sosial demokratlarla yaxından tanış olub. Rus tələbələrinin təsiri altında gimnaziyanın üçüncü sinfinə qəbul olunmağa hazırlaşıb. Lakin ailələrində Rusiyaya nifrət güclü olduğundan, rus dilində təhsil alanlara bir

çox tatar ailələrində yaxşı baxılmadığından o, gimnaziyaya qəbul olmaqdan çəkinib.

Əziz Qubaydullin 1904-cü ildə Xalidiyyə mədrəsəsini bitirib.

1905-ci ildə Rusiyada baş verən iğtişaş, mitinq və tətillərdə tatar gəncləri də fəal iştirak edib. Əziz Qubaydullin də gənclik çılğınlığıyla inqilaba qoşulub və monarxiya, müstəmləkəçilik əleyhinə mübarizə aparıb. Onun fəaliyyəti hökumət məmurlarının diqqətindən kənar qalmayıb.

1906-cı ildə yenidən gimnaziyanın səkkizinci sinfinə hazırlaşan Əziz tatar qəzet və jurnalları ilə əməkdaşlıq edib. Necə deyərlər, fikirlərini xalqa çatdırmaq, xalqı qəflət yuxusundan oyatmaq, öz haqqı uğrunda mübarizəyə səfərbər etmək üçün məqalələr yazıb.

1909-cu ildə Kazan Universitetinin hüquq fakültəsinə qəbul olunan Əziz Qubaydullin burada Azərbaycanlı Soltan Məcid Əfəndiyevlə tanış olub. Bu tanışlıq sonralar sıx dostluğa, əqidə birliyinə çevrilərək ömürlərinin sonunadək davam edib. Onun hüquq fakültəsində oxuması o qədər də uzun sürməyib. Prof. A.A.İvanovun tapşırığıyla dövlətin və millətin əmələ gəlməsi

mövzusunda araşdırmalar aparıb. 1909-cu ildə "Türk xalqlarının qəhrəmanlıq eposu "Seyd Battal"ın yaranması" əsərini yazıb. Bu əsər universitetin tarix professorları M.M.Xvostovun və N.N.Firsovun diqqətini cəlb edib. Ona tarix şöbəsinə dəyişilməyi məsləhət görüblər. Sevimli müəllimlərinin, xüsusən milliyətcə xakas olan Nikolay Fyodorovic Katanovun məsləhətilə "Marko Polo monqol tarixinin araşdırıcısı kimi" mövzusunda diplom işi üzərində işləyib və 1914-cü ildə onu tamamlayıb. Həmin il gənc alim "Türk-tatar xalqlarında qadınların vəziyyəti – qədim dövrdən Teymura qədər", "Mərcani və bədii incəsənət" əsərlərini yazıb.

Universitetin rəhbərliyi təhsildə qazandığı uğurları və yazdığı böyük həcmli diplom işini nəzərə alaraq 1916-cı ildə onu birinci dərəcəli diplomla təltif ediblər. Bu diplomlara günümüzdə "əlaçı diplomu" deyilir.

Birinci dərəcəli diplomla universiteti bitirənləri yüksək qiymətləndirir və onlara bitirdikləri ali məktəbdə qalıb işləmək təklif olunurdu. Lakin hökumət yanında siyasi etibarsızlığına və tatar olduğuna görə dövlət qulluğuna keçməyə, universitetdə işləməyə icazə verməyiblər. Bu azmış kimi 1914-cü ildən

işlədiyi yeni tipli Muhammadiyə tatar mədrəsəsindən də uzaqlaşdırıblar.

Kazan qubernatoru onu sürgün yeri sayılan Sibirə göndərib. Əziz Qubaydullin Orenburq vilayətinin Troitsk şəhərinə gəlib. Buradakı müəllimlər seminariyasında rəsmi işə götürülməsi də, savadına, bacarığına görə onu qeyri-rəsmi şəkildə işə götürüblər. 1917-ci ilin fevralında II Nikolay taxtdan salınanadək orada işləyib.

Yenidən Kazana qayıdan Əziz Qubaydullinin universitetdə işə düzəlməsi 1917-ci ilin noyabrına kimi yubadılıb. Çünki II Nikolay taxtdan uzaqlaşdırılsa da, monarxiya dövründə verilmiş qanunlar hələ də qüvvədə idi. Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra köhnə qanunların qüvvədən düşdüyünü elan etdikdə Əziz Qubaydullinin universitetdə magistraturaya qəbuluna yol açıb. 1919-cu il iki professorun, milliyətcə xakas olan türkoloq N.F.Katanov və rus tarixçisi N.N.Firsovun himayəsilə o, universitetin tarix kafedrasında işə götürülüb. O, az bir zamanda, yəni 1918-ci ildə "Din tarixi kursu" 1919-cu ildə "Rusiya tarixi kursu" və "Qədim dünya tarixi kursu" dərsliklərini yazıb.

1921-ci ildə Sovet təhsil sistemində magistratura pilləsi ləgv edilib. Əziz Qubaydullin son imtahanlarını verib magistr adı almadan həmin ildən Şərq Akademiyası və Şərq Pedaqoji İnstitutunda müəllim işləməyə başlayıb. "Xəzər xaqanlığının tarixi təcrübəsi", "Bir tatar salnaməsinin məhvi", "Puqaçev üsyanında tatarların iştirakı" və "Puqaçev üsyanı və tatarlar" mövzusunda apardığı araşdırmalar ona böyük hörmət qazandırıb.

Əziz Qubaydullin universitetdə dərs deməsinə baxmayaraq, həmişə bolşeviklərin təziqiylə üzləşib. Onun xalqını azadlıq mübarizəsinə, müstəmləkəçilər əleyhinə səsləyən məqalə və çıxışları bolşevik görüntülü velikorusları rahatsız edib. Onlar yaxşı bilirdilər ki, sosializm, kommunizm şüarları ilə hakimiyyətə gələnlər də Rusiyanın müstəmləkəçilik siyasətini davam etdiriblər. Ə.Qubaydullin də onlara qarşı durub və xalq arasında da onun sözü eşidilib.

1925-ci ildə Səmərqənddə keçmiş Rusiya müstəmləkəsi olan, indi də Sovetlərin zülmü altında inləyən Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan, Tatarıstan, Başqırdıstan, Dağıstan, Azərbaycan və b.

bölgələri azad edib vahid bir dövlət qurmaq istəyilə gizli bir təşkilat qurulub. Az sonra bu təşkilatın ağırlıq mərkəzi Bakıya dəyişdirilib. Təşkilatın bir çox rəhbərləri kimi Əziz Qubaydullin də Bakıya gəlməli olub.

Bakıda onun səmərəli işləməsi və gizli fəaliyyətini davam etdirməsi, təşkilatın formalaşdırması üçün lazımı şərait olub. Gənclik dostu və tələbə yoldaşı S.M.Əfəndiyev də burada rəhbər vəzifədə işləyib. Odur ki, Ə.Qubaydullin Azərbaycan Dövlət Universitetinə dosent seçib və yeni yaradılan tarix-ictimaiyyət şöbəsinə müdir təyin edilib. Yaradılan şəraitdən səmərəli istifadə edərək 1927-ci ildə "Xəzərlərin mənşəyi məsələsi", "Tatar burjuaziyasının tarixindən" və "Azərbaycan bəyləri və onların tabeliliyində olan kəndlilər", 1928-ci ildə "Teymur imperiyasının tənəzzülü və özbəklər mərhələsi", 1929-cu ildə "Tatarların mənşəyi məsələsi", "XVI-XVII əsrlərdə tatarların kəndli hərəkatlarında iştirakı", 1930-cu ildə "İsmayıl Qaspıralının ideologiyasına bir nəzər" əsərlərini yazıb.

1928-ci ildə Şərq tarixi kafedrasına professor seçilən Əziz Qubaydullinin şöhrəti

Bakıdan uzaqlara yayılıb. Belə ki, 1930-cu ildə onu Moskva Dövlət Universitetinə də professor seçiblər və Qubadullin orada mühazirələr oxuyub. Əziz Qubaydullin dərs deməklə yanaşı, yorulmadan araşdırmalar apararaq "Didərgin tatarların sosial inkişafının mərhələləri", "Bakı və ətrafı kəndlər", "Fatih Əmirxanov və tatar ədəbiyyatı", "Türk-tatar xalqlarının elminin inkişaf tarixi" əsərlərini və "Feodal epoxasında SSRİ xalqlarının tarixi kursu", "Kəndli müharibələri" və b. dərs vəsaitlərini tamamlayıb. 1931-ci ildən Yaxın Şərq tarixi kafedrasına müdirlik edən prof. Əziz Qubaydullini SSRİ Xalqları Tədqiqat İnstitutuna, Marksistlər Tarixi Cəmiyyətinə, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna, Tarix və Arxeologiya Cəmiyyətinə, Tatarşünaslıq Cəmiyyətinə və b. təşkilatlara üzv seçiblər. Əziz Qubaydullin ali məktəblərdə dərs deməklə yanaşı, gizli təşkilata kadrlar cəlb edib, tələbələrinə getdikləri yerdə gizli təşkilatın özəklərini yaratmağı öyrədib.

Rəhbər vəzifələrdə işləyən partiya, sovet işçiləri ilə görüşən, onları da gizli təşkilatın işinə cəlb edən Əziz Qubaydullin 1937-ci il martın 17-də çalışdığı universitetdən və SSRİ Elmlər

Akademiyası Azərbaycan filialından işdən azad edərək həbs ediblər.

SSRİ-ni dağıdaraq Vahid Türk Tatar dövləti qurmaq istəyən Əziz Qubaydullin və əqidə yoldaşlarını uzun və işgəncəli istintaqdan sonra 1937-ci il oktyabrın 13-də güllələnibdir. Onlar fiziki cəhətdən məhv edilsələr də, ideyaları yaşayıb.

1991-ci ildə SSRİ dağıdılıb və uzun illər Rusiya əsarətində olan bir çox türk xalqları öz azadlıqlarına qovuşublar.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il iyulun 27-də, saat 12.14-də efirə getmişdir.

FATİH KƏRİMİ



(*tat. Muhammet Fatih Qılman ulu Karimov, rus. Мухаммед Фатих Керими; 1870-1937)*

Fatih Kərimi kimi məşhurlaşmış ictimai-siyasi xadimin uşaqlıqda adı və soyadı sənədlərdə Muhammet Fatih Qılman ulu Karimov kimi yazılıb. Onun atası və anası bölgənin məşhur ailələrindəndir. Anası Məsumə Rıza Fəxretdinin (1859-1936) böyük bacısıdır. Bu ailə məşhur sufi şeyxi Zakir İşan Kamalova bağlıdır. Fatih Kərimi Rusiya İmperiyası Samara quberniyası Buqulminski qəzasının Minnibayev kəndində doğulub. Bu kənd indi Minlibayev adlanır və Almetev rayonuna daxildir. 1870-ci il martın 30-da anadan olan Muhammet Fatih ilk təhsilini atasının işlədiyi Aşağı Çerşil kəndindəki ibtidai məktəbdə alıb.

Sonra onu Çistopoldakı Kamaliyə mədrəsəsinə oxumağa göndəriblər. Mədrəsənin

əlaçı şagirdlərindən olan və eyni zamanda, həmin mədrəsənin siniflərində dərs deyən Muhammet Fatih Ufada imtahan verərək imam və müdərris dərəcəsi almaqla yanaşı, rəsmi hökumət təhsil ocağının, yəni Xalq Təhsili Nazirliyi Məktəbinin ikinci kursunu eksterni bitirdiyi haqqında diplom alıb.

Rusiyadakı təhsillə kifayətlənməyən Fatih Kərimi 1892-ci ildə isə İstanbula gedərək oradakı ali təhsilli dövlət məmurları hazırlayan "Məktəbi mülküyəyi şahanə"də 1896-cı ilədək oxuyub. İstanbul mühiti onun biliyinin artmasına, dünyagörüşünün zənginləşməsinə müsbət təsir göstərib. O İstanbuldan geri dönəndə, artıq ərəb, fars, türk, fransız dillərində sərbəst yazıb oxumağı bacarırdı.

Fatih Kərimi 1896-cı ildə İstanbulda təhsilini başa vurduqdan sonra, nədənsə, işləmək üçün valideynlərinin yanına gəlmir. O dövrdəki Tavriya quberniyası Yalta qəzasının Dərəköy kəndindəki mədrəsədə müəllim işləməyə başlayır. Onun ailəsinin Krımla, İsmayıl bəy Qaspıralı ilə sıx əlaqəsi vardı.

Dayısı Fəxretdin də Krıma gəlir, İsmayıl bəy Qaspıralı ilə görüşüb-məsləhətləşirdi.

1898-ci ilədək orada müəllim işləyən Fatih Kərimi 1899-cu ilin fevral-may aylarında Avropaya işgüzar səyahətə çıxan qızıl sənayeçisi Muhammed Şakir Ramiyevi müşayiət edib. Geri döndükdə isə Moskva və Peterburqda qalaraq mətbəə və mühasibatlıq işlərini, alman dilini öyrənib. Atası Qılman Kərimov Orenburq dini işlər idarəsinə göndərildikdə ailələri 1899-cu ilin iyulunda Orenburq şəhərinə köçüb.

Fatih Kərimi yeni üsulla dərs deyən müəllimlərin, yəni cədidçi müəllimlərin yay kursunda dərs deyib. Sonra da mətbəə işlərini daha yaxşı öyrənmək üçün Sankt-Peterburq şəhərinə gedərək Boraqanskinin mətbəəsində işləyib. 1902-ci ildə atası haqq dünyasına qovuşduqda geri dönərək atasının açmış olduğu "Kərimov, Xusainov və K0 mətbəəsi"ni işlətməyə başlayıb. O, Orenburqda ilk tatardilli mətbəəni açmaqla, mətbəəyə ərəb şriftləri gətirərək kitab, qəzet-jurnal nəşrinə nail olmaqla kifayətlənməyib. Kitab satışı məsələlərini də sistemə salıb. Beləcə rəhbərlik etdiyi mətbəə 1917-ci ilədək ərəb əlifbası ilə 384 kitab nəşr edir ki, bunun da ümumi tirajı bir milyonu keçir.

Çoxsahəli yaradıcılıqla məşğul olan Fatih Kərimi 1897-ci ildə "Salix babanın evlənməsi"

hekayəsini, 1899-cu ildə “Müxtəsər coğrafiya” dərsliyini və “Bir şagird ilə bir student” povestini, 1901-ci ildə “Murza qızı Fatima” povestini, 1902-ci ildə “Müəllim və tərbiyəçilər üçün rahnamə” tədris vəsaitini, 1911-ci ildə “Qısa ümumdünya tarixi” dərsliyini və b. kitablarını nəşr etdirib.

Rusiyada yaşayan türk-tatar xalqları arasında 20-ci yüzilliyin başlarında ana dilində ən şirin səyahət oçerkləri yazan müəllif Fatih Kərimi olub. Onun 1902-ci ildə Sankt Peterburqda “Avropaya səyahət”, Orenburqda 1904-cü ildə “Krıma səyahət”, 1913-cü ildə “İstanbul məktubları” kitabları nəşr olunub.

Şərqi və Avropanı yaxşı tanıyan, bədii-publisistik yaradıcılığı ilə xalqının sevimlisinə çevrilən, ictimai-siyasi işlərdə fəal olan Fatih Kərimə qızıl sənayeçisi Muhammet Şakir Ramiyev “Vaqt” adlı ictimai-siyasi qəzet çıxarmağa köməklik edib. O, qəzetinə redaktor müavini vəzifəsinə Ufada Dini İşlər İdarəsində qazı işləyən dayısı, Rızatdin Fəxretdini dəvət edib. 1906-cı ildə tatar dilində nəşrə başlayan 1913-cü ilədək həftədə üç dəfə, ondan sonra gündəlik çıxan bu qəzet nəinki Rusiya türkləri arasında, xarici ölkələrdə də özünə çoxlu oxucu

tapıb. İki il sonra Muhammet Şakir Ramiyev "Şura" jurnalını nəşrinə də vəsait ayırıb. Beləcə Rızatdin Faxretdin 10 il, yəni "Şura" jurnalı bağlanana kimi onun redaktoru olub.

1905-1906-cı illərdə keçirilən Ümumrusiya Müsəlmanları Qurultayında fəal iştirak edən Fatih Kərimi 1905-ci ilin dekabrı ilə 1906-cı ilin martı arasında Orenburqda müsəlmanların beş toplantısını təşkil edə bilib. Qızğın müzakirələrlə keçən bu toplantılara yekdilliklə Fatih Kərimi sədr seçilib.

İki dəfə Orenburq şəhər dumasına üzv seçilən Fatih Kərimi 1907-ci ildə keçirilən II Dövlət Dumasına seçkilərdə də iştirak edib. O, sadəcə tatarların, başqırdların mənafeyi uğrunda mübarizə aparmır, onun mübarizəsi Rusiya əsarətində olan türk-müsəlman xalqlarını azadlığa çıxarmaq mübarizəsi idi.

1906-cı ildə yaradılan "İttifaq əl-müsəlman" Partiyası Mərkəzi Komitəsinin üzvü olan Fatih Kərimi 1914-cü ildə keçirilən Ümumrusiya Müsəlmanları Qurultayında da fəal iştirak edib.

Xarici güclər Balkan xalqlarını Osmanlı dövlətinə qarşı qaldıranda Fatih Kərimi oraya gedib. İkinci Balkan savaşlarından "Bakt" qəzeti oxucuları üçün məqalələr yazıb. Bu məqalələrdə

yalnız savaşın təsvirini verməyib. Bölgənin iqtisadi, siyasi, mədəni, hərbi vəziyyətini təhlil edir, təhsilin durumundan, tarixdən geniş söz açıb.

Fatih Kərimi fəal ictimai-siyasi iş aparmaqla, bədii, pedaqoji mövzuda kitablar nəşr etməklə, mətbəəsində çap olunan kitabların redaktəsini öz üzərinə götürməklə kifayətlənməyib, ardıcıl şəkildə tərcüməçilik də edib. Rus, fransız, türk dillərindən elmi kütləvi kitabları çevirərək nəşr edib.

1917-ci ilin may ayında keçirilən I Ümumrusiya Müsəlmanları Qurultayında Məhəmməd Əmin Rəsulzadə ilə eyni mövqedə duran Fatih Kərimi federasiya layihəsinin tərəfdarlarından olub. Həmin qurultayın Milli Şurasına seçilən Fatih Kərimi 1917-1920-ci illərin qarışıq dövründə xalqının xilasını sosialistlərlə bir cəbhədə olmaqda görüb. 1917-ci il noyabrın 1-də "Yeni dünya" adlı qəzetin nəşrinə başlayıb. Qarışıq zamanda 1917-1924-cü illərdə Orenburqdakı təhsil müəssisəsində dərs deyən, 1919-cu ildə "Gənclər dünyası" və "Yol" qəzetləri ilə əməkdaşlıq edən, redkollegiyasına seçilən Fatih Kərim bolşeviklərin təqibindən yaxa qurtararaq Moskvaya gedib.

Keçmiş dostlarının köməyi ilə Moskvadakı SSRİ Xalqlarının Mərkəzi Nəşriyyatının Tatar şöbəsində işləməyə başlayıb. Ciddi ictimai-siyasi fəaliyyətlə məşğul olmasa da, keçmiş fəaliyyətinə görə daim təqib və təzyiqlə üzləşib. Şərqşünaslıq İnstitutunda türk dilindən dərs deyir, "İşçi" qəzeti ilə əməkdaşlıq edib.

1937-ci ilin avqustunda onu həbs ediblər. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası onu "Türkiyə xeyrinə casusluqda" ittiham edərək ölüm hökmü verib. Bəzi qaynaqlarda Fatih Kərimininn 1937-ci il sentyabrın 27-də güllələndiyi yazılsa da, bəzi qaynaqlar ölüm hökmünün həbs cəzası ilə əvəzləndiyi göstərilib.

SSRİ dağıldıqdan sonra Fatih Kəriminin həyat və yaradıcılığına maraq artıb. Gənclər onun həyat və yaradıcılığına böyük maraq göstərib. İndi onun əsərləri yalnız Tatarıstanda deyil, türk dünyasının hər yerində maraqla öyrənilir.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il iyulun 29-da, saat 12.14-də efirə getmişdir.

HADİ ATLASİ



(tat. Хади Мифтахутдин улы Атласи (Атласов), Əski əlifba ilə خادی آتلاسی, rus. Хади Мифтахутдинович Атласи (Атласов); 1876-1938)

Hadi Miftaxetdin oğlu Atlasov 29 avqust 1876-cı ildə çar Rusiyasının işğal etdiyi tatar torpaqlarında yaratdığı Sembir quberniyası Bua qəzasındakı Tübən Çəke kəndində molla ailəsində doğulmuşdur. İndi bu kənd Tatarıstan Respublikasının Çüprələ rayonuna daxildir. İlk təhsilini atasından alan Hadi sonra Buadakı mədrəsədə oxumağa getmişdir.

Avropa ölkələrinin sürətli inkişafı, Rusiyanın hər sahədə onları təqlid etməsi, Rusiya əsarətində olan xalqlarda da bir Avropapərəstlik əhval-ruhiyyəsi yaratmışdı. Buna görə də Hadi üsul-i qədim, yəni orta yüzillərin proqramı ilə keçilən mədrəsədə oxusa da, cədidçilərə meyil göstərmişdir. Bua

mədrəsəsini bitirdikdən sonra Orenburq şəhəri yaxınlığındakı Karqalı kəndindəki Müəllimlər Seminariyasına daxil olmuşdur. 1898-ci ildə Müəllimlər Seminariyasını bitirəndə o, türk, ərəb, fars, rus, alman dillərini bilməklə yanaşı, astronomiya, coğrafiya, riyaziyyat və başqa fənnləri də oxumuşdur.

Müəllimlər Seminariyasını bitirdikdən sonra Buadakı mədrəsədə işə başlayan Hadi Atlasi buradakı təhsil sistemində dəyişikliyə can atır və istədiyinə nail olur. Mədrəsə şagirdləri üçün "Qıyılme həyət", yəni "Astronomiya" və "Tarixe tabiqat", yəni "Təbilət tarixi" dərsliklərini yazaraq çap etdirir.

Az vaxtda bacarıqlı pedaqoq, millətsevər insan, ictimai xadim kimi tanındığına görə 1903-cü ildə onu Böqelmə qəzasının Əlmət kəndindəki məscidə imam və məscid yanındakı məktəbə müəllim işləməyə dəvət edirlər. Hadi Atlasi bu dəvəti məmunluqla qəbul edir. Burada işlədiyi illərdə mədrəsədə qızlar üçün siniflər açır, "Axırzaman nişanı", "İdel bye", yəni "Volqa boyu" və "Məktəb və molla" adlı publisistik əsərləri çap olunur.

Bu əsərlərində ədib dövrünün ictimai-siyasi hadisələrinə münasibətini bildirir. Hadi Atlasi

imam işlədiyi və mədrəsədə dərs dediyi illərdə çar Rusiyası müstəmləkə altına aldığı xalqları ruslaşdırmaq üçün onların minillər boyu işlətdiyi əlifbanı kiril hərifləri ilə əvəzləməsinə, hər yerdə dərslərin rus dilində keçilməsinə can atırdı. Rusiya Təhsil Nazirliyinin bu haqda qərarı 1906-cı il martın 31-də çap olunur.

Bir çox müsəlman ziyalıları, xüsusən din xadimləri çar Rusiyasının bu təşəbbüsünə sərt reaksiya göstərir. Hadi Atlasi Orenburqda 1906-cı ildə çap etdirdiyi "Yeni nizam və qolyamalarımız" adlı kitabında Rusiya hökumətinin əsarət altına aldığı xristian olmayan xalqların dini və milli hisslərini tapdadığını kəskin tənqid etdi. Əsər müsəlman xalqları arasında böyük əks-səda doğurdu və Hadi Atlasinin cəsarətli addımı alqışlandı. Hökumət məmurları isə bu kitaba görə onu məhkəməyə verib üç ay həbs cəzasına məhkum edilməsinə, qızlar üçün açdığı siniflərin bağlanmasına və imamlıqdan çıxarılmasına nail oldular.

Ona göstərilən təzyiqlər əks nəticə verdi. Az sonra isə, yəni 1907-ci ildə keçirilən seçkilərdə xalq onu II Dövlət Dumasına deputat seçdi.

İkinci Dövlət Dumasında "Müsəlman deputatlarının xidmət fraksiyası"nın üzvü olan

Hadi Atlasi fraksiyanın Peterburqda çap etdiyi "Duma" qəzetinin təşkilatçılarından biri olur. Qəzetin türk-müsəlman kəndililərinin mənafeyini qoruduğunu görən hökumət məmurları bərk narahat olurlar. Onlar 6-cı saydan sonra qəzeti bağladırlar.

Türkologiyaya böyük maraq göstərən Hadi Atlasi tarixi araşdırmalara girişir. Çar hökuməti də işğal etdiyi bölgələrdə yaşayan xalqların tarixini, mədəniyyətini, məişətini, adət-ənənəsini, xalqların və tayfaların bir-birinə münasibətini öyrənməyə maraqlı idi. Həmin yerlərə ekspedisiyalar göndərir, ekspedisiyalara böyük məbləğdə vəsait ayırır, əldə edilən məlumatlar strateji mərkəzlərdə təhlil edilir və idarəetmə planları hazırlanırdı.

Hadi Atlasinin tarixlə maraqlanması, tarixi mövzuda kitablar yazması Rusiyanın strateji maraqları ilə üst-üstə düşürdü. 1905-1910-cu illərdə ardıcıl araşdırmalar aparan Hadi Atlasi "Sibir tarixi" kitabının birinci hissəsini, 1911-ci ildə Kazan şəhərindəki "Ümid" mətbəəsində iki min tirajla çap etdirir. Kitabda Kazan şəhərinin salınmasından, şəhərin ruslar tərəfindən işğalınadək bir dövrü əhatə edir. Burada ilk dəfə

xanların hakimiyyətə gəlməsi və hakimiyyətdən getmələri tarixi xronoloji ardıcıllıqla verilmişdir.

Onun Kazan xanının xanımı Söyen bikənin həyatından bəhs edən tarixi publisistik əsəri və "Kazan tarixi" kitabı tatar-başqırdlar tərəfindən böyük maraqla qarşılanır. Bu əsərlərdə hökumət məmurları bölgəni həmişəlik işğal altında saxlamaq məqsədilə istifadə edirdisə, xalqda da milli şüur oyadır, azadlıq eşqini alovlandırırdı.

Onu Kazan Universiteti nəzdindəki Arxeologiya, Tarix, Etnoqrafiya Cəmiyyətinə üzv seçirlər. Böyük türkoloq Bartold "Sibir tarixi" və "Kazan tarixi" kitabları haqqında yazdığı resenziyanı 1916-cı ildə "Rusiya Arxeologiya Cəmiyyəti Doğu şöbəsinin qeydlər" toplusunun 23-cü cildinin 3-4-cü buraxılışında çap etdirir.

Onun 1913-cü ildə "Şura" jurnalının 9, 10-cu saylarında çap olunan "Başqırdlar haqqında bir söz", 1914-cü ildə "Yıldız" jurnalında çap olunan "Başkırt jırları", 1911-ci ildə "Şura" jurnalının 9-cu sayında çap olunan "Sarkıl şəhəri" məqalələri oxucularda milli şüur oyadırdısa, 1914-cü ildə "Məktəb" jurnalının 7-ci sayında çap olunan "Amerika kitabxanaları" məqaləsi qabaqcıl təcrübədən yararlanmağa,

kitabxanalar qurmağa və ondan istifadə etməyə xidmət edirdi.

1917-ci ilin fevral-oktyabr aylarında Böqelmə şəhərində yaşayan Hadi Atlasi yeni qurulan hökumətlərin heç birinə qarışmır, məktəbdarlıq etməklə gününü keçirməyə çalışır. Lakin bu mümkün olmur. Şəhərin gah ağqvardiyaçıların, gah dutovçuların, gah bolşeviklərin əlinə keçməsi, insanların həyatının daim təhlükədə olması, milli qüvvələr arasındakı ixtilaflar Hadi Atlasini Bakıya köçməyə vadar edir.

Azərbaycan Xalq Cumhuriyyəti illərində Bakıda yaşayan və türk mətbəələrinə rəhbərlik edən Hadi Atlasi bolşeviklər Azərbaycanı işğal etdikdə yenidən Böqelməyə qayıdır.

1920-1929-cu illərdə Böqelmədə tarix və alman dili müəllimi işləyən Hadi Atlasi bolşeviklərin verdikləri vədlərə əməl etmədiyini görüb gizli fəaliyyətə keçir. Gizli təşkilat ətrafında millətçi ziyalılar toplaşır. Onların hərəkatlarını diqqətlə izləyən Sovet xüsusi xidmət orqanları Mirsəet Sultan-Qaliyevi və onun dəstəsini həbs etdikdən, rəhbər vəzifələrdəki türk-tatar ziyalılarını işdən çıxardıqdan sonra yerlərdəki gizli təşkilatları dağıtmağa başlayırlar.

Hadi Atlasi də Sultan-Qaliyevçilikdə suçlanaraq 10 il həbs cəzasına məhkum edilir və Arxangelsk vilayətindəki Solovki adalarındakı həbsxanalara göndərilir. O, burada siyasi məqsədlərlə aclıq elan edən və aclığı ölənədək davam etdirən azərbaycanlılarla tanış olur. Azərbaycanlıların əqidə yolunda ölümə getmələri sanki onları yenidən ruhlandırır. Həbsxanada olan tatar-başqırd ziyalıları Muxtarov, Mansurov, Burundukov, Bubeyli və başqaları Sovetlərə qarşı mübarizənin yeni yollarını planlaşdırırlar.

1934-cü ildə həbsdən azad edilən Hadi Atlasi Böqelməyə qayıdır. Altı ay orada yaşadıqdan sonra yerli xüsusi xidmət orqanlarının təqibindən və təzyiqindən qurtarmaq üçün Kazana köçür. Lakin burada da təqibdən yaxa qurtara bilmir. Özünə münasib bir iş tapa bilməsə də, gizli təşkilatda fəaliyyətini daha da genişləndirir. KQB 1936-cı ilin avqustunda onu və gizli təşkilatın üzvlərindən 23 nəfəri həbs edir. 1937-ci ilin mayına kimi davam edən istintaq "Atlasovşin", yəni Hadi Atlasinin rəhbərlik etdiyi gizli təşkilatın işi adı altında aparılır. 1937-ci ilin oktyabrın 23-28-də "Atlasov qrupunun işi" üzrə Kazan şəhərindəki

Menjinsk klubunda məhkəmə başlayır. Volqaboyu Hərbi Məhkəmənin Kollegiyası 9 nəfəri H.M.Atlasovu (Atlasi), R.R.Yarullini, K.K.Tuykini, B.F.Fattahovu, F.K.Tuykini, Q.A.Altunbayevi, K.L.İsxakovu, S.Ş.Urazmanovu, Z.B.Fattahovu ölüm cəzasına, qalanlarını isə müxtəlif müddətli həbs cəzasına məhkum edirlər. Məhkəmədəki son sözündə Hadi Atlasi "Mən indiki zamanın adamı deyiləm, keçmişin insanıyam" demişdi.

Doqquz nəfərin ölüm hökmü 1938-ci ilin 15 fevralında yerinə yetirilmiş, həbs olunanlardan da 3 nəfəri Stalinin şəxsiyyətə pərəstişdə suçlanmasından sonra geri dönə bilmişdir. Həbsdən dönənlər də xəstə və ruh düşkünliyi ilə.

Hadi Atlasiyə 1958-ci ildə bəraət verilsə də, onun əsərlərinin nəşri və təbliği SSRİ dağıldıqdan sonra mümkün olmuşdur.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il avqustun 11-də, saat 12.14-də efirə getmişdir.

XARİS YUMAQULOV



(tat. Xaris Yumaqul oqlu Yumaqulov, əski əlifba ilə كئريم ايدئلقوژين, *rus. Харис Юмакулов; 1891-1937)*

Xaris Yumaqul oğlu Yumaqulov köhnə təqvimlə 1891-ci il yanvarın 3-də keçmiş Rusiya İmperiyası Samarski quberniyası Puqaçov qəzasının Xasanov kəndində anadan olmuşdur. 1918-ci il yanvar ayının sonunda Rusiyada miladi təqvimində günlərin astronomik təqvimdən geri qaldığını aradan qaldırmaq üçün yeni təqvimə keçildi. Buna görə də qaynaqların çoxunda Xaris Yumaqulovun doğum tarixi 1891-ci il yanvar ayının 3-ü kimi göstərilir. Başqırd, tatar, qazax qaynaqlarında isə onun adı və soyadı Xaris, Haris, Yumaqul ulu, Cumaqul ulu, Jumaqul ulu kimi də yazılır. Atasının adından Rusiyanın məmurları Xarisə soyadı düzəldərək Yumaqulov yazmışlar. Xaris Yumaqulovun adı Azərbaycanda da, Özbəkistanda da, Qazaxıstanda da, Dağıstanda da,

Başqırdıstanda da 1937-ci ilin istintaq materiallarında çəkilir. 1956-cı ildə çağrılan Sovet İttifaqı Kommunist Partiyasının 20-ci qurultayından sonra repressiya qurbanlarının böyük əksəriyyətinə bəraət verildi. Dünyaya isə bu repressiyanın səbəbkarı uzun illər Sov.İKP MK-ya rəhbərlik etmiş, dünyanın ilk sosialist dövləti olan SSRİ-ni milyonlarla insanın qanı bahasına da olsa yaşatmış, İkinci Dünya Savaşında Müttəfiqlərin qələbəsini təmin etməkdə böyük rol oynamış İosif Stalinin adına yazdılar. Əslində nahaq qanın axıdılmasında minlərlə insanın rolu olmuşdu. Yeni cəmiyyət, azad və firavan bir ölkə yaratmaq adı altında qanlar axıdanların bir çoxunu da İosif Stalin və ətrafındakılar məhv etmişdi. Bəraət elan edənlərin özləri də nahaq qanların axıdılmasında az rol oynamamışdılar. Onlar məhvə gedən quruluşu xilas etmək, tam xilas etmək mümkün olmasa da ömrünü uzatmaq üçün belə bir islahata əl atmışdılar. Onların verdikləri bəraət də formal xarakter daşıyırdı. Məhv etdikləri insanların əsərlərinin tam nəşr edilməsinə, öyrənilməsinə, istintaq materialları ilə geniş xalq kütlələrinin tanış olmasına imkan vermirdilər. Sovetlər Birliyinin dağılmasından 20 ildən çox

keçməsinə baxmayaraq 1937-ci ildə və ondan sonrakı illərdə həbs edilən, güllənən bir çox insanlar haqqında həqiqətlər hələ də tam aşkarlanmamışdır. Belə insanlardan biri də Xaris Yumaqul oğlu Yumaqulovdur.

İlk təhsilini kənd məktəbində, mollaxanada alan Xaris sonralar Rus-tuzem məktəbi adlandırılan Avropa tipli təhsil ocağında oxumuşdur. Yaşıdları arasında oxumağa marağı, diribaşlığ, hazırcavablığı ilə seçilən Xaris Yumaqulov gimnaziyanı başa vurduqdan sonra Moskvadakı Ali Kənd Təsərrüfatı Akademiyasına daxil olmuşdur. Təhsil illərində o elmi biliklərə, seçdiyi ixtisasa dərindən yiyələnməkdən çox ictimai-siyasi işlərə maraq göstərmişdir.

Bu da səbəbsiz deyildir. 300 ilə yaxın işğalçılıq siyasəti yürütmüş, qonşu xalqları əsarət altına alaraq onların torpaqları və sərvətləri hesabına Avrasiya məkanında böyük və əzəmətli dövlət qurmuş Romanovlar sülaləsinin hakimiyyəti çökürdü. Ölkədə yaşayan az-çox ağlı və düşünmək qabiliyyəti olan insanlar xilas yolları axtarırdılar.

Xaris Yumaqulov da xilas yolları axtaranların sırasına qoşulanlardan idi. Təklif olunan yollardan, aparılan təbliğatlardan ona

sosialistlərin tutduğu yol daha doğma və əziz gəlirdi. Əzilənləri, yoxsulları, gücsüzləri, kimsəsizləri xilas etmək, istismarçılara qarşı durmaq üçün 1917-ci ildə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının bolşeviklər qanadına qoşuldu. 1917-ci il Xaris Yumaqulov üçün bir də onunla əlamətdar olur ki, Moskvadakı gizirlər hazırlayan məktəbi bitirir. Birinci Dünya Savaşında uduzmaqda olan Rusiyanı xilas etmək üçün yeni səfərbərlik elan edilmiş, ali məktəblərdə oxuyan bir çox gənc hərbi kurslara göndərilmişdir. Lakin nə yeni açılan hərbi kurslar, nə də səfərbərlik Rusiyanı xilas edə bilmədi. İçindən qaynayan ölkə dağıldı. Romanovların 300 illik hakimiyyətinə son qoyuldu. Çar II Nikolay taxtdan əl çəkməli oldu. Ölkəni xilas etmək ümidilə 1917-ci ilin fevralında Kerenskinin rəhbərliyi altında Müvəqqəti hökumət quruldu. Lakin Müvəqqəti hökumətin ömrü o qədər də uzun olmadı. Köhnə təqvimlə 1917-ci ilin oktyabrında bolşeviklər silahlı çevrilişlə hakimiyyəti ələ aldılar. Başqırd vətənpərvərləri milli muxtariyyət əldə etmək üçün hərəkətə keçdilər. Lakin çar ordusunun yüksək rütbəli zabitlərinin rəhbərlik etdiyi silahlı dəstələr bir tərəfdən, bolşeviklər o biri tərəfdən

muxtariyyətə qarşı çıxdılar. Xaris Yumaqulov 1917-ci ilin iyul avqust aylarında Başkırdıstan Vilayət Şurasının, Başqırdıstan Hökumətinin üzvü oldu. 1919-cu ildə "İrek" adlı Başqırdıstan Milli Partiyasına sədrlik edən Xaris Yumaqulov Başqırdıstanı bolşeviklər işğal edib milli kadrlara divan tutduqda ona Rusiya Kommunist (bolşeviklər) Partiyasının üzvü olduğuna görə toxunmadılar. Onu Başqırdıstanın Müvəqqəti Hərbi İnqilab Komitəsinə, eləcə də Rusiya Kommunist (bolşeviklər) Partiyası Başqırdıstan Vilayət Komitəsinə sədr təyin etdilər. Lakin onu, tapşırıqları yerinə yetirmədiyinə, milli kadrları müdafiə etdiyinə görə vəzifədən və partiyadan çıxartdılar.

Xaris Yumaqulov Moskvaya dönərək orada Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin nəzdindəki Başqırdıstan MSSR üçün müəllim kadrları hazırlayan kursa rəhbərlik etdi.

Moskvada işləyərkən bolşeviklərin milli məsələdə, insan haqlarında yanlış mövqe tutduqlarını, söz azadlığını boğduqlarını gördükdə gizli fəaliyyət göstərən təşkilata üzv yazıldı. Bu təşkilat Vahid Türk Tatar Dövləti qurmaq üçün fəaliyyətə başladı. Təşkilata Azərbaycandan Soltanməcid Əfəndizadə, Dadaş

Bünyadzadə, Bəkir Çobanzadə, Özbəkistandan Abdulla Rahimbayov, Qazaxıstandan Turar Rıskulov, Sencer Asfandiyarov, Krımdan Şuqu Emirhesen, Qaraçay-Çərkəzdən Ömər Əliyev, Dağıstandan Taho Qado və başqa yüksək vəzifəli Sovet məmurları, alimləri, ziyalıları daxil idi. Xaris Yumaqulov gizli təşkilatda antisovet fəaliyyət göstərsə də 1931-ci ildə yenidən Ümumrusiya Kommunist (bolşeviklər) Partiyasına üzvlüyü bərpa edildi. 1935-ci ilədək SSRİ Taxılçılıq və Heyvandarlıq Sovxozları üzrə Qərbi Sibir Xalq Komissarlığında uçot və statistika şöbəsinin müdiri işlədi. 1935-ci ildə onu yenidən partiya sıralarından xaric etdilər. 1937-ci ilin iyulun 27-də həbs edərək noyabrın 2-də güllələdilər.

Xaris Yumaqulovun güllələnməsindən 75 ildən çox keçsə də onun gizli təşkilatdakı fəaliyyəti, milləti və əsarətdə olan türk xalqlarının azadlığı üçün gördüyü işlər hələ də gərəyincə öyrənilməmişdir.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il fevralın 19-da, saat 12.14-də efirə getmişdir.

XƏSƏNQATA QABƏŞİ



(tat. Xasan – Qata Muxammetoviç Qabyaşi, rus. Хасан -Гата Габаши*; 11.01.1863-07.08.1936)*

Xəsənqata Möxəmməd oğlu Qabəşi 1863-cü il yanvarın 11-də Keçe Sılabaş kəndində molla ailəsində doğulmuşdur. Atası Möxəmməd və babası Kəlimulla Qobeydulla oğlu kənd təsərrüfatı işləri ilə məşğul olmaqla yanaşı, əlyazma kitablarının üzünü köçürmək və qəbir daşları üzərində ölənlər haqqında bilgi yazmaqla da məşğul olarlarmış.

Xəsənqata da ilk təhsilini evdə atasından və babasından aldığından mədrəsədə ibtidai siniflərdə oxumayıb. Atası onu 1875-ci ildə Kazandakı Vəli həzrətləri mədrəsəsinə göndərib. Bu mədrəsə o dövrdə Üsul-i Qədim, yəni köhnə qaydalarla dərs verən təhsil ocağı sayılırdı. Avropanın təsiri ilə formalaşan, yeni üsulla dərs

verən, yəni proqramında riyaziyat, coğrafiya, kimya və başqa fənlər tədris edilən, xarici dillər öyrədilən mədrəsələrlə Üsul-i qədim adlandırılan mədrəsələr arasında bir qarşıdurma, açıq və gizli bir ziddiyət vardı.

Ata və babası Xəsənqatanın mühafizəkar bir təhsil ocağında oxumasını istəsələr də, o, rus dilini, riyaziyyatı, coğrafiyanı, təbiət elmlərini, tarixi öyrənmişdir.

Xəsənqata Qabəşi 12 il mədrəsədə oxumuş, 5 ildən çox da orada dərs demişdir. Kazan mühiti onun dünyagörüşünün formalaşmasına güclü təsir göstərmişdir. Belə ki, Şibahəddin Mərcani, Kamal Nasrı, İsmayıl bəy Qaspıralı, Nikolay Katanov, Qalimcan Barudi və başqa elm adamları ilə yaxından tanış olmuşdur. Şibahəddin Mərcanini yüksək dəyərləndirən Xəsənqata Mərcaniyə ithaf etdiyi kitabında yazmışdı: "Tarixi bir elm olaraq tanımayan bizim millətimiz qarşısında Mərcaninin rolu böyük olmuşdur. O, bizim milli tarixşünasılğımızın təməlini qoymuşdur".

Xəsənqata elmə və yaradıcılığa böyük maraq göstərsə də, nədənsə Kazandan ayrılmalı olur. Doğulub, boya-başa çatdığı kəndə dönür. Bir müddət kənd məscidində mollalıq edir, ətraf

bölgələri gəzərək xalqların yaşayış tərzi, hansı tayfadan, hansı nəsildən olduğu ilə maraqlanır. Necə deyərlər, gələcək əsərləri üçün material toplayır.

1889-cu ildə yenidən Kazana dönən Xəsənqata Qabəşi Yunusov qardaşlarının müsəlman uşaqlarının təlim-tərbiyəsi üçün açdıqları internat tipli məktəbdə müəllim işləməyə başlayır. O, üsul-i qədim mədrəsəsini bitirib orada dərs desə də, yeni iş yerində cədidçi kimi tanınır. Mədrəsədə oxuduğu və işlədiyi illərdə dərslik qıtlığının yaratdığı çətinliyi aradan qaldırmaq üçün özü dərslik yazıb çap etdirməyə başlayır. 1889-1890-cı illərdə beş kitab nəşr etdirir. Bu kitablardan biri də ata babası Qobeydulla Qabeşinin seçilmiş şeirlər kitabı olur.

Xəsənqata Qabəşi bu dəfə Kazanda çox qalası olmur. Yenidən Sılabaş kəndinə dönərək evində uşaqlara dərs deyir, elmi araşdırmalar aparır. Onun kənd məktəbini müasirlərinin bir çoxu Sılabaş Universiteti adlandırmışdır. 1893-1894-cü ildə kənddə yaşayan Xəsənqata Qabəşini 1895-ci il fevralın 10-da Orenburq İslam Dini İdarəsinə qazı seçdiklərindən Ufa şəhərinə köçməli olur. Dörd ilə yaxın qazı işləyir

və 1897-ci ildə “Türk ırıqları”, yəni “Türk tayfaları”, 1899-cu ildə isə “Muxtəsər tarixi qövmü Türk” kitablarını çap etdirir. Ensiklopediya tipli bu kitablar yalnız Rusiyada yaşayan türk xalqları arasında deyil, dünya türkoloqları arasında da böyük maraqla qarşılanır.

Xəsənqata Qabəşi 1907-ci ildə yenidən qazı seçildiyindən təkrar Ufaya köçür. Burada vəzifəsinin verdiyi imkanlardan istifadə edərək kasıb uşaqlar üçün sənət məktəbinin təşkilinə, Ufa həbsxanasındakı müsəlman məhbuslar üçün savadsızlığı aradan qaldırma kurslarının açılmasına nail olur.

16 il üzərində işlədiyi “Müfəssəl tarix-i qövmi türki” kitabını 1909-cu ildə Ufada çap etdirir. Doğu və Avropa alimlərinin tarixə yanaşma metodlarının sintezindən yaranan bu kitabda Xəsənqata Qabəşi çağdaşı olduğu türk tayfalarından, onların keçmişindən söz açmaqla kifayətlənmirdi. Türklərə qonşu olan və onlarla qohum sayılan uqro-fin tayfalarının tarixi haqqında, eləcə də ari tayfalarınını dilindən, həyat tərzindən, Hindistana və İrana köçmələrindən, oradan da Avropaya köç etmələrindən yazırdı.

Yunanların Qara dəniz sahillərinə çıxması uğrunda mübarizəsindən, türklərlə qarşılaşmalarından bəhs edən səhifələr də olduqca diqqətiçəkən idi. Böyük türkoloq türk tayfalarının tarixin müxtəlif dövrlərində fərqli adlar daşımalarına aydınlıq gətirməklə yanaşı, assimilə olunan türk tayfaları haqqında da bilgi verir.

Kitabın çapından az sonra alim dünyanın müxtəlif guşələrindən 200-dən çox məktub alır. Hətta Osmanlı sultanı Muhammed Reşad ona 1910-cu ildə hədiyyə olaraq xalça, qızıl cib saatı və qiymətli daşlarla bəzədilmiş təsbeh göndərir.

Onun bu uğurları yalnız çar məmurlarını deyil, öz soydaşı və dindaşı olan xəbisləri də bərk narahat edir. Kazanlı tacirlərdən Siracəddin Zabirov və istefada olan hərbi imam Möxəmməd Qarif Abdulvəliyev Rusiya Xarici İşlər Naziri Makarova şikayət məktubu yazır. Məktubda göstəritlər ki, pantürkist əsərlər yazaraq çap etdirən Xəsənqata Qabəşi çar və onun ailəsinə lənət yağdırır.

Məlum məsələdir ki, Xəsənqata Qabəşi kimi vətənsevər, mömin birisi müstəmləkəçidən, antiislam və antitürk bir hökumətdən razı ola bilməzdi. Fikirlərini də gizlətməyərək soydaşlarının yanında açıq söyləyirmiş.

Soydaşlarının əksəriyyəti onu ələ verməklərindən istintaq haqqında cinayət işi açа bilmir.

Orenburqda 1906-1918-ci illərdə çap olunan "Vaqt" və Kazanda 1906-1918-ci illərdə çap olunan "Yıldız" qəzetlərinə, Orenburqda 1906-1917-ci illərdə çap olunan "Din və məişət", 1908-1917-ci illərdə nəşr olunan "Şura" jurnallarına mütamadi məqalələr yazan Xəsənqata Qabəşi "Məlumat-i məhkəmə-yi şəriət" və "Məcəllə məhkəmə-yi şəriət" jurnallarını da redaktə etmişdir.

Onun "İslamda müsiqi və nəğmə haqqında", "Misyonerlik hərəkatı haqqında", "Müsəlman kəndlərinin isimləri", "Milli türk tarixi", "Xalq Universitetləri haqqında", "Yeddi su vilayətindəki zəlzələ haqqında", "İç Rusiya və Sibir müsəlmanlarının əsgərlik məsələsi" və başqa əsərləri bu gün də elmi dəyərini itirməmişdir.

1917-ci ildə Xəsənqata Qabəşi siyasətlə fəal məşğul olmaq istəsə də, bu uzun sürmür. Siyasətdən uzaqlaşaraq doğma kəndinə qayıdaraq məktəbdarlıq etməyə başlayır. Lakin onun əkdiyi toxumlar cücərirdi. O, türk tarixini üç dövrə, birinci bulqardan əvvəl və bulqar dövrünə, ikinci monqol istilasında Kazan

xanlığının Rusiya tərəfinfən işğalı dövrünə, üçüncü isə işğaldan sonrakı dövrə bölürdü.

Bolşeviklərin tərəfini tutan, sosializm quruculuğunda canından keçməyə hazır olan kommunistlər belə Xəsənqata Qabəşinin əsərlərini həvəslə oxuyur, ondan ilhamlanırdılar. Milli şüurun oyanması isə Sovetlər adı altında xalqları yenidən əsarət altına alan rus siyasətçilərinin xeyrinə deyildi. Odur ki, Xəsənqata Qabəşi kimi düşünən başları aradan götürmək üçün müxtəlif yollar axtarırdılar.

1931-ci ildə Xəsənqata Qabəşin malı, mülki əlindən alınır və özü də Kokuşkin kəndində yaradılmış kollektiv təsərrüfatda işləməyə məcbur edilir. Lakin bu da Sovet məmurlarını razı salmır. İslami dəyərləri hər şeydən uca tutan və onu təbliğ edən qoca alimi 1932-ci ilin yanvarında həbs edərək Ağ Dəniz-Baltik kanalının tikintisində işləməyə göndərirlər.

İnsanlara edilən zülmdən və qəddarlıqdan ağlını itirən alimi 1936-cı ildə doğulduğu kəndə, Sılabaşa göndərirlər. Xəsənqata Qabəşi orada çox yaşamır, 1936-cı il avqustun 7-də dünyasını dəyişir.

Onun əsərlərinin tədqiqi, nəşri qadağan edilsə də, Sovet hökuməti yıxıldıqdan sonra

Xəsənqata Qabəşiyə bəraət verilmiş, irsinin öyrənilməsi və təbliğinə başlanmışdır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il oktyabrın 10-da, saat 12.14-də efirə getmişdir.

KARİM İDELQUJİN



(tat. Karim Abdulla ulu İdelqujin, rus. Керим Абдулла улу Иделгужин; 1895-1937)

Karim Abdulla oğlu İdelqujin 1895-ci il oktyabrın 2-də keçmiş Rusiya İmperiyasının Orenburq quberniyasındakı Qıpçaq qəzasının Mryasov kəndində doğulmuşdur. İndi bu kənd Rusiya Federasiyası Orenburq vilayəti Novosergeyevka rayonuna daxildir. Karim ilk təhsilini kəndlərində mollaxana adlandırılan ibtidai məktəbdə almışdır.

Rusiya Tatarıstanı, Başqırdıstanı işğal edib sərhədlərini Sibirin dərinliklərinə doğru genişləndirməklə kifayətlənmir. Qafqazı, Türküstanı da işğal etməyə can atır. İşğal etdiyi torpaqlarda mövqelərini möhkəmlətmək üçün ruslaşdırma siyasəti yeridir, yerli millətlərdən özünə sadiq kadrlar hazırlayır. Bu kadrlardan

həm də yeni işğal etdiyi bölgələrdə istifadə edirdi.

Rusiyanın yeritdiyi millətçilik siyasəti əsarət altına aldığı xalqların da ziyalılarında milli hissləri oyadırdı. Karim İdelqujin belə bir mühitdə doğulmuşdu.

Karim İdelqujinin yetkinlik yaşlarında bölgədə "Qusmaniyyə", "Qaliyə", "Hüseyniyə", "Sultaniyyə", "Rasuliyyə" və b. mədrəsələr fəaliyyət göstərirdi. Bu təhsil ocaqları arasında Şərqin bir çox ölkələrini gəzib, İstanbul və Qahirə kimi şəhərlərdə təhsil aldıqdan sonra vətənə dönmüş Pərvazəddin Camaləddin Kamaləddinovun açdığı "Qaliyə" mədrəsəsi xüsusilə seçilirdi. Ziya Kamali kimi tanınan din alimi və pedaqoqun açdığı mədrəsəni dövrün bir çox məşhur adamları bitirmişdir. Karim İdelqujin də 1912-1914-cü illərdə mədrəsədə oxuyarkən müxtəlif siyasi baxışlı müəllimlərlə və gələcəyin məşhur şairləri və yazıcıları ilə, siyasi və ictimai xadimləri ilə, dövlət adamları ilə tanış olub və dostlaşmışdır.

Karim İdelqujin "Qaliyə" mədrəsəsini bitirdikdən sonra bütün gücünü millətinin azadlığı uğrunda mübarizəyə sərf edir. Maarifçiliklə yanaşı təşkilatçılıq işləri də aparır.

Əsas diqqətini azadlıq mübarizəsinin alovlandırılmasına yönəldir. Başqırdıstanın muxtariyyəti ideyasını yayanlardan birinə çevrilir.

Bolşeviklərin Peterburqda silah gücünə hakimiyyəti ələ almaları ölkədəki qarışıqlığı daha da dərinləşdirir. Peterburqdan bir gün sonra isə Ufada da bolşeviklər Sovet hakimiyyətini qurduqlarını və quberniya inqilab komitəsi yaratdıqlarını elan edirlər. Başqırd millətçiləri də məcbur qalıb 1917-ci ilin dekabrında Orenburqda "Kiçik Başqırdıstan" dövlətini qurdular. Lakin bu dövlətin möhkəmlənməsinə bir tərəfdən Dutovun və Kolçakın silahlı dəstələri, o biri tərəfdən də bolşeviklərin əsgəri birlikləri mane olur. Vəziyyətin çıxılmaz olduğunu görüb Zəki Vəlidi Toğanın rəhbərlik etdiyi qrup bolşeviklərlə ittifaqa girməyi qərara alır.

Karim İdelqujin də bu ittifaqın tərəfdarlarından olur. 1919-cu ilin martında milli hökumətin ordu birlikləri bolşevik əsgəri birliklərinə qatıldı və hakimiyyətin də bolşeviklərə verildiyi elan edildi. Başqırdıstana isə Rusiya Federasiyasının tərkibində muxtar respublika statusu verildi.

Bolşeviklər milli ordunun əsgər və zabitlərinə, eləcə də hökumətdə müxtəlif vəzifə tutanları güllələməyə, həbs etməyə, onlara təzyiq göstərməyə başlayır. 1918-1919-cu illərdə Başqırd ordusunun komandirlərindən olan Karim İdelqujin başqırd xalqının mənafei xatirinə bolşeviklərlə işləməyi qərara alır. Hətta 1919-cu ildə kommunist partiyası sıralarına daxil olur. Onu Tamyan-Katay bölgəsinə hərbi komissar vəzifəsinə göndərirlər.

1920-1921-ci illərdə Burzyan-Tanqaurov, 1921-1922-ci illərdə Tok-Suran, 1924-1925-ci illərdə Arqaş bölgəsində inqilab komitəsinin sədri işləyən Karim İdelqujin Şaqit Xudayberdinlə birlikdə Burzyan-Tanqaurov bölgəsində savadsızlığın ləğv edilməsində də xüsusi fəallıq göstərir.

1922-1924-cü illərdə Orenburqdakı Başqırdıstan Xalq İnstitutunu bitirən Karim İdelqujini Ufa şəhərinə gətirir və vilayət partiya komitəsinin orqanı "Başkortostan" qəzetinə redaktor təyin edirlər. O, redaktor işlədiyi illərdə savadsızlığın aradan qaldırılmasına, başqırdların yüzillər boyu istifadə etdikləri ərəb qrafikalı əlifbanın latın əlifbası ilə əvəzlənməsinə daha çox diqqət yetirir.

1926-ci ilin fevral-martında Bakıda keçirilən I Türkoloji Qurultaya Karim İdelqujin tək gəlmir. Əlifba və tədris məsələləri ilə ardıcıl məşğul olan Məcid Masaqutoviç Bilyalov, Qabdullah Fazliyeviç Vilqadanov, Xabibulla A. Kahiroviç Qabitov, Şərif Axmedoviç Manatov, Saqid Qubaydullin Miryasov, Zakir Şakiroviç Şakirov, Tatarıstandakı Kajur nəşriyyatının baş redaktoru Salah Sadri oğlu Ataqulovla birlikdə Bakıya gəlir. Qurultay çox gərgin keçir. Xüsusən Tatarıstandan gələnlər latın qrafikalı əlifbaya keçməkdənsə yüzillər boyu işlədilən ərəb əlifbasının islah edilərək türk dilləri üçün uyğunlaşdırılmasını tələb edirdilər.

Karim İdelqujin bu diskussiyalarda fəal iştirak edir, gənc Türkiyə Respublikasından gəlmiş professor Fuad Köprülüzadə, Əli bəy Hüseynzadə, eləcə də Türkiyənin Bakıdakı konsulu Ferid Xurşud və başqaları ilə yaxından tanış olur, Sovetlərin milli məsələdəki mövqeyini müzakirə edirlər.

Bakıda keçirilən I Türkoloji Qurultay Karim İdelqujində Sovet siyasətinə baxışda köklü dəyişikliklər yaradır. 1926-cı ildə çap etdirdiyi "1917, 1918, 1919-cu illərdə başqırd hərəkatı" kitabını yazıb çap etdirməkdə yanlışlığa yol

verdiyini anlayır. Bu kitab faktlar baxımından nə qədər zəngin olsa da sonradan Sovet xüsusi xidmət orqanlarının başqırd millətçilərinə və vətənpərvərlərinə divan tutmalarında da əvəzsiz informasiya mənbəyi olmuşdur.

1928-ci ildə Başqırdıstan Muxtar Sovet Sosialist Cümhuriyyətinin Maarif Naziri təyin edilən Karim İdelqujini 1930-cu ildə kommunist partiyası sıralarından çıxardır və həbs edirlər. Uzun və üzücü istintaqda onu millətçilikdə, antisovet təbliğat aparmaqda suçlayıb həbs edirlər. Dostlarının yardımı ilə onun üzərindən "vətənə xəyanət" ittihamı götürülsə də 5 il həbs cəzasına məhkum edilir.

Karim İdelqujin cəzasını çəkdikdən sonra onu bir daha rəhbər vəzifəyə yaxın qoymurlar. O, elmi-pedaqoji sahədə çalışır, araşdırmalar aparır. Sovetlərin Rusiyada yeritdiyi assimilasiya siyasətini davam etdirdiyini yazır. Elmi tədqiqat pedaqogika institutunda işləyəndə başqırdların yüzillər boyu davam etmiş ailə təliminin öyrənilməsinə xüsusi diqqət yetirir. Gənc kadrları da bu yönə istiqamətləndirir.

Bütün bunlara görə Karim İdelqujin üzərində təzyiqlər artır və təqib edilməyə başlanır. 1935-ci ildə yenidən həbs edilir. Lakin

bu həbs onu 1937-ci ilin kütləvi repressiyasından qurtara bilmir. Həbsxanada olsa da onu yenidən istintaqa cəlb edir və millətçilikdə, əksinqilabi fəaliyyətdə suçlayaraq 27 noyabr 1937-ci ildə güllələyirlər.

Karim İdelqujin vətənsevər və millətinə xidmət edən bir ziyalı olmuşdur. O, bolşeviklərlə birlikdə işləyəndə də həmişə millətini düşünmüş, imkanlardan millətinin xeyri üçün yararlanmağa çalışmışdır. Müticəsinə yuxarıdan gələn əmirləri yerinə yetirməmişdir. Elə buna görə idi ki, 1956-ci ildə Stalin şəxsiyyətə pərəstişdə suçlandıqdan sonra 1937-ci ildə həbs edilənlərin böyük əksəriyyətinə həmin illərdə fiziki bəraət verilsə də Karim İdelqujin bəraəti 1989-cu ilədək yubadıldı. Sovetlər Birliyinin çoküşü yaxınlaşdıqda başqırd xalqı vətənsevər Karim İdelqujinin bəraət almasına nail oldu.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il martın 19-da, saat 12.14-də efirə getmişdir.

KƏRİM TİNÇURİN



(tat. Кәрим Тинчурин, əski əlifba ilə كريم تينچورين, *rus. Карим Галиевич Тинчурин; 1887-1938)*

Kərim Qali oğlu Tinçurin 1887-ci il sentyabrın 15-də indiki Rusiya Federasiyası Penza quberniyası Demyan Bedni rayonunun Tarakan kəndində anadan olur. Kasıb ailədə doğulan Kərim ilk təhsilini kəndlərindəki ibtidai məktəbdə, yəni mollaxanada alır. 13 yaşında isə Kazan şəhərinə gedir və burada qabyuyan işləyir. Əldə etdiyi pulla 1900-cü ildə dövrün məşhur təhsil ocaqlarından "Muhammadiyə" mədrəsəsinə daxil olur. Lakin mədrəsədəki təhsil, təlim-tərbiyə yenilik həvəskarı, təhsildə və həyatda dəyişiklər istəyən yeniyetmə Kərim Tinçurini qane etmir.

Mədrəsədən çıxdıqdan sonra müxtəlif sahələrdə günəmuzd işləyən, müəllimlik edən və bədii yaradıcılıqla məşğul olan Kərim Tinçurin

yaradıcılığa şeirlə başlasa da, 1905-ci il inqilabının mətbuat, nəşriyyat üzərindəki nəzarətinin zəifləməsindən istifadə edərək "Mərcannar" adlı romanını çap etdirir. Avtobioqrafik "Mərcannar" romanında mədrəsə həyatı təsvir edilir.

"Mərcannar" Kərim Tinçurin ilk və son romanı olur. Kitabların, qəzet və jurnalların az oxunduğunu görən Kərim Tinçurin xalq kütlələrinə fikrini çatdırmağın ən münasib yolunun teatr olduğunu düşünür. Onun bu fikrə düşməsinə Kazanda keçirilən mitinqlərdə inqilabçıların alovlu çıxışlarının xalq kütlələri tərəfindən alqışlarla qarşılanması olur.

Kərim Tinçurin ilk səhnə əsəri olan "Mənzərə" adlı komediyasını 1906-cı ildə yazır. O dövrdə şəhərdə tatarların daimi fəaliyyət göstərən peşəkar teatrı yox idi. Sadəcə teatr həvəskarlarının səyyar bir qrupu vardı. Kərim Tinçurin də 1910-cu ildə bu qrupa üzv yazılır. Heç bir institutu bitirməyən, heç bir teatr məktəbində oxumayan, peşəkarlardan sənət dərsi almayan gənc fitri istedadı sayəsindən az vaxtda məşhurlaşır.

Kərim Tinçurinin səhnəyə gəlişi illərində tatar səhnəsində elə peşəkar aktyor və rejissor da

yox idi. Necə deyərlər, tatar teatrı yeni-yeni formalaşırdı. Tamaşaya qoymağa əsərlər də yox dərəcəsində idi. Buna görə də gənc aktyor səhnə əsərlərini də özü yazmalı olur. Səyyar truppada işə başladığı il "Dürüst əmək" komediyasını yazır. Fırıldaqla, başqalarının halal zəhmətini asan bildiyi yolla mənimsəməklə yaşamaq istəyənləri tənqid hədəfinə çevirən gənc dramaturqun əsəri uğurla qarşılanır.

Bundan ruhlanan Kərim Tinçurin bir-birinin ardınca "Qədər addımı", "İlk çiçəklər" pyeslərini yazır. Bu əsərlərdə yaşamından narazı, cəmiyyətdəki sıxıntılardan qurtulmaq istəyən insanların taleyi canlandırılır. "İlk çiçəklər" pyesində zəmanənin yaratdığı problemlərdən qurtula bilməyən tatar gənclərinin dövranı dəyişməyə can atdıqları və buna nail ola bilmədikləri təsvir edilir.

Kərim Tinçurin inqilabdan əvvəl yazıb səhnələşdirdiyi ən diqqətçəkən əsəri "Şıltaq kürəkən" komediyasıdır. 1916-cı ildə tamamladığı və səhnəyə qoyduğu, özü də baş rolunu oynadığı bu əsər böyük tamaşaçı kütləsi cəlb edir. Tatar ədəbiyyatının ən gözəl komediyalarından sayılan bu əsər müəllifin satira ustası kimi məşhurlaşmasına səbəb olur.

Çar Rusiyasının Birinci Dünya Savaşında məğlubiyyətə uğraması, ölkədə baş verən qarışıqlıq, çar II Nikolayın hakimiyyətdən uzaqlaşdırılıb Müvəqqəti Hökumətin qurulması, Müvəqqəti Hökuməti bolşeviklərin silah gücünə devirməsi tatar teatrının inkişafına da ağır zərbə vurur. Belə ki, Kazan şəhəri siyasi və hərbi qüvvələrin qarşıdurma meydanına çevrilmişdi. Hakimiyyət tez-tez dəyişirdi. Xalqın mədəniyyətlə maraqlanmağa vaxtı və həvəsi belə qalmamışdı. İnsanlar sağ qalmaq uğrunda mübarizə aparırdılar.

Belə ağır günlərdə, yəni 1918-ci ildə Kərim Tinçurini səyyar qruppaya rəhbər seçirlər. Onun rəhbərliyə gəlişi teatr truppasında önəmli dəyişikliyə səbəb olur. Tamaşa göstərilən günlər salonda boş yer tapılmır. Adamlar eyni tamaşaya bəzən dəfələrlə baxır. Buna səbəb aktyorların səhnədə olduqca inandırıcı və canlı oynamaları ilə yanaşı Tinçurinin xalq musiqisindən, folklordan bacarıqla istifadə etməsi olur. O, xalq musiqisindən istifadə edərək operettalar yazırdı.

Kərim Tinçurinin istər komediya, istər dram, istərsə də operetta yazarkən azərbaycanlı ədiblərinin və səhnə xadimlərinin yaradıcılığından bacarıqla istifadə edirdi. Onun yazdığı

və quruluşunu verdiyi operettalarda Üzeyir Hacıbəylinin təsiri açıq-aşkar hiss edilirdi.

Xüsusən bəstəkar Salih Saydaşevin səyyar truppa ilə əməkdaşlığa başlaması tatar teatrının inkişafına güclü təkan verdi. Kərim Tinçurinlə Salih Saydaşevin əməkdaşlığı olduqca uğurlu alınırdı.

Bolşeviklərin Kazanı işğalı və burada da möhkəmlənmələri tatar teatrına da öz təsirini göstərdi. Sovetlər təhsilə də, tərbiyəyə də, teatra da, musiqiyə də öz ideyalarını təbliğ etmək vasitəsi kimi baxırdılar. Odur ki, Kazanda 1922-ci ildə Tatar Dövlət Teatrı açıldı. Teatrın tamaşalar göstərməsi və truppa üzvlərinin məşq etməsi üçün bina ayrıldı. Aktyorlara, rejissorlara, rəssamlara, musiqiçilərə aylıq maaş təyin edildi. Ölkənin iqtisadi vəziyyəti ağır olsa da, tamaşalar üçün dekorlar, aktyorlar üçün geyimlər və s. hazırlanmasına vəsait ayrıldı. Artıq aktyorlar kəmiyyət dalınca qaçaraq ildə 70-80 rol oynamırdı. Tamaşaların sayı azaldıqca keyfiyyəti də artırdı.

Tatar Dövlət Teatrında Kərim Tinçurinin rejissorluğu ilə ildə 13-15 tamaşa hazırlanırdı. Aktyorlar rollarını əzbərlədiyindən suflyora da

ehtiyac qalmırdı. Teatr üçün peşəkar kadrların hazırlanması qayğısına qalınırdı.

Kərim Tinçurinin 1924-cü ildə yazdığı və səhnələşdirdiyi "Sönməz ulduzlar" tamaşasının mövzusu Birinci Dünya Savaşından alınmışdı. Çar ordusunun sıralarında döyüşə getmək istəyən gəncə sevgilisi əngəl olmaq istəyir. Sevdiyi oğlana təkidlə bildirir ki, bu savaşın tatar xalqına dəxili yoxdur. Bu savaş hakim təbəqənin dünyanı bölüşdürmək uğrunda mübarizəsidir.

1914-cü ildən müharibə şəraitində yaşayan, yüzlərlə övladını itirən, aclığa, xəstəliyə məhrum edilmiş xalqı müharibəyə nifrət ruhunda yazılmış bu əsəri alqışlarla qarşılayır. Tamaşa uzun müddət ara vermədən göstərilir.

Kərim Tinçurinin "Mavi şal", "Sönən ulduzlar", "Amerikan" və başqa əsərləri də alqışlarla qarşılanır. 1926-cı ildə "Mavi şal" əsəri tamaşaya qoyulanda Kərim Tinçurinə Tatarıstan Muxtar Sovet Sosialist Respublikasının Əməkdar artisti adı verilir.

Kərim Tinçurinə teatrda işləməsi üçün şərait yaradılsa da, onun əsərləri dövrü mətbuatda ideoloji baxımdan tənqid də edilirdi. Tənqidçilər sanki səhnədə sənət əsəri deyil, mitinqdə çıxış edən bir inqilabçı görmək istəyirdilər.

1936-cı ildə Kərim Tinçurinin səhnəyə gəlişinin 25 illiyi təntənə ilə Tatarıstanın bir çox şəhər və qəsəbəsində qeyd edildi. Tatarıstan Dövlət Akademik Teatrının baş rejissoru, aktyoru kimi onun haqqında nəinki ədəbiyyat və incəsənət xadimləri, dövlət adamları da xoş sözlər söylədilər, mükafatlar verdilər.

1937-ci ildə isə hər şey dəyişdi. Qəzetlərdə, rəsmi toplantılarda onu tənqid etməyə başladılar. Rejissorluqdan, aktyorluqdan başı çıxmayan birisi kimi onu işdən azad etdilər. 1937-ci ilin sentyabrın 16-da həbs edilən istedadlı hekayə ustası, dramaturq, rejissor və aktyor bir il iki ay işgəncəli istintaqa məruz qaldı.

1938-ci ilin noyabrın 15-də güllələnən Kərim Tinçurinə 1956-cı ildən sonra bəraət verilir. Adının əbədiləşdirilməsi üçün Kazandakı Dram və Komediya teatrına onun adını verirlər.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il oktyabrın 24-də, saat 12.14-də efirə getmişdir.

QALİ RƏXİM



(tat. Möxəmmədqali Möxəmmədşakir ulı Qabderəximov, əski əlifba ilə قالی راخیم , *rus. Мухаммедкали Габдрахимов; 1889-1943)*

Möxəmmədqali Möxəmmədşakir oğlu Qabderəximov 1889-ci il noyabrın 4-də tacir ailəsində doğulub. Əsasən Qali Rəxim kimi tanınan tanınan gənc o dövrün tanınmış elm ocaqlarından sayılan "Muhammadiyə" mədrəsəsində oxuyub. O, uşaqlıqdan elmə, ədəbiyyata maraq göstərsə də, valideynləri övladlarını tacir görmək istədiklərindən ticarət məktəbində oxumasını məsləhət görüblər.

Qali Rəxim də valideynlərinin istəyinin əksinə getməyib. 1905-ci ildə Kazandakı ticarət məktəbinə daxil olub. Orada ixtisas fənləri ilə yanaşı, bir neçə dil öyrənib, ictimai fənlərə böyük maraq göstərib. Təhsildəki uğurlarından, müəllimlərinin onu ruhlandırmasından ilhamlanaraq 1909-cu ildə yəni, 21 yaşında "Yer

coğrafiyası” kitabını çap etdirib. Bu kitabdan uzun müddət Rusiyadakı türk xalqlarının övladları dərslik kimi istifadə ediblər.

1913-cü ildə məktəbi bitirən Qali Rəximi valideynləri Moskvadakı Ticarət İnstitutunun iqtisadiyyat fakültəsində oxumağa göndərib. İlk məqaləsini “An”, yəni “Bilik” jurnalında çap etdirən gənc yazıçı ticarət institutunda oxumasına baxmayaraq, 1913-1915-ci illərdə babası Bikçəntəyin adını özünə ləqəb götürərək “Ak yol” jurnalında “Bikçəntəy uqlu” imzası ilə uşaq hekayələrini çap etdirir. Mövzusu xalq nağıllarından, lətifələrdən, məsəllərdən, dastanlardan alınan bu ibrətamiz hekayələr böyük maraqla qarşılanır.

Qali Rəxim institutun seçilən tələbələrindən olsa da, təhsilini başa vurmayıb. 1917-ci ildə Rusiyanı bürümüş qarışıqlığa görə məktəblərin çoxunda dərslər pozulmuşdu. Seçdiyi ixtisas ürəyindən olmadığına görə, Moskvadakı qarışıqlığı və atasının ölümünü bəhanə edərək Kazana qayıdır.

Kazan 1917-1921-ci illərdə ağır günlərini keçirirdi. Bölgə sanki döyüş meydanına çevrilmişdi. Şəhər gah bolşeviklərin, gah ağqvardiyaçıların, gah da üsyan qaldırmış çex

əsgərlərinin əlinə keçirdi. Tatar millətçiləri isə bölgədə öz dövlətlərini qurmaq istəyirdilər. Milli qüvvələr arasında fikir birliyinin olmaması, xüsusən də başqırd millətçiləri ilə aralarındakı fikir ayrılığı milli hökumətin yaranmasını əngəlləyirdi. Bolşeviklər və ağqvardiyaçılar da tatarları səfərbərliyə alaraq Türküstanda, Qafqazda, Kırımda, Sibirdə gedən daxili döyüşlərə göndərirdilər. Təsərrüfat dağıldığından bölgəni aclıq və xəstəliklər bürümüşdü. Bütün bunlara baxmayaraq, Qali Rəxim Kazana döndükdən sonra bədii yaradıcılığını davam etdirməklə yanaşı, ciddi elmi axtarışlara da başlayır. Bu işdə ona Kazan Universitetinin məzunu, sonralar uzun müddət Azərbaycanda işləmiş və 1937-ci repressiyasının qurbanı olmuş, tarixçi alim Əziz Ubaydullin yaxından kömək edir. Əziz Ubaydullinin həmin illər çap olunan məqalələrinin altındakı imzasını Qaziz Qubaydullin kimi yazır.

1914-cü ildə "Bağ qayğısı" pyesini yazan Qali Rəximin 1921-ci ildə çap olunan "İdil" povesti böyük qalmaqala səbəb olur. Onun Avropa tipli ilk tatar bəstəkarı sayılan Sultan Qabaşi ilə əməkdaşlığı da uğurlu alınır. Avropa mədəniyyətinin vurğunu olan hər iki ziyalı var

qüvvələri ilə tatarları avropalaşdırmağa çalışırdılar. Onların tatar bülbülü adlandırılan müğənni Qayşa Apanayevaya həsr etdikləri "Kukuşqa" romansı böyük uğur qazanır. Bu janr tatar ədəbiyyatında və musiqisində yeni idi. Qazanılmış uğur onları şəhərdə müsəlman gəncləri üçün ədəbi, musiqili gecələr təşkil etməyə həvəsləndirir. 1919-cu ildə Sultan Qabaş Qali Rəximin "Yanvar" komediyasına musiqi yazır. 1920-ci illərin ortalarında səhnələş-dirdikləri ilk tatar operası "Saniya" da böyük səs-küyə səbəb olur. Onlar mövzusu doğu ədəbiyyatından alınmış "Buz eqet" operasını yazmağı planlaşdırsalar da, buna nail ola bilmirlər.

Kazanda açılan pedaqoji kurslarda dərs deyən, 1920-1921-ci illərdə hərbi siyasi kurslarda tatar ədəbiyyatını tədris edən Qali Rəxim elmi axtarışlara da böyük maraq göstərir. Bölgələrə ekspedisiyalara gedir, folklor materialları, əlyazmalar toplayır, arxeoloji qazıntılar təşkil edir. Əldə etdiyi materiallar əsasında tatar ədəbiyyatına dair dəyərli məqalələr yazır.

1921-1922-ci illərdə elmlər akademiyasının Türk-tatar ədəbiyyatı və folkloru şöbəsinə

rəhbərlik edən Qali Rəxim 1922-1930-cu illərdə Dövlət Pedaqoji İnstitutunda dərs deyir və 1927-ci il oktyabrın 25-də onu dosent seçirlər. Doğu ədəbiyyatının klassiklərindən Hafiz Şirazidən, Ömər Xəyyamdan, Cəlaləddin Rumidən, Sədi Şirazidən, Rabindranat Taqordan tərcümələr edən, Qıylemeddin Şərəflə birlikdə "Balalar dünyası" seriyasından 50 cildlik kitab nəşrini planlaşdıran Qali Rəximə uşaq ədəbiyyatının inkişafındakı xidmətlərinə görə 1923-cü ildə "Qızıl güllər" mükafatını verirlər.

Sovet hakimiyyətinin ilk illərində respublikaların hamısında bir elmi cəmiyyət quruldu. Azərbaycanda Tədqiq Tətəbbö Cəmiyyəti adlanan bu təşkilatın "Azərbaycanı öyrənmə yolu" adlı jurnalı da nəşr edilirdi. Tatarıstanı Öyrənmə Cəmiyyətinin elmi katibi işləyən Qali Rəximi Kazan Universitetinin nəzdindəki Tarix, Etnoqrafiya və Arxeologiya Cəmiyyətinə də üzv seçirlər.

Qali Rəxim 1922-ci ildən Tatarıstan Xalq Maarif Komissarlığı nəzdindəki Elmi Mərkəzin nəşrə hazırladığı çoxcildli "Tatar Ədəbiyyatı kitabxanası" seriyasına daxil edilən əsərləri nəşrə hazırlayır, onlara ön söz və izahlar yazır. 1923-cü ildə nəşr etdirdiyi "Tatar ədəbiyyatı

tarixi üçün materialların toplanması yolunda bir təcrübə", eləcə də Qaziz Qubaydullinlə birlikdə 1923-cü, 1924-cü, 1925-ci illərdə nəşr etdirdiyi "Tatar ədəbiyyatı tarixi" kitabları, 1925-ci ildə çap olunan "Qaliəsgər Kamalın əsərlərinə ön söz" məqaləsi böyük maraqla qarşılanır.

Qali Rəxim 1927-ci ildə "17-ci yüzilliyə aid tatar abidələrinə dair yeni qaynaqlar", 1928-ci ildə "1878-ci il tatar kəndli hərəkatı", 1930-cu ildə "Tatarların 16-cı yüzillikdəki qəbirüstü yazıları" və "Tatar dilinin izahlı lüğətinin layihəsi" kimi məqalələrini çap etdirməklə elmi axtarışlara yeni yön vermiş oldu.

1930-cu ildə Tatarıstan İqtisadiyyatı İnstitutunda Tatar dili və ədəbiyyatı kabinetinə elmi katib təyin edilən Qali Rəximi dövrü mətbuatda kəskin tənqid etməyə başlayırlar. Onun folklorun əhəmiyyəti və toplanıb sistemləş-dirilməsi ilə bağlı hazırladığı "Kəndi öyrənək" proqram-sorğu kitabı millətçilik nümunəsi, burjua düşüncəsini təbliğ etmək kimi dəyərləndirilir.


Vladimir Leninin əsərlərini tərcümə edən, nəşrə hazırlayan heyətə üzvü olmasına baxmayaraq, 1931-ci ildə Qali Rəxim həbs edilir və beş illiyinə Ağ dəniz-Baltik Kanalının

tikintisində işləməyə göndərirlər. O, həbs müddətini vaxtından əvvəl başa vurub 1934-cü ildə Kazana dönür. Həmin il oktyabrın 21-dən Kazan Universitetinin elmi kitabxanasında Doğu əlyazmaları şöbəsində məsləhətçi vəzifəsinə başlayır. Lakin az sonra xüsusi xidmət orqanları onun humanitar sahədə işləməsini münasib saymır. 1935-ci il yanvarın 1-də onu işdən azad etdirirlər. 1936-cı ilin noyabrına kimi işsiz qalan Qali Rəximin gənclik illərində aldığı təhsil köməyinə gəlir. Onu Kazan Dövlət Bankında işə götürürlər. Lakin bu da çox uzun çəkmir. 1938-ci ildə yenidən həbs edərək istintaqa başlayırlar. 1943-cü ilin martın 3-də həbsxanada dünyasını dəyişən Qali Rəximinin adının çəkilməsi, əsərlərinin öyrənilməsi və təbliği qadağan edilir.

Sovetlərin bütün qadağa və qorxularına baxmayaraq, tatar xalqı vətənsevər oğlunu unutmur. Sovet hakimiyyəti devrildikdən sonra onun adını əbədiləşdirir, əsərlərini təbliğ edərək yayır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il mayın 9-da, saat 12.14-də efirə getmişdir.

MƏCİD QAFURİ



(başq. Məjit Ğafuri, rus. Маҗи́т Ғафури́, tat. Məjit Qafuri, tam adı − Qabdelmajit Nurqanieviç Qafurov; 1880-1934)

Əbdülməcid Nurqəni oğlu Qafuri 1880-ci ilin avqust ayının 1-də indiki Başqırdıstan Respublikasının Yelem-Karan kəndində müəllim ailəsində dünyaya göz açmışdır. Çar Rusiyası zamanında Yelem-Karan Sterlitamak qəzasının kəndlərindən biri idi. Bu qəza zamanında başqırd xalqı üçün istedadlı və vətənsevər övladlar böyütmüşdü. Başqırdlar Məcid Qafuridən və onun kimi sənətkarlardan söz açanda adlarının önündə sesen sözünü işlədirlər. Sesen sözü bizlərdəki ozan anlamında işlədilir. Əbdülməcid ilk təhsilini kənddə atası Nurqənin açdığı məktəbdə almışdır. Bu məktəblərə bizlərdə çox vaxt mollaxana deyirlər. Çünki burada, əsasən, ərəb əlifbası, Qurani

Kərim və dini-didaktik mətnlər öyrədilirdi. Təhsil sistemi elə qurulmuşdu ki, yaxşı oxuyan, proqramı vaxtında mənimsəyənlər məktəbə yeni gələn uşaqların dərslərini öyrənməsinə nəzarət edir, onlara yardımçı olurdular. Beləcə həm özləri öncələr öyrəndiklərini təkrarlamış olur, həm də pedaqoji təcrübə qazanırdılar. Əbdülməcid də məktəbin fərqlənən şagirdlərindən biri kimi, özündən sonra təhsilə başlayanlara dərslərini öyrənməkdə yardımçı olur.

Atası oğlunun məktəb proqramında öyrədilənlərlə yanaşı, dastan və nağılları, atalar sözlərini, xalq şeirlərini, mahnıların sözlərini yaddaşına həkk etdiyini gördükdə onunla qürur duyur. Oğlunu Üteş kəndindəki məktəbə oxumağa göndərir. Ancaq tale 13 yaşlı Əbdülməcidə gülmür. Atası, az sonra isə anası ölsə də, o, təhsilini davam etdirir. 1898-ci ildə piyada 450 kilometr yol gələrək Orenburq vilayətinin Troitsk şəhərindəki Zeynulla İşanın mədrəsəsinə daxil olur. O dövrdə bu mədrəsə bölgənin ən yaxşı təhsil ocağı sayılırdı. Əbdülməcid mədrəsədə oxuduğu illərdə qızıl mədənlərində də işləməklə yanaşı, Troitskdəki varlı tatar və başqırdların, eləcə də yay tətilləri günlərində köçəri qazaxların uşaqlarına dərs

deməklə dolanışığını təmin etmişdir. Troitskdə türk, ərəb, fars və rus dillərini dərindən öyrənən gənc Əbdülməcid Şərq ədəbiyyatı, tarix, coğrafiya sahəsindəki biliklərini artırdı. "İşanın şagirdlərinə" adlı ilk şeirini də 1902-ci ildə burada yazdı.

Kasıblığın doğurduğu ağrı-acılar Əbdülməcid yaradıcılığına və ömür yolunu müəyyənləşdirməyə güclü təsir edir. Sosyal ədalət, bərabərlik süarı ilə meydana atılan kommunistlərə qoşulur. Həyatını varlılara, imkanlı adamlara qarşı mübarizəyə həsr edir. Hətta sevimli müəllimlərini belə başqalarının əməyini mənimsəməkdə, ədalətsizlikdə, kasıblara, imkansızlara yardım etməməkdə ittiham edir.

"İşanın şagirdlərinə" adlı ilk şeirində oxuduğu mədrəsəni tənqid etdiyinə görə qaldığı hücrəni tərk edib şəhərdə ev kirələməli olur. 1902-ci ildə "Dilənçiliklə keçən ömür' adlı ilk hekayəsini yazan Əbdülməcid 1904-cü ildə Kazana gələrək buradakı "Muhammadiyə" mədrəsəsində oxuyur. Kazanda oxuduğu illərdə tatar alimi və maarifçisi Qəyyum Nəsirovla, başqırd yazıçısı Məhəmməd Səlim Ümidbayev ilə, daha sonralar Abdulla Tukayla tanış olur. 1906-cı ildə Ufaya gələn Əbdülməcid buradakı

“Qaliyə” mədrəsəsində təhsilini davam etdirir. “Sibir dəmir yolu və ya millətin vəziyyəti”, “Dilənçiliklə keçən ömür” adlı kitablarını çap etdirir. Mədrəsədə aldığı təhsilin təsirilə didaktik, öyüdverici şeirlər yazan Əbdülməcid 1905-1907-ci illərdə Rusiyada yaranmış qarışıqlıqdan ruhlanaraq məmurları, hökümətin yeritdiyi siyasəti kəskin tənqid edən əsərlərini yazır. Şair “Zamanı gəldi”, “İki quş”, “Müstəqilliyin əhəmiyyəti”, “Dəyişim”, “1906-cıı ilin 1907-ci ilə vəsiyyəti”, “1907-ci ilin cavabı” kimi şeirlərində, ‘Qıtlıq ili və ya satılan qız” hekayəsində qiyamçı fikirləri az qala şüar kimi səsləndirir. Hökumət mövqelərini möhkəmlətdikdən sonra onu devirmək istəyən, inqilabi və qiyamçılıq əhval-ruhiyyəsi təbliğ edənləri cəzalandırmağa başlayır. Beləcə, Əbdülməcid də məhkəməyə cəlb edilir və onun “Gənc ömrüm”, “Millətə sevgim” şeir kitabları, “Yetim uşaqlar” hekayə kitabı müsadirə edilir. Məcid Qafuri vəziyyətin ciddiləşdiyini, onu həbs edəcəklərini gördükdə tatar şairi Mirayaz Uqmasi ilə birlikdə polis nəzarətindən yayınaraq Qazax çöllərinə gedərək köçəri heyvandarlar arasında gizlənirlər. Məcid Qafuri ara sakitləşdikdən sonra Qazax çöllərindən yenidən

Ufaya qayıdır. Təhsilini davam etdirir. 1909-cu ildə "Qaliyə" mədrəsəsini bitirir. Məcid Qafuri bu zaman artıq xeyli məşhurlaşmışdı. Onun şeir və hekayələri oxucular arasında böyük rəğbət qazanmışdı. Bunun bir səbəbi əsərlərindəki üsyankar ruh idisə, ikinci bir səbəbi də sadə başqırd kəndlilərinin anlaya biləcəyi bir dildə yazması idi. Məcid Qafuri cəmiyyətdəki nöqsanları satirik bir dillə tənqid etmək əvəzinə bəzən həcvə keçir, ayrı-ayrı şəxsləri təhqir etməkdən belə çəkinmirdi. Bu şəxslərin bir çoxu da xalq arasında nüfuzu olan, xeyriyyəçilikləri ilə tanınan başqırd, tatar iş adamları, var-dövlət sahibləri idi. 1912-ci ildən Məcid Qafuri "Şərq" mətbəəsində düzəltmən, yəni korrektor işləməyə başlayır və 1919-cu ilədək burada işləyir. Polis təqibi, təzyiqlər isə ara vermir. O, millətini azad və xoşbəxt görmək istəyirdi. Lakin xalqını Rusiya əsarətindən qurtarıb azad və xoşbəxt görmək istəyən soydaşlarına qarşı da sərt mövqe tuturdu. Çünki istəyirdi hamı onun kimi üsyan, əsaslı dəyişikliklər, inqilab yolunu tutsun. İslahat və marifçiliklə xalqını azad və xoşbəxt görmək istəyənlərə az qala düşmən, xəyanətkar kimi baxırdı. Hətta Əhməd Zəki Vəlidi Togan kimi ömrünü millətinin azadlığına həsr etmiş

birisinin əleyhinə çox sərt çıxışlar edir, şeirlər yazırdı. Məcid Qafurinin Birinci Dünya Savaşı illərində yazdığı bir çox şeirlər imperializm, müstəmləkəçilik əleyhinə yazılmış mübariz əsərlərdəndir. Məcid Qafuri siyasətdən uzaq, icimai-siyasi vəziyyəti vaxtında və düzgün qiymətləndirə bilməyən çılğın bir şair idi. Bu səbələ o, inandığı əqidə uğrunda son nəfəsinə qədər mübarizəsini davam etdirmişdir. Məcid Qafuri 1917-ci ilin oktyabrında baş verən silahlı çevrilişi böyük ruh yüksəkliyi ilə qarşılayır. Leninə, Stalinə, sosializm quruculuğuna həsr etdiyi şeirləri ilə Sovetlərin coşğun tərənnümçüsü olduğunu bir daha təsdiq edər. "Qəlbimə", "Müstəqillik günləri", "Çevriliş", "Müstəqillik şərəfinə", "Burax quşquları və qorxuları!" kimi şeirləri Sovet rəhbərlərinin diqqətini cəlb edir. Onlar 1923-cü ildə Məcid Qafurinin ədəbiyata gəlişinin 20-ci ildönümü münasibətilə təntənəli yubiley tədbirləri keçirir və ona Başqırdıstanın Xalq Şairi adı verirlər. Təntənəli yübiley tədbirlərini, fəxri adları maddi təminatla möhkəmləndirirlər. Yüksək maaş təyin etməklə yanaşı, ona bir inək də bağışlayırlar. Həmişə maddi çətinliklər içərisində yaşamış şair bu mükafatlardan ilhamlanaraq "Yolumuz",

“Ver əlini”, “And”, “Dalğalansın qızıl bayraq”, “Hesablaşma günü”, “İgid tatara” şeirlərini, 1924-cü ildə Leninin ölümünə “Matəmin əks-sədası” və “O ölmədi” şeirlərini yazır. 1924-1929-cu illərdə tatarca nəşr olunan “Yeni kənd” qəzetində işləyən Məcid Qafuri başqırd ədəbiyyatında təmsil janrının əsasını qoymaqla yanaşı, 1926-ci ildə “Qızıl ulduz’ dramını yazır. Onun 1927-1928-ci ildə yazdığı “İşçi” poeması əsasında yaradılan opera, Kazanda Tatar Akademik Teatrında uğurla səhnəyə qoyulmuşdur. Məcid Qafuri bir çox başqırd xalq qəhramanlıq dastanlarını, mifoloji mətnləri, nağılları, xalq şeirini toplayaraq onları ədəbi yöndən cilalamışdır. 1934-cü il oktyabrın 28-də dünyasını dəyişən Məcid Qafuri Ufa şəhərin mərkəzindəki A.Motrosov adına parkda dəfn edilmişlər. 1948-ci ildə ömrünün son 11 ilində yaşadığı mənzili Qafuri ev-muzeyinə çevrilmiş, 5 metr yüksəkliyində heykəli ucaldılmışdır. Başqırdıstandakı bir çox elm və mədəniyyət mərkəzinə, o cümlədən, Rusiya Elmlər Akademiyası Ufa filialının Dil, ədəbiyyat və tarix institutuna, doğulub böyüdüyü rayona, bəzi məktəblərə, Ufada və başqa şəhərlərdəki prospekt və küçələrə Qafurinin adı verilmişdir.

Məcid Qafuri ideoloji yönə üstünlük verən bir ədib olsa da, o, başqırd ədəbi dilinin zənginləşməsində, başqırd ədəbiyyatının inkişafında xidmətlərinə görə daima xatırlanacaqdır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cu il iyulun 1-də, saat 12.14-də efirə getmişdir.

MİRSƏET SULTAN-QALİYEV



(tat. Mirsəit Xəydərqali ulı Soltanqaliyev, rus. Мирсаи́д Хайдаргали́евич Султа́н-Гали́ев; 1892-1940)

Mirsəet Heydərqali oğlu Sultan-Qaliyev 1892-ci il iyulun 13-də indiki Rusiya Fedarasiyasının Başqırdıstan Respublikasındakı Kırımsakal qəzəbəsi yaxınlığındakı Elimbetov kəndində anadan olub.

Qərb tarixçilərinin "müsəlman Trotskisi", bəzən "üçüncü Dünya inqilabının atası" adlandırdıqları Mirsəet Sultan-Qaliyev (1892-1940) 20-ci əsrin əvvəllərində bolşevizmlə təmas quran tatar siyasətçiləri arasında yüksək intellekti, nəzəri hazırlığı və tribunluq xüsusiyyətləri ilə seçilirdi. Milli məsələyə rəsmən problemin bilicisi sayılan Stalindən qat-qat yaxşı bələd idi. Ən başlıcası isə Stalin kimi bürokratik zorakılıq və yeni müstəmləkəçilik

yolu tutmaq niyyətində deyildi. Türk-müsəlman xalqlara daha həssas, diqqətli münasibət tələb edirdi. Onların tarixi inkişaf xüsusiyyətlərinin və milli özünəməxsusluqlarının nəzərə alınmasını, dillərinə və dinlərinə hörmət qoyulmasını zəruri sayırdı. Bu müstəvidə də Stalinlə qarşı-qarşıya gəlməli olmuşdu.

Haşiyə çıxaraq qeyd etməliyəm ki, 1914-1917-ci illərdə Bakıda yaşayan Mirsəet Sultan-Qaliyev müəllimlik fəaliyyəti ilə yanaşı həm də Kilkəbaş və Mirsəid təxəllüsləri ilə "Kavkazskoe slovo", "Kavkazskaya kopeyka", "Baku" qəzetlərinin fəal müəlliflərindən biri kimi tanınırdı. Fevral inqilabından sonra o, rus dilində "Bakı müsəlman ictimai təşkilatlarının xəbərləri" ("İzvestiya Bakinskix musulmanskix obşestvennıx orqanizasiy") qəzetinin təsisçiləri sırasında yer aldı. Azərbaycanlı siyasətçilərin bir çoxunun birləşdiyi həmin siyasi təşkilatın rəhbəri Ə.Topçubaçov idi. Bakıda yaşadığı illərdə M.Sultan-Qaliyev "Müsavat" partiyasının qurucusu M.Ə.Rəsulzadə ilə yaxın əlaqələr saxlayırdı.

Parlaq zəkası, intellekti və enerjisi ilə Stalini kölgədə qoyan tatar bolşevikinə qarşı təqiblər 1920-ci ildə başladı. Həmin il onun – Rusiya

K(b)P MK yanında Şərq xalqları kommunist təşkilatları Mərkəzi bürosu sədrinin Bakıda keçirilən Şərq xalqlarının I qurultayında iştirakına imkan verilmədi. 1923-cü ildə isə artıq əlində kifayət qədər hakimiyyət toplayan Stalin rəqibinin həbsinə nail oldu. Tanınmış sovetoloqlar A.Benninqsen və Ş.Lemerje-Kelkeje Sultan-Qaliyevi Stalinin "ilk ovu" adlandırırlar. Sonralar özləri də "xalqlar atasından" biri-birindən sarsıdıcı zərbələr alan L.D.Trotski və L.V.Kamenev 1920-ci illərin əvvəllərində, yetərincə nüfuz və tərəfdarlara malik olduqları dövrdə Stalinə Sultan-Qaliyevin "qanını dadmağa" imkan verdikləri üçün özlərini qınayırdılar.

1923-cü ildən sonra dəfələrlə həbs edilən, iki dəfə ölüm kamerasında faciəli aqibəti gözləyən M.Sultan-Qaliyevin əzablarla dolu həyatına haqqında çıxarılan ikinci ölüm hökmünün 1940-cı ilin yanvarında yerinə yetirilməsi ilə son qoyuldu. O, dünya siyasi tarixinə "İslam marksizmi" nəzəriyyəsinin müəllifi kimi daxil oldu. Rus tarixçisi, professor R.Q.Lanqanın fikrincə, "dünya miqyaslı ictimai mütəfəkkir" və "İslam xalqlarının azadlıq hərəkatının görkəmli nəzəriyyəçisi" M.Sultan-

Qaliyev zorakı yolla siyasi həyatdan təcrid edilməsəydi, fikir və təklifləri nəzərə alınsaydı, bəlkə də gələcəkdə bir çox bəlaların, o cümlədən Sovet İttifaqının süqutunun, radikal İslam hərəkatının qarşısını almaq mümkün ola bilərdi.

Mirsəet Heydərqali oğlu Sultan-Qaliyev 1892-ci il iyulun 13-də müəllim ailəsində doğulub. Onun Rusiyanın işğal etdiyi türk torpaqlarında yaratdığı Ufa quberniyasının Elimbetov və ya Karmaskalı kəndində anadan olduğunu yazırlar. İndi bu bölgə Başqırdıstan Respublikasının Strelibaş rayonuna daxildir.

Uzun müddət adı və əsərləri qadağan edilən, bəzən isə tənqid hədəfi kimi çəkilən Mirsəet Sultan-Qaliyev haqqında SSRİ dağıldıqdan sonra çox yazırlar. Bu yazıların böyük əksəriyyəti də onun ideyasına həsr edilir. Ömür yolunun öyrənilməsi arxa planda qalır. Buna görə də uşaqlıq və gənclik illəri haqqında geniş bilgiyə az rast gəlinir.

Qaynaqların verdiyi bilgiyə görə ilk təhsilini atasından alıb. 1907-1911-ci illərdə Kazan şəhərindəki müəllimlər seminariyasında oxuyb. Sonra da Başqırdıstanda, Orenburqda müəllim işləyib. Lakin orada qox qalmayıb. Gündən-günə sürətlə inkişaf edərək sənaye və

mədəniyyət şəhərinə çevrilən Bakıya köçüb. Onun Azərbaycana gəlişi, Bakıdakı fəaliyyəti geniş öyrənilməyib. Çox vaxt 1905-ci ildən sonra Bakıya gəldiyini, burada tatar məktəbində işlədiyini yazırlar. Həmin illərdə nəinki Bakıda, Qafqazın hər yerində müsəlmanların açdıqları məktəblərin əksəriyyəti rus-tatar məktəbləri adlanırdı. Buna görə də bilmək olmur ki, Mirsəet Sultan-Qaliyev yerli ziyalıların açdığı məktəbdə dərs deyib, yoxsa Kazan və Volqaboyu tatarların açdığı məktəblərdə.

Bakıda olarkən müəllim, kitabxanaçı işləməklə yanaşı, qəzetlərə məqalələr yazan Mirsəet Sultan-Qaliyevin dünyagörüşü "inqilab beşiyi" adlandırılan Bakıda formalaşıb. Millətlərin əsarət altına alınmasından, kapitalistlərin istismarından, imperializmin sömürgəçilik siyasətindən narazı qalan Mirsəet Sultan-Qaliyev sosialistlərlə bir mövqedə durub. İnqilabçılarla sıx əlaqədə olan gənc müəllim Məhəmməd Emin Rəsulzadə, Nəriman Nərimanov və başqaları ilə tanış olub.

1917-ci il fevral burjua inqilabından sonra Sankt Peterburqa gedən Mirsəet Sultan-Qaliyev ardıcıl siyasi fəaliyyətlə məşğul olub. May ayında Moskvada keçirilən Ümumrusiya

Müsəlmanları Qurultayında rəhbər heyəti olan Milli Şuraya seçilib. Lakin qurultay iştirakçılarının əksəriyyətinin mövqei ilə razılaşmayıb. Bolşeviklərin "dünya inqilabı" nəzəriyyəsi ona daha cəlbedici gəlib. Odur ki, 1917-ci ilin iyulunda Kazan şəhərinə gəlib. Burada Mollanur Vaxidovla Müsəlman Sosialist Komitəsini qurur və onun İcraiyyə Komitəsinə katib seçilir. 1917-ci ilin noyabrında isə bolşeviklərin sırasına qoşulur.

İctimai-siyasi həyatda fəallığını, təşkilatçılıq baçarığını, bolşeviklərin cərgəsində müsəlmanların azlığını nəzərə alıb Mirsəet Sultan-Qaliyevi Rusiya Xalq Millətlər Komissarlığında Milli Məsələlər bölməsinə rəhbər təyin edirlər. Komissarlığın katibi vəzifəsinə isə türk kommunisti Mustafa Sübhü təyin edilir.

Mirsəet Sultan-Qaliyev komissarlıqda işləyərkən burada müxtəlif xalqlardan olan bolşeviklərlə görüşür, gələcək mübarizə yollarını müəyyənləşdirməyə çalışır. Onlar 1918-ci il 10-16 may tarixində Moskvada Tatar-Başqırd Sovet Respublikasının Qurucu Məclisnə hazırlıq toplantısının keçirilməsinə nail olurlar. Əhməd Zəki Vəlidi Toğan, Sədri Maqsudi Arsal, Əli xan Bökeyxanov və başqaları isə milli

muxtariyyat statusunda qurduqları hökumətlərin Sovet rəhbərliyi tərəfindən tanınmasını istəyirdilər. Mirsəet Sultan-Qaliyev bunu türk-müsəlman xalqların bölünməsi kimi qiymətləndirirdi. O, yalnız Rusiya işğalı altında əzilən müsəlman xalqlarının deyil, Şərq xalqlarının birlikdə imperializmə qarşı mübarizəsini planlayırdı. O, elə düşünürü ki, dünya inqilabı ideyasını ortaya atmış sosialistlər bu işdə əzilən Şərq xalılarının ən yaxın köməkçisi olacaqdır. Odur ki, Rusiya əsarəti altında olan müsəlman xalqlarının milli azadlıq mübarizəsini qətiyyən qəbul etmirdi. Onlara qarşı çox sərt davranırdı. Bu qarşıdurma isə bolşeviklərin işinə yarayırdı.

Bolşeviklər ağqvardiyaçıların və çex üsyançılarının Şərqdən hücumlarının qarşısını ala biləcək gücdə deyildilər. Bundan yararlanan türk – müsəlman xalqları da milli silahlı dəstələr yaradıb öz müxariyyatlarını elan edirdilər. Belə gərgin bir vəziyyətdə bolşeviklərə Mollanur Vahidov, Mirsəet Sultan-Qaliyev, Nəriman Nərimanov kimilərinə böyük ehtiyacları vardı. Bolşeviklərin yardımı ilə 1918-ci il mayın 2-də Mollanur Vahidovun rəhbərliyi altında Mərkəzi Müsəlman Hərbi Şurası quruldu. Müsəlman

Qızıl Ordusunun təşkilatlanması vəzifəsi Mirsəet Sultan-Qaliyevə tapşırılır. O, Beşinci Qızıl Ordunun yüzdə yetmiş beşini təşkil edən Tatar-Başqırd Taburlarını və Müsəlman Qızıl Alayını təşkil edə bilir. Bununla da nəinki milli qüvvələrin parçalanmasına, həm də bir-birinə qarşı savaşmasına şərait yaradır.

Ağqvardiyaçılar və əsirlikdən qurtulub evlərinə getmək istəyən çex əsgər və zabitləri 1918-ci ilin avqustunda Kazan şəhərinə hücum etdilər. Bolşevik əsgəri birlikləri onların hücumunun qarşısını ala bilmir. Həmin vaxt Moskvada olan Mollanur Vahidov Tatar Qızıl Alayının başına keçərək Kazana yollanır və döyüşlərdə əsir düşərək edam edilir. Mollanur Vahidov və yüzlərlə tatar, başqırd, çuvaş, qazax, qırğız döyüşlərdə həlak olsa da, ağqvardiyaçılar və çexlər geri oturdulur.

Mollanur Vahidov və Mirsəet Sultan-Qaliyev 1918-ci il iyun 17-20-də Kazanda Müsəlman Bolşeviklərin Bütün Rusiya Konqresini keçiridilər. Müstəqil dövlət qurma istəyinin müzakirə edildiyi bu konqresdə Mirsəet Sultan-Qaliyev bütün türk və müsəlman xalqların Birləşmiş Cəbhədə bolşeviklərilə birlikdə mübarizəsinin vacibliyini irəli sürür və

millətçilərin federal dövlət yaratmaq ideyasına qarşı çıxır. Onu fikrincə kiçik dövlətlər çox asanlıqla imperializmin təsir dairəsinə düşə bilərdi.

Bolşeviklər zəif olduğundan özlərini demokrat kimi göstərir, bu cür toplantılarda millətçilərin çıxışlarına da mane olmurdular.

Mirsəet Sultan-Qaliyevdən bolşeviklər yalnız döyüşlərdə, dövlətin möhkəmlənməsində, idarəetmədə istifadə etmirdilər. Ondan həm də danışıqlarda istifadə edilirdi. Xalqlara azadlıq, müstəqil dövlətlərini qurmaq vədləri ilə onu müsəlman-türk liderlərilə danışıqlara göndərirdilər. O, Leninin, Stalinin, Trodskinin vədlərinə inanırdı. Çünki Sovet hakimiyyətinin ilk illərində elə bir görüntü yaratmışdılar ki, Mirsəet Sultan-Qaliyev hökumətin idarəedilməsində guya 3-4-cü adamdır. Milli məsələ haqqında fikirləri mətbuatda özünə geniş yer tapır, toplantılarda fikirlərini müzakirəyə çıxarırdı.

1918-1919-cu illərdə Milli Məsələ üzrə Xalq Komissarlığı yanındakı Mərkəzi Müsəlman Hərbi Kollegiyasının sədri olan Mirsəet Sultan-Qaliyevi Başqırd Resbublikasının rəhbərləri ilə danışıqlara göndərirlər. O, Leninin, Stalinin, Trotskinin istəklərini yerinə yetirərək başqırdları

dinc yolla Rusiyanın tərkibinə daxil olmağa razı salır. Bu razılıqdan sonra başqırd hərbçilərinə, ziyalılarına, dinc əhaliyə qarşı terror başlayır. Bunu Mirsəet Sultan-Qaliyev inqilab naminə quban kimi dəyərləndirir.

1920-ci ilin sentyabrında Bakıda Şərq Xalqlarının I Qurultayının çağrılmasında Mirsəet Sultan-Qaliyevin də rolu böyük olur. Qurultay bolşeviklərin istədiyi nəticəni vermədiyinə görə Rusiyadakı müsəlman kommunistlərinin çoxunun istəyinə baxmayaraq II qurultayın çağrılmasına icazə verilmir.

1919-1921-ci illərdə Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi yanında Şərq xalqları Kommunist Təşkilatları Mərkəzi Bürosuna sədrlik edən, dünya üçün komminist kadrlar hazırlayan ali təhsil ocağında dərs deyən Mirsəet Sultan-Qaliyev toplantılarda bəzən Leninə, Stalinə qarşı da durur. Lakin onun bu cəsarətli hərəkəti çox da uzun sürmür. 1923-cü il sentyabrın 17-25-də Moskvada keçirilən Rusiya Kommunist (bolşeviklər) Partiyasının 12-ci Qurultayındakı çıxışı müsəlman-türk kommunistləri tərəfindən alqışlarla qarşılansa da, “Sultan-Qaliyevin işi” deyilən bir cinayət işi

açılır və onu Lyubyanka həbsxanasına göndərirlər.

Türk-müsəlman kommunistlərinin, eləcə də demokratik fikirli bolşeviklərin təziqi ilə Mirsəet Sultan-Qaliyev həbsdən azad edilsə də, ona qarşı təzyiq və təqiblər azalmır. Onu və onun ətrafındakı onlarla türk-müsəlman kommunistini 1928-ci ildə həbs edərək Solovkiyə göndərirlər. Bu dəfə onu hökumətdə yüksək vəzifə tutan dostları Nəriman Nərimanov, Turar Rıskılov və başqaları da qurtara bilmir.

Aldadılmış Mirsəet Sultan-Qaliyev minlərlə türk-müsəlmanın döyüşlərdə öldürülməsinə səbəb olduğu kimi, yüzlərlə insanın da həbsinə bais olmuşdu.

1934-cü ildə onu həbsdən vaxtından əvvəl azad edib Saratova sürgün edirlər. Bu Sovet rəhbərliyini heç də qane etmir. Onu 1937-ci həbs edib uzun sürən istintaqdan sonra 1940-cı il yanvarın 28-də güllələyirlər.

Mirsəet Sultan-Qaliyev güllələnsə, adının çəkilməsi, əsərlərinin nəşri qadağan edilsə də, onu dünya kommunist hərəkatının liderlərindən biri, imperializmə, müstəmləkəçiliyə qarşı mübariz kimi tanıyırlar. SSRİ dağıldıqdan sonra repressiyaya məruz qalanlar arasında haqqında

ən çox danışılan, ən çox yazlıanlardan biri də Mirsəet Sultan-Qaliyev oldu.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il mayın 12-də, saat 12.14-də efirə getmişdir.

MUSA CƏLİL



(tat. Musa Mostafa ulı Cəlilev, əski əlifba ilə **موسا جليل**, *rus. Муса Джалил; 1906-1944)*

Musa Mostafa oğlu Cəlilov 1906-cı il fevralın 15-də Orenburq vilayətinin Şarlık rayonundakı Mostafa kəndində anadan olub. İlk təhsilini kəndlərindəki mollaxanada alan Musa 1914-1917 illərdə Orenburqdakı Hüseyniyə mədrəsəsində oxuyub. 9 yaşında şeir yazmağa başlayan şairin ilk şeiri 1919-cu ildə "Qızıl yıldız" adlı cəbhə qəzetində çap olunub. Bundan sonra gənc Musa davamlı olaraq qəzetlərdə şeirlərini nəşr etdirməyə başlayıb.

1919-cu ildə komsomola daxil olub və Sovetlər Birliyi zamanında vətəndaş müharibəsi adlandırılan, bolşeviklərlə ağqvardiyaçılar arasında gedən savaşda bolşeviklərin sıralarında olub. Savaşdan sonra 1922-ci ildə Tatarıstanın

paytaxtı Kazan şəhərinə gəlib. Burada qəzetdə işləməyə başlayıb.

1923-1925-ci illərdə Tatar İşçiləri Fakültəsində oxuyub. Bolşeviklərin vədlərinə və şüarlarına ürəkdən inanan Musa Cəlil Sovet quruluşunun coşqun ideoloquna çevrilib. 1925-ci ildə onun tərənnüm şeirləri toplusunu "Biz gedirik" adı altında çap etdiriblər. Elə həmin il onu Orenburq komsomol komitəsinə işə göndəriblər.

İki il Orenburq və Orskidə komsomol işində çalışan şair 1927-1931-ci illərdə Moskva Dövlət Universitetinin Ədəbiyyat fakültəsində oxuyub. Moskvada oxuduğu illərdə komsomolun mərkəzi komitəsinin orqanı olan "Kiçik qardaşlar", "Oktyabr balaları" jurnallarına redaktorluq edib. 1929-cu ildə şairin "İptäşka" şeir kitabı çap olunub.

1933-1934-cu illər arasında Moskvadakı "Kommunist" qəzetinin ədəbiyyat və incəsənət şöbəsinə rəhbərlik edən Musa Cəlilin "Ordenli milyonnar" şeir kitabı çap edilib. 1935-ci ildə o, Moskva Dövlət Universitetində açılan Tatar Opera Studiyasına işə dəvət edilib. Studiya 1938-ci ildə Tatarıstana köçürüləndə Musa Cəlil də Kazana gəlib və ədəbi hissə müdiri

vəzifəsində işləyib. Tatar Opera Studiyasında işlədiyi müddətdə 4 libretto yazıb.

İşğüzarlığı və istedadı ilə seçilən şairin Sovet ideologiyasına sədaqətlə xidmət etdiyini görən rəhbərlik onu 1939-cu ilin iyulunda Sovetlər Birliyi Yazıçılar İttifaqının Tatarıstan şöbəsinin katibi seçdirib. Şairin 1940-cı ildə yeni şeirlər kitabı çap olunub. 1935-1941-ci illərdə yazdığı "Altunsaç", 1940-cı ildə tamamladığı "İldar" librettolarını Tatarıstan Dövlət Opera Balet Teatrına təhvil verib ki, səhnələşdirsinlər.

Musa Cəlilin şairliyi ilə yanaşı, rəssamlıq qabiliyyəti də olub. Musiqi istedadı libretto yazmasında ona çox kömək edib. O, bəzi şeirlərinə xalq mahnılarının üslubunda mahnılar da yazıb. Partiya-sovet məmurları Musa Cəlilin timsalında tatarlar arasında sosializmin yorulmaz və istedadlı bir təbliğatçısını tapıblar. O, kommunist partiyasının üzvü kimi də fəal ictimai-siyasi iş aparıb.

Lakin İkinci Dünya Savaşı Musa Cəlilin həyat yolunu tamam dəyişib. Almaniya Sovetlər Birliyi ilə savaşa başlayan kimi Tatarıstan Yazıçılar İttifaqına rəhbərlik edən və Tatarıstan

Dövlət Opera Balet Teatrında ədəbi hissə müdiri işləyən Musa Cəlil də səfərbərliyə alınıb.

Onu Leninqrad yəni Sankt-Peterburq cəbhəsinə göndəriblər. 1941-ci ilin yayından Musa Cəlil "Otvaqa" (İgidlik) cəbhə qəzetində hərbi müxbir kimi fəaliyyətə başlayıb. Onun əsgər və zabitləri ruhlandıran, yenilməz Sovet əsgəri obrazı yaradan məqalələri qəzetin hər nömrəsində çap olunub. Sovet əsgəri birliklərinin alman orduları qarşısında duruş gətirə bilməyərək sürətlə geri çəkilməsinə, hər gün minlərlə itki verməsinə, şəhər və kəndləri tərk edərək çəkilməsinə baxmayaraq, Musa Cəlilin məqalələrində Sovet əsgər və zabitləri qəhrəmanlıq göstərib, qalib gəliblər.

Musa Cəlilin qalib kimi təsvir və tərənnüm etdiyi Sovet Ordusu 1942-ci ildə Voloxov cəbhəsində ağır itki verərək şairi yaralı halda və hərbi müxbiri də səngərdə qoyub geri çəkilib. Beləcə, Musa Cəlilin əsirlik, ailəsinin və qohumlarının isə işgəncəli, tənəli həyatı başlayıb.

Musa Cəlil də onunla birlikdə əsir düşən bir çox əsgər və zabitlərlə birlikdə Şpandau düşərgəsinə göndərilib. O, həqiqi ad və familyasını gizlədərək başqa bir familya –

Qumerov familiyası ilə özünü qeyd etdirib. Buna görə də onun əsirlik həyatı olduqca qarışıq və dolaşıqdır. İkinci Dünya Savaşının sona çatmasından 75 ildən çox keçməsinə baxmayaraq Musa Cəlilin əsirlikdəki fəaliyyətinə aydınlıq gətirmək olmur.

Sovet hakimiyyəti illərində onun əsirlikdən qaçaraq partizan hərəkatına qoşulduğunu yazıblar. 1945-1946-cı illərdə Sovet xüsusi xidmət orqanı KQB-nin istintaq materiallarına dayanan araştırıcılar isə Musa Cəlilin Polşadakı Edlino düşərgəsində olduğunu, Almaniyanın tatar-başqırd əsirlərdən Sovetlərə qarşı hazırladığı "İdil-Ural" ərgəri birliyində xidmət etdiyini yazıblar.

Sovet KQB-sinin istintaq materialları doğru olsa belə, faktlar və şairin şeirləri onu göstərib ki, o, faşizmlə barışa bilməyib, ona qarşı sözü və əməlilə mübarizə aparıb. 1943-cü ilin yayında – iyulun 10-12-də Radom hərbi əsir düşərgəsindəki gizli təşkilatın rəhbərləri həbs edilib. Almanlara məlum olub ki, düşərgədə yayılan antifaşist şeir və nəğmələrin müəllifi Musa Cəlildir. Onu Radom hərbi əsirlər düşərgəsindən Berlin yaxınlığındakı Moabit düşərgəsinə dəyişiblər.

Şairin əsirlikdə yazdığı ilk şeirlərin bir qismini milliyətcə başqırd olan Təlqət Gimranov qoruyub saxlaya bilib.

Moabit düşərgəsində Musa Cəlil ən çılğın antifaşist kimi tanınıb. Düşərgədə o, yalnız şeir və mahnılar yazmaqla kifayətlənməyib, təşkilatı iş də aparıb. Onun şeirləri ideoloji mübarizə aparanların deyil, vətəndən uzaq düşmüş, savaşın siyasi məzmunundan xəbərsiz insanların da qəlbinə yol tapıb. Şair yazıb:

Əs, ey yad ölkənin acı rüzgarı,
Yollan düzənliklə, dağla, meşəylə,
Yetir doğma yurda bu mahnıları,
Onu əhvalımdan xəbərdar eylə.

1944-cü ildə Moabit düşərgəsindəki antifaşist gizli təşkilatın üzvləri Almaniyanın xüsusi xidmət orqanları tərəfindən yaxalanıb. Qaynan Kormaşevin rəhbərlik etdiyi qurupun üzvləri ağır və işgəncəli sorğu-suala tutulublar. Onlardan alınan izahatlardan aydınlaşıb ki, tərkibi tatar və başqırdlardan olan legionerlər 1918-ci ildə tatar-başqırdların qurmaq istədikləri Ural-İdil dövlətini qurmaq üçün

təşkilatlanıblarmış. Təşkilatın aparıcı ideoloqu da Musa Cəlil imiş.

Üçüncü reyxin İkinci reyx məhkəməsi 1944-cü ilin fevralın 12-də Drezdendə çıxardığı 36/44 saylı hökümlə "Almaniyaya xəyanət"də suçlayaraq Qaynan Kormaşu (Almaniya əsirliyində olan bir çox türklər Rusyadakı ov, yev ilə bitən soyadından imtina etdiklərindən gizli təşkilat üzvlərinin bir neçəsinin də soyadının sonunda ov, yev yoxdur - Ə.Ş.), Musa Cəlili, Foat Səyfelmölekovu, Abdulla Alişi, Foat Bulatovu, Qarif Şabayevi, Əxmət Simayı, Abdulla Battalı, Zinnət Xəsənovu, Əxət Atnaşevi, Səlim Boxarovu boyunları vurulmaqla ölümə məhkum etmişdir. 1944-cü il avqustun 25-də Berlin yaxınlığındakı Plyotsenze hərbi həbsxanasında "Ural-İdil" leqionunda xidmət etmiş Musa Cəlilin boynu vurulur.

Lakin şairin marqarin yağının kağızına yazılmış şeirləri düşərgədəkiləri yaşamağa, mübarizəyə ruhlandırıb. Şair yazıb:

Dünya, nə gözəldir, nə işıqlıdır,
O gen qucağın?
Mənimsə qanrılmış həbsxanada
Əlim-ayağım.

Ey quş, külәkləri yarıb uçursan
Asimanlara
Mənsə atılmışam qolları bağlı
Daş zindanlara.
Ey çiçək yuyulub yağan yağışla
Açılır qönçən.
Mənsə can verirəm dəmir qəfəsdə
Su istəməkdən
Bəlkə ölən kimi məni bu dünya
Tez unudacaq.
Mən qoyub getdiyim nəğmələr fəqət
Sağ qalacaq sağ...

İkinci Dünya Savaşı faşist Almaniyasının məğlubiyyətilə başa çatsa da, faşizmə qarşı mübarizə aparanların xidmətləri lazımınca dəyərləndirilməyib. Əksinə, 1946-cı ildə Sovet Məxfi Təşkilatı, Musa Cəlilin işi üzrə istintaqa başlayıb. Şairin antifaşist fəaliyyətinin, öldürülməsinin üzərindən sükutla keçərək, əsir düşərkən özünü öldürmədiyinə, almanlarla əməkdaşlıq etdiyinə görə "xalq düşməni" və ən qatı cinayətkar elan edib, ailəsini də işgəncələrə məruz qoyublar. Onunla eyni düşərgədə olmuş milliyətcə başqırd olan Təlqət Gimranovu da

“xalq düşməni” kimi Tyanşandakı həbs düşərgəsinə göndəriblər.

Belçikalı antifaşist Andre Timmermans Musa Cəlilin Moabitdə yazdığı 115 şeirin qorunduğu cib dəftərcəsini Brüsseldəki Sovet konsulluğuna verib və onlara şairin antifaşist təşkilatın üzvü olduğunu, buna görə də boynunun vurulduğunu söyləyib. Həmin cib dəftərçəsi konsulluq tərəfindən SSRİ Xarici İşlər Nazirliyinə göndərilsə də, bu uzun zaman sükutla qarşılanıb.

Stalinin ölümündən sonra ona qarşı başlayan kampaniyada Musa Cəlil də yada düşüb. Gizli antifaşist təşkilatlarında Sovetlərin öndə olduğunu göstərmək üçün Musa Cəlilə ölümündən sonra 1956-cı illərdə Sovet İttifaqı Qəhrəmanı adı verilib və şeirləri dünya dillərinə çevrilərək yayılıb.


Tyanşandakı həbsxanadan, doğulub boya-başa çatdığı Sterlitamaka qayıdan Təlqət Gimranov da Musa Cəlilə bəraət verildiyini gördükdə uzun illər qoruyub saxlaya bildiyi şeirləri mətbuat səhifələrinə çıxarıb. Beləcə Belçikalı antifaşist Andre Timmermans və başqırd Təlqət Gimranovun qoruyub saxlaya

bildikləri köhnəlmiş, balaca cib dəftərcəsi faşist cəlladlarından gizlədiyi sirri, nəhayət, açıb.

Sovetlərin tərənnümçüsü kimi yaradıcılığa başlayan Musa Cəlili dünya antifaşist kimi tanıyıb və dəyərləndirib.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il mayın 26-da, saat 12.14-də efirə getmişdir.

RIZATDİN FƏXRETDİN



(tat. Ризаэтдин Фәхретдин, əski əlifba ilə فخر الدين رضا الدين, *rus. Ризаитди́н Фахретди́нович Фахретди́нов; (1859-1936)*

Rızatdin Fəxretdin oğlu Fəxretdin 1859-cu il yanvarın 4-də, Rusiyanın işğaldan sonra yaratdığı Samara quberniyası Buqulminski qəzasının Kiçuçatov kəndində imam Fəxretdin bin Sayfutdinin ailəsində anadan olub. İndi bu kənd Tatarıstan Resbublikasının Almetev rayonundadır. Rıza doğulan vaxt da, ondan hələ çox sonralar da tatarlarla başqırdlar indiki kimi ayrılmamışdılar. Ona görə də Rızatdinin özü belə sənədlərində milliyəti qrafasında gah tatar, gah başqırd yazıb.

Türklər adətən atalarının adı ilə çağrılırlar. Ata adı ilə tanınmayanda və ya eyni adlılıq yarananda onda nəsil və tayfanın adını əlavə

edirlər. Hind-Avropa dillərində isə soyadı önəmlidir və birinci soyadı işlədilir. Rızatdin doğulduğu bölgədə, tanış və qohumları arasında Fəxretdin oğlu kimi tanınsa və çağrılsa da, Rusiyanın rəsmi sənədlərində ona soyadı vermək gərək idi. Ona görə də ata adı həm də soyadı kimi yazılmağa başlandı. Beləcə Rusiyanın rəsmi sənədlərində onun adı, ata adı və soyadı Rızatdin Fəxretdinoviç Fəxretdinov yazıldı. İctimai-siyasi, elmi və ədəbi aləmdə isə onu daha çox Rıza Fəxretdin kimi tanıdılar.

Çoxuşaqlı ailədə dünyaya göz açan Rızatdin ilk təhsilini savadlı anasından və kənd məscidinin imamı olan atasından alıb. Onun anası Köhnə İştiryak kəndinin imamı Ramkulun qızı Məhbubə xanım olmuşdur. Məhbubə xanım da dini təhsil gördüyündən övladlarının ilk təhsili ilə evdə özü məşğul olmuşdur. Bundan sonra valideynləri onu Çistopol mədrəsəsinə oxumağa göndəriblər. 1867-1968-ci ildə bu mədrəsədə oxuyarkən sufi şeyxi Zakir İşan Kamalovdan dərs alır. Oradakı təhsilini uğurla başa vurduqdan sonra Aşağı Şelçel kəndindəki mədrəsədə oxuyur. Bu mədrəsədə dərs deyən, dövrünün tanınmış din alimi Əbd Alfatdin Əbd Akayumomu Rızatdin hər zaman hörmət və

ehtiramla xatırlayır. O, mədrəsəni bitirdikdən sonra orada 1889-cu ilədək müəllim işləyir.

Az zamanda savadlı və geniş dünyagörüşlü din alimi, səmimi və qayğıkeş insan kimi tanınan Rızatdin Fəxretdin biliklərə qədim əlyazmaları oxumaqla, öz üzərində fərdi qaydada çalışmaqla və dövrünün savadlı adamları ilə söhbətlər, bilik mübadiləsilə nail olur.

Savadlı insanlarla görüşməyi, onlarla söhbət etməyi və səyahəti sevən Rızatdin 1881-ci ildə Kırıma gəlir. Orada İsmayıl bəy Qaspıralı ilə görüşüb söhbətləşir. Rızatdinin Kırıma səfərində Kazanın məşhur iş adamı, tacir İsfəndiyar Akçuranın qızı, Peterburqdakı qadınlar məktəbini bitirib əmisi ilə Kırıma gəzməyə gəlmiş 16 yaşlı Zöhrə xanım və onun əmisi də iştirak edir. Rızatdin Zöhrə xanıma İsmayıl bəyin məqalələrini verir. Zöhrə məqalələri oxuduqdan sonra İsmayıl bəylə tanış olmaq istəyir və onunla evlənmək qərarına gəlir. Bu işə Zöhrənin atası İsfəndiyar razı olmasa da, Rızatdin belə bir ailənin xoşbəxtliyini öncədən görür. Rızatdinin də yardımı ilə İsmayıl bəylə Zöhrə xanım evlənir.

Rızatdin Fəxretdinin ərəb dilində yazdığı ilk kitab – "Kitabe ət təsruf" 1887-ci ildə Kazan şəhərində çap olunur.

1889-cu ildə Buqulm qəzasının İlbak kəndindəki məsciddə imamlıq edən və mədrəsədə dərs deyən Rızatdin Fəxretdinovu qazı seçirlər. Bu 30 yaşlı bir gənc din xadiminə göstərilən böyük etimad idi.

Az keçmir ki, gənc qazının sorağı hər yerə yayılır. Onu Ufadakı Sibir və Uralətrafı bölgə Müsəlmanlarının Dini İşləri İdarəsinə işə gətirirlər. Dini idarədə işləməklə yanaşı, bölgələrdəki qazıları və məscid imamlarını savadlandırmaq məqsədilə İslami qanunlarının, şəriətin və fikhin zamanla necə uyğunlaşdırılması haqqında məqalələr yazır.

Ufada Dini İşlər İdarəsində qazı işlədiyi vaxt Rızatdin Fəxretdin dini əsərlər yazmaqla yanaşı, bədii yaradıcılıqla da məşğul olur. "Səlimə və ya İffət" hekayəsini, "Əsmə və ya əməl və cəza" romanlarını yazmaqla tatar-başqırd nəsrinin inkişafına təsir göstərmiş olur.

1906-cı ildə onu tatar dilində nəşr olunan "Vaqt" qəzetinə redaktor müavini vəzifəsinə dəvət edirlər. İki il orada işlədikdən sonra onu Qızıl sənayeçisi Rameyevin vəsaiti ilə

Orenburqdakı çap olunan “Şura” jurnalını redaktə etməyə dəvət edirlər. Rızatdin Fəxretdin 10 il, yəni “Şura” jurnalı bağlanana kimi onun redaktoru olur. O, mühafizakar bir din xadimi olaraq qalmır. Xurafata, cəhalətə, geriliyə qarşı mübarizə aparır, dünyada baş verən dəyişiklər İslami yöndən dəyərləndirir. Onun redaktorluğu dövründə “Şura” jurnalı bölgəsəl bir jurnaldan çox Rusiya əsarətində olan türk, müsəlman xalqlarının dərdlərini, düşüncələrini yayan bir orqana çevrilir. Jurnalda Bakıda, Gəncədə, Şuşada, Tiflisdə, İrəvanda, Qarsda və s. baş verən ədəbi-mədəni tədbirlər haqqında da məqalələr çap olunur.

Şihabəddin Mərcaninin, Cəmaləddin Əfqaninin, Məhəmməd Abduhnin islahatçı fikirlərini bəyənən və onların yolu ilə gedən Rızatdin Fəxretdin dini kitablar yazaraq çap etdirir. Onun yazdığı kitabların sayı 50-ə, çap etdirdiyi məqalələr isə 700-ə yaxındır.

“Şura” jurnalının redaktoru olmaqla yanaşı, “Hüseyniyə” mədrəsəsində dərs deyən, kadr yetişdirməyə önəm verən Rızatdin dövrün keşməkeşli anlarında təmkinini itirmir. Romanovlar sülaləsinin hakimiyyətdən uzaqlaş-dırılmasından və bolşevik cəlladları tərəfindən

çar II Nikolayın nəslinin qəddarlıqla kəsilməsindən sonra Orenburqda da vəziyyət ağırlaşır. Şəhər gah bolşeviklərin, gah ağqvardiyaçıların əlinə keçir.

Tatar-başqırd vətənpərvərlərinin bir qismi qarışıqlıqdan yararlanaraq müstəqil dövlətlərini qurmaq istəyirsə, bəziləri muxtariyyət uğrunda mübarizə aparır, bəziləri bolşeviklərlə, bəzilər ağqvardiyaçılarla birlikdə hərəkət edirdi. Eserlərin, menşeviklərin tərkibindəki tatar-başqırdlar, eləcə də qazax, qırğız, özbək və başqa türklər milli dövlətlərin yaranıb möhkəmlənməsinə əngəl olurlar.

1918-ci ildə yenidən Ufaya dönən Rızatdin Fəxretdin ağır və çətin günlərini yaşayır. Dörd cildlik "Asara" adlı xatirə və düşüncələrini yazan müəllif elmi axtarışlarından bir an da olsa ayrılmır. Tatar-başqırd xalqı haqqında ensklopedik bilgilər toplayır. "Yınıs", yəni "Oyanış" adlandırdığı bu əsər üzərində ömrünün sonunadək işləyir. 1160 səhifəlik əlyazma iki cilddən ibarətdir.

Məqalələrini çox vaxt adının qısaldılmış şəkli olan Rıza, soyadını da rus sənədlərində yazıldığı kimi deyil, "ov"suz, yəni Fəxretdin kimi yazan din alimini 1922-ci ildə yenidən Dini

İşlər İdarəsində işə dəvət edirlər. Hər zaman KQB təqibi altında olsa da, fəaliyyətini bir an da olsa durdurmur. 1926-cı ildə Məkkədə çağrılan Ümumdünya İslam Konfransında iştirak edir.

Rıza Faxretdinin arxivində yalnız İslam dunyasının alimlərindən deyil, ABŞ-ın, Kanadanın, İspaniyanın, Çinin, Fransanın, Almaniyanın, Skandinaviya ölkələrinin alimlərindən gəlmiş məktublar qorunub saxlanır. 1922-1923-cü illərdə Azərbaycanda Azərbaycanı Öyərənən Cəmiyyət / Tədqiq-Tətəbbö Cəmiyyəti yaradıldığı kimi Ufada da Başqırdıstanı Öyrənən Cəmiyyət yaradılmışdır. Bu günkü elmlər akademiyalarının ilk ruşeyimi olan bu təşkilatın işində müfti Rızatdin Fəxretdin də yaxından iştirak etmişdir.

1929-1930-cu illərdə dinə qarşı Sovetlərin təpkisi sərtləşəndə, "əlifba inqilabı" adı altında kitablar məhv ediləndə Rızatdin Fəxretdin sərt etirazını bildirir və Dini İşlər İdarəsinin bütün heyəti ilə birlikdə iftefa verir. Mədrəsələrdəki, məscidlərdəki kitabları dövlət arxivlərinə toplamağa çalışır.

Rəsmi vəzifədən uzaqlaşsa da, elmi fəaliyyətini təzyiq və təqib altında davam etdirir. Ona qarşı təqib və təzyiqlərin güclü olmasının

bir səbəbi də Rızatdinin 10 bacı qardaşının əksəriyyətinin din xadimi olması idi. Gələcəyin böyük şairi Fatix Karimin anası Maududa isə onun bacısıydı.

Rızatdin Fəxretdin 1937-ci ilin kütləvi həbslərindən 1936-ci il aprelin 11-dəki ölümü ilə qurtulur. Lakin onun əsərləri repressiyadan yaxa qurtara bilmədi.

Sovetlər Birliyi çökdükdən sonra Rızatdin Fəxretdinin əsərlərinə, adının əbədiləşdirilməsinə, kitablarının nəşrinə diqqət artır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il sentyabrda, saat 12.14-də efirə getmişdir.

SALAVAT YULAYEV



(başq. Salavat Yulaev, rus. Салава́т Юла́ев; 1754-1800)

Salavat Yulayev 1754-cü il iyunun 16-da Rusiya Federasiyasının Başqırdıstan Respublikasındakı Tekeyev kəndində anadan olub. İndi Ural dağlarının ətəyində bugünki Salavatskaya yazılan bölgədə o dövrdə Rusiya imperiyasının Orenburq quberniyasına bağlı Teteyek kəndi yoxdur.

Gündən-günə güclənən Rusiya sərhədlərini genişləndirərək türk xalqlarını əsarət altına alsa da, işğal etdiyi bölgələrin insanlarını asanlıqla idarə edə bilmirdi. Çünki Rusiya hərbi cəhətdən güclənsə də, mədəni və mənəvi baxımdam əsarət altına aldığı xalqlardan xeyri geri qalırdı. Buna görə də tez-tez üsyanlar baş verirdi. Hökumət zor gücünə, qəddarlıqla üsyanları yatırsa da,

islahatlar aparmadan da keçinə bilmirdi. Bu islahatlardan isə daha çox üsyanların yatırılmasında fəallıq göstərən, əsarət altına alınmış xalqlara aşağılayıcı nəzərlərlə baxan rusların övladları yararlanırdı.

17-18-ci yüzillikdə bugünkü Başqırdıstan, Tatarıstan, Qazaxıstan, Çuvaşiya və b. bölgələri əhatə edən üsyanları Sovet tarixçiləri Başqırd üsyanları adlandırmışlar. 1773-1775-ci il Başqırd üsyanına başçılıq etmiş etmiş Salavat Yulayev uzun illər kəndli hərəkatının rəhbəri kimi tanıdılmışdır. Son illər isə faktları yenidən gözdən keçirən tarixçilər daha çox Salavat Yulayevin apardığı mübarizəsinin milli azadlıq mübarizəsi olduğunu yazırlar.

Bölgədə Rusiyaya qarşı ilk üsyan 1662-1664-cü illərdə kalmıqlara görə baş qaldırmışdır. Çar qoşunları silah gücünə üsyanı yatırsa da, bəzi güzəştlərə getməli olmuşdur. Hökümət məmurlarının başqırd, tatar və qazaxların daxili işlərinə qarışması məhdudlaşdırılmışdır.

İşğal etdiyi bölgənin müsəlman əhalisini xristianlaşdırmaq istəyən hökumət siyasətinə qarşı üsyan baş verir. 1681-1683-cü illəri əhatə edən mübarizəni hərbi güclə sakitləşdirsələr də, hökumət xristianlaşdırma siyasatindən də əl

götürməli olur. 1705-1711-ci illər üsyana səbəb isə hökumətin rus ordusu üçün başqırdlardan vergi kimi at almaq istəyi olmuşdur. Çar hökuməti kalmıqların köməyi ilə üsyanı yatırsa da, bəzi güzəştlərə də gedir.

Hökumətin xalqın torpaqlarını zəbt edərək qalalar tikməyə başlaması da üsyanla nəticələnir. 1735-1745-ci illəri əhatə edən bu üsyana Salavatın atası Yulay Aznalin rəhbərlik edir.

Salavat Yulay oğlu 1754-cü ilin iyunun 16-da indiki Başqırdıstan Respublikası Tekey kəndində anadan olmuşdur. Ufadan Sibirə gedən əsas yolun keçdiyi Şaytan-Kösey yurdunun kəndlərindən olan Tekey dövrünün ən inkişaf etmiş kəndlərindən sayılırdı. Belə ki, kənddə ibtidai məktəb, məscid, hamam və başqa mədəni müəssisələr vardı.

İlk təhsilini atası Yulaydan alan Salavat ondan yalnız oxumağı, yazmağı öyrənmir, həm də cəsarəti, haqsızlığa qarşı dözməməyi, milli mənafeyi şəxsi mənafedən üstün tutmağı öyrənir. Sonra təhsilini dövrün məşhur pedaqoqu və din xadimi Nebiy Kebiriyin yanında davam etdirir.

16-17 yaşlarında bölgənin ağsaqqalı, məşur sesen, yəni aşıq Azyar ozanla görüşməsi Salavatın şeir söyləməyə həvəsini artırır.

Yeniyetməlik və gənclik illərində at minməyə, ov etməyə marağı olan Salavat Yulayevin igidlik, qəhrəmanlıq, vətən haqqında dediyi şeirlər də dillər əzbərinə çevrilir. Üsyan rəhbəri olmasaydı bəlkə də o başqırdların məşhur sesenlərindən biri kimi kənd-kənd, oymaq-oymaq gəzib şeirlərini söyləyəyərək, xalqını qəflət yuxusundan ayıltmağa səsləyəcəkdi. Hökumətə qarşı çıxması, onun şeirlərinin də oxunmasını, yayılmasını əngəlləmişdir. Buna baxmayaraq üsyan rəhbəri olan qəhramanın "Doğma ölkəm", "Mənim Uralım", "Vuruş", "İgid döyüşçü", "Atıcı" və başqa şeirləri günümüzədək gəlib çatmışdır. Bu şeirləri ilk dəfə 1893-cü ildə məşhur şərqşünas R.Q.İqnatev Sankt Peterburqda çap etdirdiyi bir məqaləsində vermişdir. R.Q.İqnatevin yazdığına görə şeirlər 1868-ci ildə ruscaya çevrilmişdir.

Qıpçaq türkləri arasında geniş yayılmış yır, jir janrında yazılmış sujetli şeirlər sonrakı yüzilliyin sesenlərinə də təsir etmişdir. Şair döyüşçü Uralı öyən şeirində yazır:

Doğulub böyüdüyüm elimdə,
Taleyim məni uzağa atsa,
Sizsiz darıxıb öləcəyəm.
Yuxumda həmişə sizi görəcəyəm,
Mənim doğulduğum çöllərim,
Bal kimi dadlı sularım,
Ovalarım, meşələrim,
Sevdiyim gözəl Uralım!

Şair Salavat Yulayevi də çar hökuməti Yemilyan Puqaçovun başçılıq etdiyi kəndli üsyanını yatırmaq üçün səfərbərliyə alır. 20 yaşını yenicə tamamlamış gənc Salavat görür ki, üsyançılar haqlıdır. Onlar, zülmə, haqsızlığa, qanunsuzluğa qarşı çıxmışlar. Özü kimi məcburi səfərbərliyə alınmış başqırd, tatar, qazaq gəncləri ilə birlikdə üsyancıların tərəfinə keçir.

Salavat sadəcə sıravi bir üsyançı kimi qalmır, az vaxtda ətrafına özü kimi cəsur döyüşçüləri toplaya bilir. Beləcə sadə bir kəndli oğlu peşəkar rus hərbçilərinin canına vəlvələ salan cəsur bir sərkərdəyə çevrilir.

Salavat Yulayev kəndli üsyanına bir təsadüf nəticəsində qoşulmur. Onu bu mübarizəyə hazırlayan bir mühit vardı. Bölgədə yaşayan müsəlman xalqları Rusiyanın idarəçilik

formasını qəbul etmirdilər. Xüsusən təhkimçilik hüququ müsəlmanlar üçün qəbuledilməz və ölümə bərabər idi. Ona görə də müsəlmanların yalnız yoxsul kəndliləri deyil, qeyrətli bəy-xanları, mirzələri də üsyançılara qoşularaq çar üsuli-idarəsinə qarşı qalxdıqlarından də bu qüvvə hökumət üçün daha təhlükəli sayılır.

1774-cü il noyabrın 25-də Salavat Yulayevin rəhbərlik etdiyi üsyançılar dəstəsi Yemilyan Puqaçovun dəstələrilə birləşir. Onların birlikdə ilk uğurlu əməliyyatı 28-29 noyabrda olur. Üsyançılar Orenburqun 150 versliyindəki İlinsk qalasını tutur və çar ordusunu tərkslah edirlər. Beləliklə Moskvadan Sibirə gedən yol üsyançıların əlinə keçmiş olur.

1774-cü ilin yanvarında Salavat Yulayevin üsyançılar dəstəsi Perim qəzasının Kunqura yürüş edirlər. Apreldə Perimdən Başqırdıstana dönən Salavat Yulayev mayın 6, 8, 17 və 31-də polkovnik İ.İ.Mexolsonun yenidən təşkil edilmiş və güclü silahlandırılmış ordusu ilə üzbəüz döyüşə atılır. 3, 5 iyunda Ay çayı sahilindəki döyüşüdə Salavat Yulayevin dəstələri qələbə qazanır. Üsyançılar Kazana doğru irəliləyərək Moskvaya gedən yolu açmağa çalışırlar.

Son dövrlərdə tarixçilər Salavat Yulayevlə Yemilyan Puqaçov arasındakı ziddiyətə diqqəti artırmışlar. Arxivlərdən alınaraq çap olunan sənədlərdən aydın olur ki, Salavat Yulayev bir müsəlman kimi şəxsi mülkiyətin toxunulmaz sayıb, məğlub tərəfin özünün və ailəsini alçaldılmasının əleyhinə olub. Üsyançıların mülkədarların mülklərini yandırmasına, malının talan edilməsinə etirazını bildirib.

Yemilyan Puqaçov da Salavat Yulayevin tatar və başqırd mülkədarlarına qarşı sərt mövqe tutmamasından narazı qalıb.

Bu kimi fikir ayrılıqları üsyanın gücünü getdikcə zəiflədib. Puqaçov üsyanı yatırıldıqdan sonra da Salavat Yulayev mübarizəni davam etdirib. 1774-cü ilin noyabrın 24-də əsir alınan qəhramanı Ufaya, oradan da Moskvaya aparırlar. Moskvada ona sifarişli məhkəmə təşkil edirlər. Məhkəmə Salavat Yulayevi damğa-ladaraq ömürlük həbs cəzasına məhkum edir. Onu indiki Estoniya Respublikasının Paldinski şəhərindəki həbsxanaya göndərirlər. Verilən işgəncələr, ağır həbsxana şəraiti qürurlu və igid qəhramanın ömrünü kəsir. 1800-ci ilin oktyabrın 8-də 48 yaşında dünyasını dəyişir.

Rusiyaya qarşı savaşmasına baxmayaraq A.S.Puşkin, P.P.Bajov və b. neçə-neçə rus ədibi, eləcə də başqırd, tatar, çuvaş, qazax, mari yazıçısı Salavat Yulayevə bədii əsərlər həsr edirlər. Qəhrəmanın haqqında opera yazılmış, film çəkilmiş, Ufada əzəmətli heykəli qoyulmuşdur.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci ildə, saat 12.14-də efirə getmişdir.

SƏDRİ MAKSUDİ ARSAL



(tat. Sadrıy Maqsudıy, typкaкc. Sadri Maksudi Arsal; əski əlifba ilə **سدی مسعودی آرسال**, *rus. Caдpи Maкcyди Apcaл, 1878-1957)*

Sədri Maksudi Arsal (Sədrəddin Maksudov) 23 iyul 1878-ci ildə Rusiya Federasiyasının Tatarıstan Respublikasındakı Taşşu kəndində doğulub. Onun doğulduğu tarix haqqında dəqiq bilgi olmadığından qaynaqlarda 1879, 1880-ci ildə doğulduğunu yazanlar da var. Molla Nizaməttinin ailəsində dünyaya gələn Sərdrəddin ilk təhsilini atasının dərs dediyi məktəbdə alır.

Sədrəddinin doğulduğu kənd Kazan şəhərinə yaxın idi və burada əsasən başqırdlar yaşayırdılar. Həmin illərdə tatarlar və başqırdlar arasında günümüzdəki kimi ayrıseçkilik yox idi. Bir millət kimi yaşayır, eyni dilin, eyni

mədəniyyətin, eyni dinin daşıyıcısı kimi çıxış edirdilər.

Sədrəddin kənd məktəbini bitirdikdən sonra təhsilini davam etdirmək üçün 1888-ci ildə Kazandakı Allamiyə mədrəsəsinə gedir. Onun böyük qardaşı Ahmedhadi (1868-1941) də bu mədrəsəni bitirmiş və orada müəllim işləməyə başlamışdır.

Məşhur pedaqoq, maarifçi və cədidçi kimi tanınan Ahmedhadi Maksudi 1895-ci ildə bir illiyinə Krıma, Bağçasaray şəhərində işləməyə gedəndə kiçik qardaşı Sədrəddini də özü ilə aparır. O, böyük türkçü, maarifçi və qəzetçi İsmayıl bəy Qaspıralının dərs dediyi Zincirli mədrəsədə müəllimlik etməyə başlayır.

İsmayıl bəy Qaspıralının söhbətləri və fəaliyyəti 15-16 yaşlı Sədrəddinə güclü təsir edir. Ziyalı bir ailədə doğulan gənc böyük millət fədaisinin vurğununa çevrilir və həyatını onun kimi qurmağa çalışır. Sədrəddin bir il sonra Kazana döndükdə rus dili müəllimləri hazırlayan məktəbə daxil olur.

Məktəbdə rus dilini dərindən öyrənən, bu dil vasitəsilə rus ədəbiyyatı və Avropa xalqlarının ədəbiyyatı ilə yaxından tanış olan Sədrəddin millətinin geridə qalmasının, Rusiyanın əsarəti

altına düşməsinin səbəbini təhsildə və tərbiyədə görür. Qəzet və jurnallarda çap etdirdiyi məqalələrində cəhalət və nadanlıqla yanaşı, bəzən milli dəyərləri də tənqid edir.

Ayaz İsaki ilə də bu məktəbdə oxuyarkən tanış olan və dostlaşan Sədrəddin Maksudov ilk romanı olan "Məişət"i də burada yazır. 1898-ci ildə Kazanda çap olunan roman Rusiya əsarəti altında olar türklər arasında yayılsa da, müəllifinə böyük şöhrət qazandırmır.

Dörd il burada oxuduqdan sonra 1901-ci ildə müəllimlər hazırlayan məktəbi bitirən Sədrəddin 1902-ci ildə Osmanlının paytaxtı İstanbula getməyi qərarlaşdırır. Yolüstü Krımda İsmayıl bəy Qaspıralı ilə görüşür. İsmayıl bəy ona Parisə getməyi, orada latın və fransız, alman, ingilis dillərini öyrənməyi, ali təhsil almağı məsləhət görür. Gənc Sədrəddin özündən böyük məsləkdaşının məsləhətinə əməl edərək İstanbulda çox qalmayıb Parisə gedir. Sarbon Unversitetinin Hüquq fakültəsinə daxil olan Sədrəddin Parisdə istanbullu, "Məşvərət" jurnalının redaktoru Əhməd Rza, Əhməd Fərid, Yahya Kamal və həmyerlisi, böyük türkçü Yusif Akçura ilə dostlaşır. Hətta onlarla bilikdə "Tərcüman" qəzetinin nəşrə başlamasının 20

illiyi münasibətilə “Yubileyə çağrı” adlı kitabça hazırlayaraq Qafqazın, Kırımın, Tatarıstanın, Türküstanın qabaqcıl ziyalılarına göndərməklə 1903-cü ildə Rusiya türklərinin konqresinin keçirilməsinə nail olur. Sədrəddin bəy Parisdə oxuyarkən qəzet və jurnallara məqalələr yazır, tərcümə işləri görür, beləliklə həm qələmini püxtələşdirir, biliyini artırır, həm də özünə çörəkpulu qazanır. Böyük qardaşı Ahmedhadi Maksudiyə və İsmayıl bəy Qaspıralıya yazır ki, ona daha pul göndərməsinlər. Sədrəddin bəyin Parisdə oxuyarkən gördüyü ən irihəcmil işlərdən biri Amerika yazıçısı Bellamiyin “100 sonra” ictimai-siyasi romanını tərcümə etməsidir. Romandan parçalar 1906-cı ildə “Tərcüman” qəzetində “S.M” imzası ilə çap olunur.

1906-cı ildə Paris Hüquq fakültəsini və Sarbon Universitetinin Ədəbiyyat və sosial elmlər fakültəsini bitirib vətənə dönən Sədrəddini burada millətsevər və cəsarətli bir ziyalı kimi tanıyırdılar. Odur ki, o hələ yolda ikən 1906-cı il avqustun 16-da Nijni Novqorod şəhərində keçirilən Rusiya Müsəlmanları İttifaqının III qurultayında İsmayıl bəy Qaspıralının təklifilə Sədrəddin Maksudov Mərkəzi Komitə üzvlüyünə seçilir.

Vətənə dönüb ciddi ictimai-siyasi fəaliyyətə başlayan, məqalələr yazan Sədrəddin Maksudov II Dövlət Dumasına və Dumanın Sədrlər Şurasına üzv seçilir. Onun Duma iclaslarındakı hökumət əleyhinə sərt və elmi cəhətdən əsaslandırılmış çıxışları uzun illər yaddaşlardan silinməmişdir. Belə ki, 1919-cu ildə Finlandiyaya mühacirət etmək məcburiyyətində qalanda Daxili İşlər Naziri onun Dövlət Dumasındakı çıxışını xatırlayıb böyük ehtiram göstərmiş, yaşayış izni verməklə kifayətlənməmiş, hökumət qonağı kimi bütün məsrəfləri də ödənmişdir. II Duma çar II Nikolayın göstərişilə bağlansa da, III Dövlət Dumasına seçilənlər arasında yenə Sədrəddin Maksudovun adına rast gəlmək olur. O, Dövlət Duması toplantısında Rusiyanın işğalı altında yaşayan türklərin tatar adlandırılmasını tarixi yanlışlıq adlandırır. 1909-cu ildə Böyük Britaniyaya gedən IV Dövlət Duması üzvləri sırasında olan Sədrəddin Maksudov özünü rus kimi deyil, Rusiyada yaşayan türklərin nümayəndəsi kimi təqdim edir. Geri döndükdə isə Fatih Kəriminin redaktoru olduğu "Vaqt" qəzetində təəssurtlarını çap etdirir.

Dövlət Dumasının üzvü kimi Peterburqda olan Sədrəddin Maksudov milliyətcə alman olan rus türkoloqu Radloffla görüşür. Radloff onun hələ Parisdə olarkən Orxan kitabələrini öyrədən kurslara getdiyini bildikdə heyrətlənir və təklif edir ki türkologiya ilə məşğul olsun. Lakin o millətini elmi axtarışlarla zülm və istismardan qurtara bilməyəcəyini görüb siyəsətlə məşğul olur. Bədii yazılarını Arsal imzasıyla çap etdirən Sədrəddin Maksudov 1917-ci il martın 25-də Katet Partiyasının qurultayında rus ordularını Avropadan geri çəkərək güneyə yönəltməyi, Pyotrun vəsiyyətlərinə əməl edərək İstanbulu işğal edərək isti dənizlərə çıxmağı təklif edən partiya liderinə sərt cavab verərək deyir: "Biz buna etiraz edirik. Sizə açıq və qəti bildirirəm, əgər müsəlmanların sizə hüsn-rəğbət bəsləməsini istəyirsinizsə, boğazları və İstanbulu işğal etmək məsələsini gündəmdən çıxarın!"

Çar II Nikolay hakimiyyətdən uzaqlaş-dırıldıqdan sonra yaranmış qarışıqlıqdan istifadə edən əsarət altındakı xalqlar azadlığa can atırlar. İş Rusiya və Sibir Türk-Tatar Muxtar Respublikası yaradıldığı elan edilir. Sədrəddin Maqsudov bu respublikanın prezidenti və Milli Məclisin sədri seçilir. O, yeni qurumun 28

maddədən ibarət Anayasasını – Konstitusiyasını hazırlayaraq "Muxtariyyat" jurnalının 6-cı sayında çap etdirir. Mövqelərini möhkəmlədən bolşeviklər 1918-ci il aprelin 13-də muxtariyyatı ləğv edir, onun xəzinəsini məsnimsəyirlər. Sədrəddin Maksudov Finlandiyaya mühacirət etmək məcburiyyətində qalır. Oradan da 1919-cu ildə Parisdə çağrılmış Sülh Konfransına yola düşür. Onun gəlişi mətbuatın diqqət mərkəzində olur. Musahibələrinin birində uzaqgörənliklə deyir ki, Avropalılar bolşevizmi bir fikir cərəyanı kimi qəbul edirlər. Əslində, Rusiya özünü böğub öldürməyə çalışan bir mücadilədədir. Sədrəddin Maksudov Sülh Konfransına 10 milyonluq İç Rusiya və Sibir türkləri adından bir memorandum imzalayıb verir. Parisdə ictimai-siyasi, pedaqoji və publisistik fəaliyyətini davam etdirən Sədrəddin Maksudov 1924-cü ildə gənc Türkiyəyə mühazirə oxumağa gəlir. 1925-ci ildə isə onu Atatürkün tapşırığıyla Maarif naziri Həmdulla Sübhü yaşamaq və işləmək üçün Türkiyəyə dəvət edir. Türkiyədə yaşadığı 38 il müddətində ali məktəblərdə dərs deyən, üç dəfə millət vəkili seçilən Sədri Maksudi Arsal kimi məşhurlaşır və daha çox da bu adla tanınır. O, 20 fevral 1957-ci

ildə İstanbulda vəfat etmişdir. Rusiya işğalı altında olan bir başqırd ailəsində doğulan Sədri Maksudi Arsal türk xalqlarının azadlığı uğrunda mübarizə aparan bir insan kimi sevilir və təbliğ edilir.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il martın 30-da, saat 12.14-də efirə getmişdir.

ŞAMİL USMANOV



(tat. Шамил Хәйрулла улы Усманов, əski əlifba ilə شاميل اوسمانوو, *rus. Усманов Шамиль Хайруллович; 1898-1937)*

Abdulla Xayrulla oğlu Usmanov 1898-ci il dekabrın 26-da Rusiyadakı Saratov quberniyasının Kuznetsk qəzasının Pendelkə kəndində doğulmuşdur. Rusiya sərhədlərini genişləndirdikcə işğal etdiyi torpaqlarda özünün idarəetmə sisteminə uyğun inzibati vahidlər yaradırdı. Əslində yalnız Kuznetski qəzasında deyil, Saratov quberniyası və ona bitişik quberniyaların əksəriyyətində tatarlar, başqırdlar, qazaxlar, çuvaşlar və başqa türk xalqları yaşayırdı. Bu yerlərdə ruslar 18-ci yüzillikdən məskunlaşdırılmağa başlanmışdı.

Atası Xayrulla dindar bir kənd müəllimi imiş. Oğluna da İslam dinindən gələn bir ad, Abdulla adı vermişdi. Lakin Abdulla dünyanı

dərk edəndən sonra adını dəyişərək, Qafqaz dağlarında Rus müstəmləkəçilərinə qarşı 30 ilə yaxın mübarizə aparmış Şeyx Şamilin şərəfinə Şamil adını qəbul etmişdir.

Kəndlərindəki mollaxana adlandırılan ibtidai məktəbi bitirdikdən sonra Abdulla Usmanovu Həştərxan şəhərindəki rusca-tatarca təhsil verən ibtidai məktəbə göndəriblər. Həştərxanda ibtidai məktəbi bitirən Abdulla Usmanov tacir və sənayeçi, milyoner Xusainov qardaşlarının Orenburqda 1889-cu ildə açdıqları "Hüseyniyə" mədrəsəsində oxumağa gedib. Bu mədrəsədə təhsil üç pilləli idi. Üç il ibtidai təhsildən sonra dörd illik rüşdiyyə adlandırılan orta təhsil gəlirdi. Sonra iqdadiyə adlanan dörd illik təhsil və ali adlandırılan 3 illik təhsillə mədrəsənin proqramı başa çatırdı.

Zəngin kitabxanası olan, dünyanın bir çox ölkəsindən qəzet və jurnal alan mədrəsədə Faxrettinov, Ramiyev, Sunçalyay, Kamal, Karimi, Burxan kimi dövrünün tanınmış alim-pedaqoqları dərs deyirdi. Belə bir mühitdə yetişən, şeir yazan, həmişə yeniliyə can atan Abdulla Usmanov mədrəsədən sonra 1911-1914-cü illərdə Orenburqdakı sənət-peşə məktəbində oxuyub. Beləcə özünü həyata

hazırlayan gənc şair Aktubinskiyə gələrək buradakı dəyirman kombinatında çilingər, sonra da Sızrana gedərək oradakı Quryev toxuculuq fabrikində üç il çilingər işləyib.

Rusiyanı bürümüş iğtişaşlar gənc şairi də öz qoynuna çəkib. Dünyada sosial ədalətin bərqərar olunacağı inamı ilə bolşeviklərə qoşulub. 1917-ci ilin başlanğıcında onu çar ordusuna səfərbərliyə alsalar da az sonra II Nikolayın taxtdan salınması ilə bir çoxları kimi onu da ordudan tərxis ediblər. Lakin o əsgəri birliklərdən uzaqlaşmayıb, Sızrandakı qarnizon-da inqilabi təbliğat aparıb.

Bolşeviklərin sırasında fəaliyyətini davam etdirən Şamil Usmanov rəhbərliyin irəli sürdüyü şüarlara ürəkdən inanıb. Əsarət altında olan xalqları azadlığa çıxaracaqları, müharibələrə son qoyacaqları, varlı-kasıb arasındakı fərqi aradan qaldıracaqları, insanlara firavan həyat bəxş edəcəkləri inamı ilə mübarizəyə başlayan Şamil Usmanov məqsədə çatmaq üçün ölümün qoynuna atılıb. Lakin ona savaşlarda ölmək deyil, uğrunda mübarizə apardığı ideyanın mümkünsüzlüyünü, milyonlarla insan kimi aldadıldığını görmək və mübarizə dostları tərəfindən məhv edilmək qismət imiş.

1919-cu ildə onu Kazanda yeni təşkil edilən Volqaboyu tatarlarından təşkil edilən Birinci Atıcı Briqadaya komissar təyin ediblər. Bu hərbi birlik Sibirdəki geniş əraziləri nəzarəti altında saxlayan ağqvardiyaçı Aleksandr Dutovun silahlı dəstələrinə qarşı vuruşub. Döyüş illərində də bədii yaradıcılığını davam etdirən Şamil Usmanov Orenburq cəbhəsində "Qanlı günlər" pyesini yazıb.

Onun təşkilatçılıq bacarığı rəhbərliyin diqqətindən yayınmayıb. 1919-cu ilin payızında təşkil edilən Mərkəzi Müsəlman Hərbi Kollegiyasının siyasi şöbəsinə rəhbər təyin ediblər.

1920-ci ildə isə Şamil Usmanov Tatarıstan Muxtar Sovet Sosialist Cümhuriyyəti İnqilab Komitəsinə katib təyin edilib. Mülki işdə çalışarkən xalqla sıx ünsiyyətdə olduğundan, bolşeviklərin inqilabdan əvvəl verdikləri vədlərə əməl etmədiklərini, milli məsələdə çar Rusiyasının yeritdiyi müstəmləkə siyasətini davam etdirdiklərini görüb. Lakin bunun ümumdövlət siyasətinin bir hissəsi kimi deyil, rəhbər vəzifədə olan bəzi şəxslərin yanlışlığı olduğunu düşünüb.

Rəhbərlik isə Şamil Usmanovu millətçiliyə meyl etməkdə təqsirləndirsə də belə bir kadrı itirmək də istəməyib. Onu 1921-ci ilin əvvəllərində mülki işdən ayırıb Kazanda piyada hərbi bölmə komandirləri hazırlayan kursun siyasi şöbəsinə rəhbər, az sonra isə Birləşmiş Tatar-Başqırd Hərbi Məktəbinə komissar vəzifəsinə göndəriblər.

Şamil Usmanov 1927-ci ilə kimi hərbi sahədə ideyaya sadiq bir kommunist kimi çalışıb. 1925-ci ildə ona diviziya komissarı rütbəsi veriblər.

Bir müddət Moskvada milli hərbi təhsil müəssisələri üzrə təlimatçı və eyni zamanda ali hərbi kadrlar hazırlayan kursda işləyib. 1926-cı ildə isə onu Daşkəndə Türküstan üçün hərbi kadrlar hazırlamağa göndəriblər.

Tatarıstanla daim əlaqə saxlayan Şamil Usmanov hərbi sahədə işləsə də bədii yaradıcılığından da qalmayıb. “Birinci addım”, “Varlı qızı”, “20 damla”, “Geçikmiş əmr” pyeslərini, “Şamseddinbay” komediyasını yazıb. Böyük uğurla səhnələşdirilən bu dram əsərləri yalnız Kazanda deyil ölkənin bir çox şəhərlərinin teatrlarının repertuarına daxil edilib. Sovet ideoloqları onun hərbi mövzuda yazdığı

əsərləri xüsusilə yüksək qiymətləndiriblər. Çünki həmin dövrdə Sovet əsgəri birliklərinin hünərini öyən bədii əsərlər yox dərəcəsində idi. Şamil Usmanovu yüksək qiymətləndirməklə yazıçı, dramaturq, şair və publisistləri hərbi mövzuda əsərlər yazmağa həvəsləndiribdilər.

1926-1927-ci illərdə Daşkənddəki Şərqşünaslıq İnstitutunun hərbi kurslarında siyasi şöbə rəisi işləyən Şamil Usmanovu çox gənckən, yəni 29 yaşında ordudan təxris ediblər. Kazan şəhərinə gələn gənc yazıçı Tatarıstan Tamaşa Müəssisələri İdarəsinin rəsisi, Kazan Radiostansiyasının tikintisinə məsul şəxs və s. vəzifələrdə çalışıb.

"Pamirdə radio" povestini, "Fabrikin anası", "Açıq kilid", "Mitinq" və b. hekayələrini, onlarla publisistik məqalə yazan Şamil Usmanov o dövrün ədəbi mübahisələrinə də qatılıb, keçmiş hərbçi kimi sərt çıxışları ilə diqqəti cəlb edib. SSRİ-də hökumət gücləndikcə inqilab ərəfəsində və inqilabın ilk günlərində verilən vədlərə əməl edilmədiyini görən Şamil Usmanov quruculuğunda fəal iştirak etdiyi dövlətin taleyi üçün narahat olub. Bu narahatlığını toplantılarda və yazılarında

bildirib. Bütün bunlar da hakimiyyətdəkilərin xoşuna getməyib.

Şamil Usmanov vəziyyəti dəyişmək arzusuyla gizli müxalif qruplarla əlaqəyə girib. Az sonra o gizli təşkilatın ön sıralarında özünə yer tutub.

İkinci Dünya Savaşının yaxınlaşdığını görən Sovet rəhbərliyi müxalif qüvvələri aradan götürməyi qərara alıb. 1937-ci ilin kütləvi həbsləri başlayıb. 1937-ci il aprelin 5-də Şamil Usmanov da həbs edilib. Keçmiş əqidə yoldaşları və hazırladığı kadrlar onu istintaqa tutublar. Uzun sürən işgəncəli istintaq 1937-ci il dekabrın 3-dək davam edib. İstintaq sənədlərində 39 yaşlı yazıçının "ürək çatışmamazlığı"ndan öldüyü göstərilib.

Ölümündən sonra onun əsərləri qadağan edilsə də Şamil Usmanovun adı xalqının qəlbində yaşayır və yaşayacaq.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2013-cü il mayın 9-da, saat 12.14-də efirə getmişdir.

ŞƏHABƏDDİN MƏRCANİ



(tat. Şihabetdin Mərjani; rus. Шигабутдин Марджани, Шигабутдин бин Багаутдин аль Казани аль-Марджани; 1818-1889)

Şəhabəddin Bəhaəddin oğlu Mərcani 13 yanvar 1818-ci ildə keçmiş Kazan quberniyasının Yabınçı kəndində doğulmuşdur. İndi bu kənd RF Tatarıstan Respublikasının Atnin rayonundadır. Sonralar o, Şəhabəddin bin Bəhaəddin əl-Qazani əl-Mərcani, Şəhabəddin Mərcani kimi tanınmışdır.

Şəhabəddin beş yaşında anasını itirir. Anasının ölümündən bir il sonra atasının dərs dediyi məktəbdə oxumağa başlayır. Orada ərəb və fars dillərini, şəriəti, "Qurani Kərim"i oxumağı öyrənir. Atasının və çevrəsindəkilərin təsirilə bölgənin tarixinə böyük maraq göstərir.

1838-ci ildə isə biliyini və dünyagörüşünü genişləndirmək üçün Buxaraya gedir.

Buxara mədrəsələrin proqramından razı qalmasa da, mühit onda dərin təsir buraxır. Belə ki, Nəqşibəndiyə təriqətinin üzvlərilə tanış olur. Bu təriqətin incəliklərini öyrənməyə o qədər maraq göstərir ki, sonralar özü Nəqşibəndi təriqətinin şeyxinə çevrilir.

Əbdünnasir Kursavinin şəriətdə islahatlar aparmağın vacibliyi, İslamın dini ehkamlarının zamana uyğunlaşdırılması, xurafətə qarşı mübarizənin önəmliliyi çağrışları Şəbahəddinin ürəyindən olur. O, bu məsələlərdə Əbdünnasir Kursavinin yolunu tutur.

Buxarada təhsil almaqla yanaşı, həm də orada dərs deyən, gününün çoxunu kitabxanalarda və bölgədəki təriqət şeyxləri ilə söhbətlərdə keçirən Şəbahəddin Mərcani 1843-1845-ci illərdə Səmərqənddə yaşayır və oradakı Qazi Əbu Səidin zəngin kitabxanasından çox faydalanır.

On bir il sonra, yəni 1849-cu ildə vətənə dönən Şəbahəddin Mərcanini Kazanlı İbrahim Yunus məhəllə məscidində imam işləməyə dəvət edir. Məscid imamı olmaqla yanaşı, xətiblik edən Mərcani mədrəsədə dərs də deyir.

Mədrəsədə dərslik çatışmadığını, tədris zamanı istifadə edilən kitabların çox köhnə olduğunu, necə deyərlər zamanla ayaqlaşmadığını görən gənc müəllim dərslik yazmaq həvəsinə düşür. "Fars dilinin morfologiyası" kitabını hazırlayır. Bu yeniyetmə alimin ilk kitabı olur.

1865-ci ildə isə Şəbahəddin Mərcaninin "Qurfetül hevakin li arefet il hevakin" kitabının birinci cildi Kazan şəhərində çap olunur. Qəribədir ki, ana dilində danışarkən rus sözləri işlədənlərə iradını bildirən alim yazılarında ərəb-fars dillərinin təsirindən qurtula bilmir. Din və millət məsələsini daim gündəmdə saxlayan, özlərini müsəlman adalandırmaqla qürürlanan, milliyətlərinin tatar olduğunu dilə gətirmək istəməyən, tatar olmağı alçaldıcılıq sayan soydaşlarına qarşı Şəbahəddin Mərcani istər məscid minbərlərindən xütbə oxuyanda, istər mədrəsədə dərs deyəndə, istərsə də yazılarında sərt mövqe nümaiş etdirir. Xalqı ayıltmaq üçün əlindən gələni əsirgəmir. 1870-ci ildə "Nazurat-ul hakki fi farziyat-il ifşa-i və in-lem yaqip-aş-şafak" kitabını çap etdirir.

Bölgədə nüfuzlu bir şeyx, dərin bilikli din alimi kimi tanındığından yerli hökumət məmurları da ona sayqı ilə yanaşırlar. Rusiya

işğal etdiyi bölgələrdə hakimiyyətini möhkəmlətmək üçün əhalinin psixologiyasını, adət-ənənəsini, yaşam tərzini, folklorunu öyrənir, bu işə vəsait ayırır, ekspedisyalar təşkil edirdi. Bunun üçün hökumətin mütəxəssislərə böyük ehtiyacı vardı. Belə kadrların bir qismi Rusiyada hazırlanırdısa, bir qismi də xaricdən dəvət edilirdi. Radloff da milliyətcə alman idi, lakin Rusiyanın strategiyasını həyata keçirən alimlərdən olmuşdur. Onun rəhbərliyi ilə ekspedisyalar təşkil edilir, məktəblər açılır, kitablar nəşr olunurdu. Hökumətin vəsaiti ilə Radloff Kazanda da müəllimlər seminariyası açmışdır.

Radloff Şəhabəddin Mərcanini yaxından tanıdığına, fəaliyyətindən xəbərdar olduğuna görə 1876-cı ildə onu seminariyaya müəllim işləməyə dəvət edir. Həmin il onu Kazan Arxeoloji Cəmiyyətinə də üzv seçirlər. 1884-cü ilədək seminariyada dərs deyən Şəbahəddin burada işləyərkən Katanov, Brezin, Qottvald kimi şərqşünaslarla tanış olur. O, Rus və Avropalı alimlərdən onların araşdırma metodlarını öyrənir və yazılarında bu metoddan da istifadə edir. Etnoqrafiyadan, ilahiyyat tarixindən, şəriətdən, folklordan dərs deməklə

yanaşı, şagirdlərə şərq dillərini və türk dialektlərini öyrədən Şəbahəddin Mərcani elmi toplantılarda da fəal iştirak edir.

1877-ci ildə Kazanda keçirilən IV Arxeoloji Konfransda Şəbahəddin Mərcaninin oxuduğu məruzə böyük marağa səbəb olur. Volqa bulqarlarının, Kazan xanlığının, eləcə də İdil (Volqa)-Ural bölgəsində yaşayan türklərin tarixindən bəhs edən bu məruzə Avropa metodları ilə hazırlandığından Radloff onu ixtisarla rus dilinə çevirtdirib çap etdirir.

1880-ci ildə Həcc ziyarəti zamanı Şəbahəddin Mərcani bir müddət İstanbulda qalır. Orada Şeyxülislam Əsəd Əfəndi, ədliyyə naziri, tarixçi Cevdət Paşa, hərbi nazir Asım Paşa ilə, eləcə də başqa hökumət məmurları, ziyalılarla görüşür, kitablarının bir qısmini Həmdiyyə kitabxanasına bağışlayır.

Azərbaycan və azərbaycanlılarla da sıx bağlı olan Şəbahəddin Mərcani Qafqazda zəlzələ baş verdikdə zərər çəkənlərə özü yardım etməklə kifayətlənmir, bölgədə yaşayan müsəlmanları da bu işə cəlb edir. Zəlzələdən zərər çəkənlərə maddi yardım etməklə yanaşı, Qafqazda doğulmuş, kəbin kəsdirmiş və ölmüş

müsəlmanların siyahısını hazırlayıb dövlət idarələrinə verir.

Rusiyanın hökumət dairələrindəki nüfuzundan istifadə edən Şəbahəddin Mərcani məhkəmədə müsəlmanların "Qurani Kərim"ə and içmələrini rəsmiləşdirə bilir.

20-ci yüzilliyin əvvəllərində Azərbaycanda çap olunan və xaricdən gətirilib oxunan mətbuatda Şəhabəddin Mərcani adı tez-tez çəkilir, əsərlərinidən nümunələr verilirdi. Sovetlərin apardığı ateist təbliğat öz işini gördü. Bu böyük tarixçi, pedaqoq və islahatçı din aliminin nəinki əsərləri təbliğ olundu, əksinə yeri düşdükcə tənqid edilməyə başlandı. Yaxşı ki, tənqid edilirdi. Ayıq oxucular təqnidlə maraqlanır, Şəhabəddin Mərcani haqqında bilgi əldə edirdilər. Necə deyərlər antireklam reklama çevrilirdi.

Qəribədir ki, dilə xüsusi önəm verən, yazılarında qıpçaq və karluk dialektlərinin qarışığından istifadə edərək ortaq türkcə yaratmağa çalışan alim elmi dilinin məhz ərəb dilində ola biləcəyi düşüncəsindən ayrıla bilmir. Yazmış olduğu 30-a yaxın əsərdən ən sanballısı olan 7 cildlik "Vefiyat-ül-aslaf və tahiyet-ül

aflat” əsəri ərəbcədir. Bu əsəri 1883-cü ildə Kazan şəhərində çap etdirmişdir.

Şəbahəddin Mərcani “Mustafadül-əxbar”ın əsərində soydaşlarına müraciətlə yazırdı: “Bəziləri tatar olmağı əskiklik sayıb o ismdən nifrət edib “biz tatar deyil, müsəlmanıq!” deyə qovğa və mücadilə edirlər... Ey miskin! Deyək ki, sənin müsəlmandan başqa bir adını, dinini və millətini düşmənlərin bilməsəydi, əlbəttə, səni “müsəlman” deyə ayırd edərdi. Tatar olmasan, ərəb və tacik və noğay deyil, xatay və rus və fransız, prussiyalı və alman daha deyil, indi kim olursan?”


Şəhabəddin Mərcani Kazan tarixindən bəhs edən və ana dilində yazdığı “Kitabu-Müstəfadil-əxbar fi Ahval-i Kazan” adlı əsərlərində ilk dəfə kazanlı müsəlmanlara dindən başqa bir də milliyyətin varlığını acı bir dillə, sərt və açıq ifadələrlə çatdırmağa çalışmışdır.

1889-cu il aprelin 15-də Kazanda dünyasını dəyişən, orada da dəfn edilən böyük Nəqşibəndi şeyxi, filosof, tarixçi, etnoqraf, pedaqoq yeni bir nəsil yetişdirmiş oldu. Elə bir nəsil ki, milli dəyərlərə sahib çıxdı, ana dilini qorudu, bu dünyadakı bütün təhlükələrə mətanətlə sinə gərdi. On minlərlə tatar pantürküzmidə,

millətçilikdə ittiham edilərək güllələnsə də, həbsxanalara, sürgünlərə göndərilsələr də, yenə də ana dilində danışdılar, ana dilində yazıb-oxudular, milli dəyərləri qoruyub saxlaya bildilər.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il oktyabrda, saat 12.14-də efirə getmişdir.

YUSUF AKÇURA



(tat. Yosıf Aqçura, Yosıf Xəsən uğlı Aqçurin; əski əlifba ilə **يوسيف آقچورا**, *rus. Юсуф Акчура, Йосыф Акчура;1876-1935)*

Yusuf Hasan oğlu Akçura 2 dekabr 1876-cı ildə keçmiş Rusiya imperiyasına daxil edilmiş Tatarıstan quberniyasının Simbirsk şəhərində anadan olmuşdur. Onun anası da Tatarıstanın tanınmış ailələrindən birinin qızı Bibi Qəmərbanu xanımdır. Fabrik sahibi olan Hasan 1878-ci ildə dünyasını dəyişib. Bibi Qəmərbanu xanım 1883-cü ildə yeddi yaşlı Yusufu da götürüb Stavropola köçüb. Lakin orada da çox qalmayaraq elə həmin il İstanbula gəliblər.

Yusuf Akçura İstanbuldakı Mahmudpaşa və Hafizpaşa liseylərində oxuyub. 1892-ci ildə ali hərbi təhsil almaq arzusuna düşüb. Arzusunu gerçəkləşdirərək 1896-cı ildə ali hərbi məktəbi bitirib.

Orta yüzilliklərin qüdrətli Osmanlı dövlətinin getdikcə çökməsi, Avropalıların onu "xəstə qoca" adlandırması gənc Yusufu daim narahat edib. Çünki o, Osmanlı dövlətinə sadəcə yaşadığı bir məmləkət kimi deyil, türk xalqlarının xilaskarı kimi baxıb. Odur ki, ölkədə dəyişikliklər, islahatlar keçirilməsini istəyib. Rusiyada yaşayan türkləri Osmanlı toplumuna tanıtmaq üçün Kazanlı din adamı, tarixçi alim Şəhabəddin Mərcaninin tələbəsi Abbas əfəndi ilə birlikdə "Şəhabəddin Mərcaninin tərcümeyi-halı" adlı bir məqalə yazaraq çap etdirib.

Həmfikirləri olan "Gənc türklər" (Jon Türklər) təşkilatı ilə sıx əlaqəsinə görə Sultan II Əbdülhəmidin əmri ilə 1897-ci ildə o zaman Osmanlı dövlətinin bir parçası olan Tripoli şəhərinə, yəni indiki Liviyanın paytaxtına sürgün edilib.

Lakin o sürgün yerində çox qalmamış, qaçıb Parisə gəlmişdir. 1899-cu ildə Fransa Siyasi Elmlər Akademiyasına daxil olub.

Təhsil illərində Bautmy, Albert Sorel, Funk, Brentano, Levy-Bruhl, Torde kimi məşhur alimlərdən dərs alan Yusuf "Gənc türklər"in Paris və Qahirədə çıxan "Məşvərət" və "Şurayi Ümmət" qəzetlərinə müntəzəm məqalələr yazıb.

Onun maarifçi türkçülüyü və milliyyətçiliyi Parisdə siyasi mahiyyət kəsb etməyə başlayıb. 1902-ci ildə "İttihad və tərəqqi"nin Parisdə keçirilən qurultayında iştirak edib. Qurultayda Osmanlı imperiyasının işlərinə hər hansı xarici müdaxilənin yolverilməz olduğu fikrini vurğulayıb.

1903-cü ildə təhsilini başa vursa da geri dönməyib. Parisdə qalıb.

1905-ci ildə Rusiyada baş verən hadisələr, çar II Nikolayın 17 oktyabr manifestini imzalamağa məcbur olması Yusuf Akçuranı Kazana qayıtmağa həvəsləndirib. O, Kazana, necə deyərlər, əliboş gəlməyib. 1904-cü ildə Qahirədəki "Türk" qəzetində çap olunmuş "Üç tərzi-siyasət" (Üç yol siyasət) gənc Yusuf Akçuralını diqqət mərkəzinə çəkib. Çünki bu məqalədə Osmanlı dövləti, onun sabahı ilə bağlı düşüncələr, osmalıçılıq tərəfdarlarının İslam birlik uğrunda mübarizələri təhlil edilib və sonda türkçülüyü yeganə xilas yolu sayıb.

Tatar-başqırd gənclərinin türklük şüurda tərbiyələnməsi üçün 1906-cı ildə Kazanda "Elmlər və tarix" adlı kitabçasını çap etdirən Yusuf Akçura "Kazan müxbiri" qəzetinə baş redaktorluq edib.

1905-ci ilin avqustunda Nijni Novqorodda keçirilən Rusiya müsəlmanlarının I qurultayında, 1906-cı ilin yanvarında Kadet-Konstitusiyaçı Demokrat Partiyasının qurultayında, 1906-cı ilin avqustunda Rusiya müsəlmanlarının III qurultayında fəal iştirak edən Yusuf Akçura 1907-ci ilin iyununda Avropaya və Misirə səyahət edib.

Səfərdən geri dönərkən Krıma gələn Y.Akçuralı İsmayıl bəy Qaspralı ilə görüşüb və "Tərcüman" qəzetində işləməyə başlayıb. Lakin Krımda çox qalmayaraq 1908-ci ilin iyulunda yenidən İstanbula gəlib. Burada müxtəlif ali hərbi məktəblərdə, 1912-1913-cü illərdə İstanbul Universitetində müəllim işləməyə başlayıb. O, ali məktəblərdə dərs deməklə kifayətlənməyib, ictimai-siyasi fəaliyyətini də genişləndirib. 1908-ci ildə "Türk dərnəyi" adlı türkçü cəmiyyətin, 1911-ci ildə avqust ayında "Türk yurdu" və 1912-ci ilin martında "Türk ocağı" cəmiyyətlərinin qurulmasında fəal iştirak edib.

Rusiya müsəlmanlarının hüquqlarının tapdandığını Mərkəzi Avropa dövlətlərinin nəzərinə çatdırmaq məqsədilə Əli bəy Hüseynzadə, Krımlı Məhəmməd Əsəd

Çələbizadə, buxaralı Becan Müqkiməddin və Yusuf Akçuradan ibarət "Turan heyəti" 1915-ci il dekabrın 10-da Avropaya yola düşüb. "Turan heyəti" Sofiya, Budapeşt, Vyana və Berlində bir çox rəsmi şəxslərlə görüşlər keçirib. Yusuf Akçura və Əli bəy Hüseynzadə tərəfindən hazırlanmış "Rusiyadakı müsəlman türk-tatar xalqlarının haqlarını qoruma komitəsinin memorandumu" adlı müraciət Avropa dövlətlərinin hökumətlərinə təqdim edilib.

"Turan heyəti" Avstriya-Macarıstanın hökumət rəhbərlərindən K.Tussa ilə, Vyanada xarici işlər naziriylə, Almaniya hökuməti üzvləri, İsveçrədə, gələcəkdə Rusiyada silahlı çevriliş yoluyla hakimiyyətin ələ alınmasına rəhbərlik edən Viladimir İliç Leninlə görüşüb.

1916-cı il mayın 18-də Yusuf Akçura Əli bəy Hüseynzadə, Əbdürrəşid İbrahimov, Əhməd bəy Ağaoğlu ilə birlikdə ABŞ prezidenti Vudro Vilsona "Rusiya müsəlmanlarının hüquqlarının müdafiə olunması" adlı müraciət göndərib. Həmin il iyunun 27-29-da Millətlər Birliyinin Lozannada toplanan III konfransına qatılan türk-tatar heyətinin tərkibinə Yusuf Akçura da daxil idi. O, burada "Rusiyanın müsəlman türk-

tatarlarının hazırkı durumu və arzuları” kitabını çap etdirib.

“Turan heyəti”nin üzvləri Osmanlı, Bolqarıstan, Almaniya, Avstriya-Macarıstan və İsveçrədə mətbuat konfransları keçirərək ictimai diqqəti Rusiyadakı türklərin vəziyyətinə yönəldiblər.

1917-ci ildə Rusiya Birinci Dünya savaşından çıxdığını elan edib. Amma savaşda əsir götürdüyü minlərlə insanın taleyini necə həll edəcəyi haqqında qəti bir qərar qəbul etməyib. Osmanlı əsirlərinin taleyinin öyrənilməsi və vətənə qayıtmaları üçün Brest-Litovsk sülh danışıqlarına yola düşən nümayəndə heyətinə Qızıl Ay Cəmiyyətinin nümayəndəsi Yusuf Akçura da daxil edilib.

1917-ci ilin yayından Yusuf Akçura Osmanlı Qızıl Ay Cəmiyyətinin nümayəndəsi kimi Rusiyaya yola düşüb. O, Petroqradda və Moskvada əsirlərin dəyişdirilməsi haqqında qarışıq komissiyanın işində iştirak edib.

Yusuf Akçura Osmanlı Qızıl Ay Cəmiyyətinin nümayəndəsi kimi Rusiyada olduğu müddətdə ölkədə baş verən hadisələrlə, əsarət altında olan türk xalqlarının baş verən dəyişikliklərə ikili münasibətlə yaxından tanış

olub. Lakin onların bu qovğadan bacarıqla çıxmalarına nail ola bilməyib.

1919-cu ilin avqustunda İstanbula qayıdan Yusuf Akçura işğalçıların ölkədən çıxarılması yollarını axtarıb. Milli müqavimət qüvvələrinin güclənməsi üçün əlindən gələni əsirgəməyib. Həmin ilin oktyabrında Milli Türk Partiyasının yaradılmasında iştirak edib və 1920-ci ildə İstanbulda "Şərq məsələsinə dair siyasi tarix qeydləri" kitabını çap etdirib.

1921-ci ilin aprelində İstanbulu tərk edərək Anadoluya milli azadlıq hərəkatı iştirakçılarına köməyə gəlib. Ankarada milli təhsil nazirliyinin tərcümə şöbəsində, sonra xarici işlər nazirliyində Doğu məsələləri üzrə müşavir işləməyə başlayıb. Yeni bir dövlətin – gənc Türkiyə Cümhuriyyətinin qurulmasında fəal iştirak edən Yusuf Akçura bu dövlətin ideoloji əsaslarını hazırlayanlardan biri olub.

Yusuf Akçura 1923-cü ildə işğaldan azad olmuş İstanbula qayıdıb və həmin il də "Müasir Avropada siyasi və ictimai fikirlər və fikir cərəyanları" kitabını çap etdirib. İstanbul Universitetində və Ankara Hüquq fakültəsində müəllimlik edən Yusuf Akçura türkçülüyü ilk dəfə siyasi bir mövzuya çevirən alimdir. O,

dünya türklərini birləşdirmək, tanıtmaq və yüksəlişinə nail olmaq üçün ömrünün sonunadək çalışıb.

Qarsdan və İstanbuldan millət vəkili kimi Türkiyə Böyük Millət Məclisində iştirak edən Yusuf Akçuranın fəaliyyətini Atatürk yüksək qiymətləndirib, onu mədəniyyət və siyasət məsələləri üzrə müşavir təyin edib.

1931-ci ildə Türk Tarixinin Tədqiqi Cəmiyyətinin yaradılmasında iştirak edən Akçura sonra Türk Tarix Qurumu adlan bu təşkilata ilk sədri olub. 1935-ci ilədək, yəni ömrünün sonunadək də Türk Tarixini Tədqiq Cəmiyyətinə sədirlik edib. 15 mart 1935-ci ildə İstanbulda vəfat etmişdir.

Onun "Türkçülüyünün tarixi", "Yeni Türk dövlətinin öncülləri", "Türklük və dış türklər", "Osmanlı dövlətinin dağılma dövrü", "Milliyət fikri və millət müharibələri", "Gökalp Ziya bəy haqqında xatirə və duyğularım" və başqa əsərləri bu gün də əhəmiyyətini itirməyib. Buna görə də çox vaxt onu "Pantürkizmin atası" adlandırıblar.

Uzun illər Yusuf Akçuranın adının çəkilməsi qadağan olunmuş keçmiş Sovetlər Birliyində onu əsərləri türk xalqlarının dillərinə

çevrilərək yayılıb. Gənclər onun əsərlərini sevə-sevə oxuyub və özlərinə yol göstərən sayıblar.

Tatarıstanda da Yusuf Akçuranın adının əbədiləşdirilməsi üçün bir çox işlər görülüb.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2011-ci il iyulun 14-də, saat 12.14-də efirə getmişdir.

ZƏKİ VƏLİD TOĞAN



(başq. Əxmətzəki Vəlidi Tuğan, rus. Ахметзакú Валидú Тоган, tür. Zeki Velidi Togan; 1890-1970)

Zəki Vəlid Toğan 1890-cı ilin dekabrın 10-da başqırdların sıx yaşadığı İsterlitamak bölgəsinin Küzen kəndində doğulmuşdur. Ona Əxmətzəki adını qoyurlar. Gündən-günə güclənən Rusiya bu yerləri Əxmətzəki doğulmamışdan çox-çox əvvəllər işğal emişdi. Ona görə də Əxmətzəki Rusiya vətəndaşı kimi doğuldu və familyası da Validov yazıldı.

Tatarların, başqırdların yaşadıqları bölgələri işğal etməklə gözü doymayan Rusiya ordularını Sakit okeanadək göndərmişdi. Artıq Qafqaz, Türküstan da onun işğalı altında idi. Rusiya çarları işğal etdikləri torpaqlarda yaşayanları öz təbəəsi hesab etsə də, onları Rusiya vətandaşı saysa da, işğal altında doğulanların bir qismi bununla razılaşmır, özünü, millətini və vətənini

azad görmək istəyir və ömünü bu iş uğrunda mübarizəyə həsr edir.

Əxmətzəki də belə mübarizlərdən biri idi. O, ilk təhsilini kəndlərindəki mədərsədə almış, 12 yaşında, yəni 1902-ci ildə orta təhsil almaq üçün Ütekdə yaşayan dayısı Həbib Nəccarın yanına getmişdir.

1908-ci ildə Kazan şəhərinə gələn Zəki Vəlid burada Katanov və Aşmarin kimi türkoloqlarla tanış olur. 1909-ci ildə Kazandakı Qasımiyyə mədrəsəsində "Türk tarixi və ərəb ədəbiyyatı tarixi" müəllimi kimi fəaliyyətə başlayır. 4 ilə yaxın Qasımiyyə mədrəsəsində dərs deyən Zəki Vəlid elmi araşdırmalar da aparır. 1911-ci ildə "Türk və tatar tarixi" kitabını çap etdirir. Bu kitab ona böyük şöhrət qazandırır. 21 yaşlı Zəki Vəlid Kazan Universitetinini Arxeologiya və Tarix Cəmiyyətinə üzv seçilir.

Rusiya işğal etdiyi əraziləri uzunmuddətli əsarət altında saxlamaq üçün o yerləri hərtərəfli öyrənirdi. Zəki Vəlid də öz soyunun tarıxini öyrənmək və yetişməkdə olan vətənpərvər gəncliyi öyrətmək istəyirdi. Buna görə də Rusiyanın siyasəti ilə onun istəyi müəyyən mərhələdə üst-üstə düşürdü. Onun Türküstana

göndərilməsini məmuniyyətlə qarşılayan gənc araşdırıcı 1913-cü ildə Fərqanəyə, 1914-cü ildə Buxaraya gedir. Oradan hazırladığı raportları Peterburqdakı, Kazandakı və Daşkənddəki Arxeoloji Cəmiyyətlərin toplularında çap etdirir.

Professor Katanovun kitablarının İstanbul Universitetnə göndərilməzində də Zəki Vəlidin rolu böyük olur.

1905-ci ildə Rusiyada baş verən inqilab oktyabrda çarın bir sira demokratik islahatlar həyata kecirilməsi haqqında qanun qəbul etməsilə nəticələnir. Yeni qəzet, jurnallar çap olunmağa, Dövlət dumasına seçkilər keçirilməyə başlayır.

Zəki Vəlid də Ufa Müsəlmanlarının deputatı kimi IV Dumaya qatılmaq üçün Peterburqa gedir. Beləliklə elmi fəaliyyətinə siyasî fəaliyyətini də əlavə etməli olur. Burada türk müsəlman deputatlarla görüşür və onlarla birlikdə fəaliyyət proqramlarını müzakirə edir.

1917-ci ilin oktyabrında bolşeviklər silah gücünə hakimiyyəti ələ keçirdikdə Zəki Vəlid də xalqnı əsarətdən qurtarmaq üçün mübarizəyə atılır. 1917-ci ilin noyabrın 29-da Başqırdıstanın müxtariyyətinin elan edilməsində onun da əməyi böyük olur. Yeni yaradılan hökümətdə 27 yaşlı

Zəki Vəlid hərbi naziri vəzifəsini tutur. Lenin, Stalin və Trotçki ilə dəfələrlə görüşsə də Başqırdıstanın azadlığına nail ola bilmir. Çar generallarınn və bölşeviklərin arasinda qalan və hər iki qüvvəyə qarşı döyüşməli olan Başqırdıstan hökuməti 1918-ci ilin fevralın 18-də məğlub olur. Bolşeviklər Zəki Vəlidi və onun məsləkdaşlarını həbs edirlər.

İyunun 7-də həbsdən qaçmağa nail olan Zəki Vəlid Türküstana gedir və Rusiyaya qarşı mübarizəsini burada davam etdirir. 1920-1923-cü illərdə Türküstanda Rusiyaya qarşı amansız bir mübarızə getsə də uğurla nəticələnmir. Xaricdən yardım alan bolşeviklər Türküstanı yenidən işğal edir.

Zəki Vəlid, Abdülkadir İnan və başqa məsləkdaşları ilə birgə çətin şərtlərlə Əfqanıstana, İrana oradan da Parisə gedə bilirlər. Onu Parisdə, Londonda və Berlində yaşayan bir çox alimlər işlə dəvət etsələr də bu dəvətləri qəbul etməyərək 1925-ci ilin mayın 20-də Türkiyəyə gəlir. İstanbul Darülfünunda Türk Tarixi Müdərris Muavini kimi işə başlayır. İstanbul və Anadolu kitabxanalarında yorulmadan çalışan, elmi əsərlərini və məqalələrini Zəki Vəlid imzası ilə çap etdirən

araşdırıcı 1932-ci ildə Türkiyəni tərk edərək Vyanaya getməli olur. Bu gedişinə səbəb kimi I Türk Tarix Konqresində doktor Reşit Galiplə mübahisəsi və bundan sonra onun əleyhinə başlayan kampaniya göstərilir. Əslində həmin illərdə Türkiyəni M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və onlarla keçmiş Rusiyadan gəlmiş mühacir türk tərk etmək məcburiyyətində qalmışdı. SSRİ Xarici İşlər Naziri Çiçerinin Türkiyənin hökümət dairələri ilə apardığı danışıqlardan sonra Sovetlər əleyinə təbliğat aparanlar Türkiyədən çıxarılırdılar.

1932-1935-ci illərdə Vyanada yaşayan və doktorluq dissertasiyası müdafiə edən Zəki Valid Bonn və Qöttingen Universitetlərində dərs deyir. Türkiyə Təhsil Nazirliyinin dəvətiylə 1939-cu ildə geri dönərək İstanbul Universitetində Ümumi Türk tarixi kürsündə dərs deməyə başlamışdır. İkinci Dünya Müharibəsinin sonlarına yaxın onu və məsləkdaşı olduğu bir qrup türkoloqu Sovetlər əleyhinə təbliğatda və Turancılıqda ittiham edərək həbs edirlər.

Zəki Validə 10 il həps cəzası kəsilsə də sonradan Hərbi məhkəmə bu işi ləğv edir. 1948-ci ildən yenidən universitetdə müəllim işləməyə

başlayır. Türkiyədə olan azərbaycanlı mühacirlərlə dostluq və əməkdaşlıq edən Zəki Valid, ensklopediyalara Azərbaycanla bağlı olduqca dəyərli məqalələr də yazır. Türkoloğiyanın inkişafında əvəzsiz xidmətləri olan, əsarətdə olan türk xalqlarının azadlığa çıxması üçün daim yollar axtaran böyük alim və içtimai xadim 1970-ci ilin iyulun 26-da İstanbulda vəfat edir. Onun "Tarixdə üsul", "Ümumtürk tarixinə giriş", "Türkün müqəddəratı üzərinə" kitabları isə türkologiyamıza böyük töhfə olur. Sovetlər zamanında Zəki Vəlidin adını çəkmək belə yasaq olduğu halda indi haqqında olduqca dəyərli kitablar çap olunur, Başqırdıstanda büstü qoyulur, adına muzey yaradılır. Butün bunlar bir daha onu göstərdi ki, Zəki Vəlid və məsləkdaşları nə qədər haqlı imişlər.


Sevindirici haldır ki, xalqlarımız yavaş-yavaş da olsa öz mədəniyyətlərinə, tarixlərinə, millət və vətən uğrunda həyatlarını qurban vermiş insanlarına sahib çıxmağa başlayırlar. TürkSOY-un 2010-cu ili Əxmətzəki Vəlid Toğan ili elan etməsi də buna nümunə ola bilər.

Zəki Vəlid Toğan ilinin ilk tədbirlərindən biri də Bakı şəhərində keçirildi. 2010-cu ilin

aprelin 29-30-da Mirzə Fətəli Axundov adına Milli Kitabxanada tanınmış türkoloq Əxmətzəki Vəlidin 120 illik yubileyinə həsr olunmuş sərgi və beynəlxalq elmi konfrans təşkil edildi. Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin, TürkSOY-un və AMEA-nın Şərqşünaslıq İnstitutunun birgə təşkil etdiyi bu tədbirdə Türkiyədən, Qazaxıstandan, Özbəkistandan, Qırğızıstandan, Türkmənistandan, Başqırdıstandan və Krımdan alimlər, yubilyarın qızı və nəvəsi də gəlmişdi. Uzun illər adı və əsərləri qadağan olunmuş bir yerdə onun yübiley tədbirinin yüksək səviyyədə təşkili sevindirici idi.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2010-cü il mayın 26-da, saat 12.14-də efirə getmişdir.

ZİYA KAMAL



(tat. Камали Зия; Парваз ад-дин, əski əlifba ilə ضيا كامال, *rus. Джамал ад-дин б. Камал ад-дин; 1873-1942)*

Pərvaz əd-din Camal əd-din oğlu 1873-cü ilin dekabrın 9-da Rusiyanın işğal etdiyi bölgədə yaratdığı Ufa quberniyasının Qara Yakup qəzasının, indiki Çişmin rayonunun Klyaş kəndində yoxsul bir ailədə dünyaya gəlmiş, ilk təhsilini də mollaxanada almışdır. Uzun illər Sovet təbliğatının məktəb belə saymadığı mollaxanaları, mədrəsələri bitirənlər arasından minlərlə istedadlı şair, yazıçı, dövlət xadimi, iş adamı yetişmişdi. Ziya Kamali də belə istedadlılardan biri olduğuna görə soydaşları onun təhsilini davam etdirməsi qayğısına qalmış, beləliklə cəmiyyət və millət üçün dəyərli bir insan hazırlamışlar.

Əslində onun adı, atasının adı və soyadı Pərvaz əd-din Camal əd-din Kamal əd-dinov şəklindədir. “Ov”, “yev”, “of” şəkilçisi Rusiya əsarətinə düşmüş müsəlman xalqları arasında olduqca yayğındır. Qəribədir ki, gürcülər, ermənilər, latışlar, estonlar və b. xalqlar da Rusiya əsarətinə düşsələr də əksəriyyəti özlərinəməxsus soyadlarını qoruyub saxlaya bildilər. Müsəlman xalqları isə əksinə, əhalisinin əksəriyyəti rus soyadını qəbul etdi, çox az bir qismi isə ya polşalıların “ski” sonluqlu soyadını, yaxud da şərq mənşəli soyadlarından istifadə etdilər.

Ziya Kamali kəndlərindəki mollaxananı bitirdikdən sonra Ufadakı “Qosmaniyə” mədrəsəsində oxumuşdur. Mədrəsənin tələbəsi olmaqla yanaşı həm də aşağı siniflərdə dərs demişdir. Az zamanda ağlı, yüksək mədəniyyəti, oxumaq həvəsilə bölgə ziyalılarının diqqətinin özünə çəkə bilmişdir. Odur ki, dini icma 1898-ci ildə Pərvaz əd-din Camal əd-din oğlunu Osmanlı dövlətinin paytaxtı İstanbulda ali təhsil almağa göndərmişdir.

Onun yol və təhsil xərclərinin qarşılanmasında isə Ufa müftisi Muhammədyar Sultanov, tacir Sədrəddin Nəzirov, Krım

müsəlmanlarının icması xüsusi fəallıq göstərmişlər. Dini və elmi biliklərə yiyələnmiş, pedaqoji təcrübə toplamış Pərvaz əd-din Camal əd-din oğlu 1898-1900-cü illərdə İstanbulda oxuduqdan sonra Qahirəyə gedir. Oradakı məşhur Əl-Əxzar Universitetinin fəlsəfə fakültəsinə qəbul olunur. 1900-1903-cü illərdə Qahirədə təhsil aldıqdan sonra Mədinəyə gedir. Bir il də burada ərəb ədəbiyyatı və hədis elmini öyrənir.

Pərvaz əd-dinin Əl-Əxzar Universitetində məşhur islahatçı alim Mühəmməd Əbdül ilə tanışlığı onun həyat yolunu müəyyənləşdirir. Sevimli müəllimi Mühəmməd Əbdülün məsləhətilə adını Ziya əd-din yazır. Ondan sonra məqalələrini, kitablarını Ziya əd-din Kamali, yaxud da qısaca Ziya Kamali imzasıyla yazır.

Ziya Kamali də müəllimi kimi yenilikçi din xadimləri, vətənsevər ziyalılar yetişdirməək üçün vətənə dönür. Yolüstü bir ara Bakıda yaşayır, "Həyat" qəzeti üçün məqalə yazır. Məqaləsinin məzmunu xeyriyyəçi Hacı Zeyalabdin Tağıyevin diqqətini çəkir. Tağıyev onu yanına dəvət edir. Ziya Kamalinin davranışı, söhbəti, gələcək planları Azərbaycanlı xeyriyyəçinin xoşuna gəlir. O, gənc filosofa

dövrü üçün xeyli böyük məbləğ olan 50 manat verir.

1905-cü ildə Ufaya gələn Ziya Kamali bir zamanlar təhsil aldığı "Qosmaniyə" mədrəsəsində Quranı Kərimin tədrisindən, İslam fəlsəfəsindən dərs deməklə yanaşı "Müsəlman dünyası" jurnalına məqalələr yazır.

Rusiyanın yaponlarla savaşında uduzması, ölkəni bürümüş hərc-mərclik, tətillər, mitinqlər, dərnək və partiyaların surətlə artması öz təsirini göstərir. 300 illik Romanovlar sülaləsinin çoküşü başlayır. Hakimiyyəti qorumaq və yaşatmaq üçün 1905-ci ilin oktyabrın 17-də çar II Nikolay manifest imzalamalı olur. Tarixə "17 Oktyabr manifesti" adı ilə daxil olan bu sənədə əsasən hakimiyyətin yeni forması-konstitusiyalı monarxiyaya doğru addım atılır. Dövlət Duması yaradılır, qəzet jurnallar üzərindəki nəzarət yumşaldılır, məscidlərin, kilsələrin və b. mərkəzlərin tikintisinə, dini icmaların yaradılmasına, mitinq və toplantılara icazə verilir.

Bundan yararlanan tatar-başqırdlar Ufa şəhərində 1906-cı ilin oktyabrın 7-də yüksək ali təhsil ocağı olan ilk mədrəsəni açmağa təşəbbüs göstərirlər. "Qaliyə" adlandırılan mədrəsədə

təhsil üç pilləli olur və burada oxuyanlarda təhsil xərci alınmaması nəzərdə tutulur.

Xeyriyyəçilərdən Sufiyə xanım Canturina min manat, Sədrəddin əfəndi Nəzirov 300 manat, Bədri fəndi Nəzirov, Əbdülləşir əfəndi Hakimov, Hasan əfəndi Kərimov hər biri 100 manat, başqaları da bacardıqları qədər yardım edirlər. Beləliklə 1930 manat toplanaraq mədrəsənin fonduna keçirilir. Mədrəsənin binası olmadığından dərslər məsciddə keçirilir.

Ziya Kamalinin rəhbərlik etdiyi "Qaliyə" mədrəsəsində Lütfülla Bayçurun, Xatmulla Fazılov, Zarif hazret Alkayev kimi dövrün məşhur ziyalıları dərs deməyə başlayır. Birinci il mədrəsəyə imtahanla 60-70 şagird qəbul edilməsi planlaşdırılır.

Mədrəsənin tədris proqramına ərəb dilinin qramatikası, bəlağət, qısa İslam tarixi, İslam hüququ, riyaziyyat, coğrafiya,və b. fənlər daxil edilməklə yanaşı, bir sıra fənlərdən də xüsusi kurslar təşkil edilir.

"Qaliyə" mədrəsəsində dərslər 1906-cı ilin noyabrın 15-də başlayır. Ziya Kamalinin yüksək təşkilatçılığı sayəsində mədrəsənin nüfuzu artır. Tədris ocağı üçün yeni bina tikmək planlaşdırılır. Sufiyə xanım Canturina on min

manat, Sədrəddin əfəndi Nəzirov on min manat, Kutlu Muhammməd əfəndi Alkin iki min manat, Mehpərvaz xanım Şeyxəliyeva üç min manat və b. yardım edirlər. Toplanan pul 25700 manat olur. Bundan əlavə kərpic, tikinti materialları, tələbə və müəllimlərin geyməsi üçün parça, yataqxanaları üçün yorğan, döşək, qab-qaçaq da verənlər olur. Beləcə mədrəsənin işləri gündən günə yaxşılaşır.

Ziya Kamali mədrəsənin təşkilati işləri ilə məşğul olmaqla, fəlsəfədən dərs deməklə yanaşı dərsliklər yazır, Qurani Kərimi tatar dilinə çevirir, cümə günləri məsciddə xütbələr oxuyur. Demokratik görüşləri ilə seçilən, təcrübəli pedaqoq olan Ziya Kamali tələbələri həvəsləndirərək mədrəsədə əlyazma hüququnda tatar, qazaq, özbək və b. dillərdə jurnalların nəşrinə nail olur.

1906-cı ildən Ufada nəşrə başlayan "Müsəlman dünyası" qəzetinin redkolleksiyasının üzvü olan Ziya Kamali çox vaxt qəzetin redaktə işlərini də öz üzərinə götürür.

1908-ci ildə onu Ufa şəhərindəki ikinci cümə məscidinə imam secilən Ziya Kamalinin 1909-cu ildə Ufadakı "Şərq" mətbəəsində "İslam fəlsəfəsi" əsərinin dördüncü hissəsi kitab

kimi çap olunur. Bu kitab istər Rusiyada, istərsə də xarici ölkələrdə yaşayan islamşünas alimlər və ziyalılar arasında bıyük əks-səda doğurur.

Ziya Kamalinin "İslam fəlsəfəsi" əsərinin 1-3-cü bölmələri də Ufada 1910, 1913-cü illərdə işiq üzü görür. Cəmiyyətdəki mövqeyi möhkəmləndikcə, hökumət məmurlarının ona təzyiq etmə imkanları azaldıqca o, daha cəsarətli addımlar atır. Belə ki, 1915-ci ildə qızlar üçün "Anasiya" adlı pedaqoji yönlü ali təhsil ocağı açmağa nail olur.

İstər "Qaliyə", istərsə "Anasiya" mədrəsələrini bitirən tatar, başqırd, özbək, qazax, qırğız, uyğur gənclərin çox az qismi məscidlərdə işləyir, əksəriyyəti elmi, ədəbi, ictimai-siyasi fəaliyyətlə məşğul olur və dövrünün məşhur insanlarına çevrilir.

1917-ci ildə Rusiyanı bürüyən qarışıqlıq, əsarət altında olan xalqların azadlıq mübarizəsinə qalxması, Ziya Kamalinin də siyasi fəaliyyətə başlamasına səbəb olur. 1917-ci ilin martında Ufada çağırılan Müsəlman Dini Şurasına üzv seçilir. 1917-ci ilin mayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının Birinci Qurultayında fəal iştirak edir. 1917-ci ilin noyabrından 1918-ci ilin yanvarına

kimi Ufada fəaliyyət göstərən Daxili Rusiya və Sibir Müsəlmanlarının Milli Şurasında dövlət quruculuğu işlərilə məşğul olur. Lakin admiral Kolçakın silah gücünə qurduğu diktatura onlara arzularını həyata keçirməyə imkan vermir.

Vətəndaş müharibəsinin ağır illərində Ziya Kamali mədrəsəni yaşadırsa da bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra "Qaliyə" mədrəsəsini bağladaraq yerində Fatima Dövlətgəldiyevanın rəhbərliyi ilə ikinci dərəcəli oğlan məktəbi açır.

Ziya Kamali Ufadakı üçüncü cümə məscidində imamlıq etməyə başlayır. Lakin onun məsciddəki imanlığı heç də asan olmur. Sovetlərin dinə qarşı təzyiqləri artır. Məscidlərin bağlanması, ərəb əlifbası ilə yazının qadağan edilməsi böyük din alimi və filosofu sarsıdır. 1923-cü ildə Daxili Rusiya və Sibir Müsəlmanlarının Mərkəzi Dini İdarəsinin şəriət hakimiqazısı seçilməsinə, idarənin 1924-1928-ci illərdə nəşr etdiyi "İslam məclisi" məcmuəsinin redaktoru olmasına baxmayaraq onu 1929-cu ildə məscid imamlığından çıxararaq istintaqa cəlb edirlər. Uzun müddətli həbs cəzasına məhkum etməsələr də normal işləməsinə, yaradıcılıqla məşğul olmasına mane olurlar.

1936-cı ilin aprelində müfti Rıza Faxrettinov rəhmətə gedəndə onun yerinə real namizəd Ziya Kamali olur. Lakin Sovet xüsusi xidmət orqanları belə dərin savadlı din aliminin həmin vəzifəni tutmasını özləri üçün təhlükəli hesab etdiklərindən həbsinə qərar verirlər. 1936-cı ildə uzun istintaqdan sonra fəaliyyətində qanun pozuntusu tapmasalar da yeddi il həbs cəzası kəsir və Samara şəhərindəki həbsxanaya göndərirlər.

Lakin onu həbsxanada da dinc buraxmırlar. Çünki verdikləri cəza ilə qane olmurdular. 1938-1939-cu illərdə yenidən məhkəməyə cəlb edilərək hər dəfə də cəzasını artırırlar. Böyük filosof və İslam alimi həbsxanada da dünyasını dəyişir.

1956-cı ildən sonra ona da formal bəraət verilir. Lakin əsərlərinin nəşri və haqqında yazılması qadağan edilir. Sovetlər Birliyi dağıldıqdan sonra Ziya Kamali haqqında həqiqətlər ortaya çıxır.

TRT və Azərbaycan İctimai Radiosunun "Qorqud Ata" proqramının "Türk dünyasının məşhurları" rubrikası ilə 2012-ci il dekabrda, saat 12.14-də efirə getmişdir.

ƏLİ ŞAMİL

TATAR, BAŞQIRD, ÇUVAŞ:

məqalələr

Direktor: Səbuhi Aslan
Dizayner: Nigar Sadıqova
Texniki redaktor: Hüseyn Məmmədov

Çapa imzalanmışdır: 20.09.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru

Qeyd üçün: